HARUN YƏHYANIN ƏSƏRLƏRİ HAQQINDA

# DÜNYADAN ƏKS SƏDA

## II CİLD



ARAŞDIRMA NƏŞRİYYAT

# MÜNDƏRİCAT


**GİRİŞ**

**1-Cİ HİSSƏ**

- ✓ Dünya mediasında yer alan elan və xəbərlər
- ✓ Harun Yəhyanı və əsərlərini tanıdan müxtəlif qəzet elanları və xəbərlər

**2-Cİ HİSSƏ**

- ✓ Məktublar
- ✓ Xaricdəki oxuculardan Harun Yəhyaya gələn məktublar

**3-CÜ HİSSƏ**

- ✓ Konfranslar və sərgilər
- ✓ Harun Yəhyanın əsərlərinə əsaslanaraq dünyanın müxtəlif ölkələrində təşkil olunan konfrans və sərgilər

**4-CÜ HİSSƏ**

- ✓ Məqalələr
- ✓ Harun Yəhyanın dünyanın müxtəlif qəzet və jurnallarda nəşr olunan məqalələri

## 5-Ci HİSSƏ

- ✓ Harun Yəhyanın sənədli filmləri və səs kasetləri
- ✓ Harun Yəhyanın dünya televiziyalarında və radiolarında müxtəlif dillərdə yayımlanan sənədli filmləri və səs kasetləri

## 6-Ci HİSSƏ

- ✓ Harun Yəhya internet saytları
- ✓ Müxtəlif dillərdə Harun Yəhyanın əsərlərindən hazırlanan 100-dən çox internet saytı

## 7-Ci HİSSƏ

- ✓ Harun Yəhyanın çalışmalarına əsaslanan internet saytları
- ✓ Müxtəlif dillərdə Harun Yəhyanın əsərlərinə yer verən internet saytları

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya,

Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə

dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# GİRİŞ

Harun Yəhyanın əsərlərinin dünya üzərindəki təsirini nümayiş etdirən bu kitab, "Dünyadan əks-sədalar" kitabının ikinci cildidir. Kitabın ilk cildinin hazırlandığı 2002-ci il mart ayından bu günə qədər Harun Yəhyanın əsərlərinin sayı, əsərlərin tərcümə edildiyi dillərin sayı, məqalələrin nəşr olunduğu jurnal və qəzetlərin, sənədli filmlərin yayımlandığı televiziya və internet səhifələrinin sayı daha da artmışdır.

Bu marağın əsas səbəblərindən biri Harun Yəhyanın elmi, imani və siyasi mövzulardakı 200-dən çox əsərindən hər birinin insanların dünyaya münasibətlərini dəyişdirməsidir. Harun Yəhya kainatdakı yaradılış dəlillərini gözlər önünə sərdiyi elmi kitabları ilə, İslam əxlaqını Quran ayələri ilə izah etdiyi əsərləri ilə və dünyadakı siyasi və tarixi hadisələrin pərdə arxasında qalmış gizli tərəflərini ortaya qoyduğu siyasi kitabları ilə hər ölkədən, hər dil və dindən olan milyonlarla insana xitab edir. Bu tərəfi ilə Harun Yəhya külliyyatı bütün dünyada böyük əks-səda oyandırır.

Amerika, İngiltərə, Rusiya, Qazaxıstan, Cənubi Afrika, Braziliya, İndoneziya, Sinqapur, Malaziya, Fransa, Nigeriya, Kanada, Livan, Azərbaycan, Rusiya kimi dünyanın hər hansı ölkəsindəki kitab köşklərində Harun Yəhyanın kitablarını, jurnal və qəzetlərdə müxtəlif dillərdəki məqalələrini görmək mümkündür. Müəllifin əsərlərindən faydalanılaraq hazırlanan sənədli və səsli izahatlar da dünyanın dörd tərəfində yayımlanan radio və televiziya kanallarında çox böyük marağa səbəb olur.

Müəllifin əsərləri ingilis, fransız, alman, italyan, rus, alban, ispan, portuqal, leh, boşnaq, indoneziya, malaya, urda, eston, ərəb, kişvahili, hausa, bolqar, serb, uyğur və benqalı, azərbaycan, rus kimi dillərə tərcümə edilmişdir. Üstəlik, müxtəlif dillərə edilən tərcümələr davam edir. Hədəf isə bütün kitabların dünyanın dörd tərəfinə paylanması və bütün insanların Allahın varlığından, Quran əxlaqının gözəlliklərindən, axirətin varlığından və Darvinizm yalanından xəbərdar olmalarının təmin edilməsidir.

Harun Yəhya Quranın təbliğini bütün dünyaya çatdırmaq və beləliklə, insanları Allahın varlığı və birliyi kimi imani mövzularda düşünməyə sövq etmək məqsədi ilə yazdığı əsərlərinin, insanlar tərəfindən asanlıqla oxunmasını qarşısına məqsəd

qoymuşdur. Bu məqsədlə açılan internet saytları hər gün minlərlə insana xidmət edir. Bu saytlarda, Harun Yəhyanın qələmə aldığı 200-dən çox kitabın tam mətni və şəkilləri ilə yanaşı səsli izahlar və sənədli filmlər də internet istifadəçilərinə ödənişsiz təqdim edilir. Bu, internet üzərində rast gəlinməyən bir xidmətdir. Çünki kitab təqdimatı edən digər saytlarda, kitabların yalnız qısa xülasəsi verilir, ya da əsas başlıqları sadalanır, tam mətnləri istisna edilməklə ödənişsiz verilir. Halbuki, Harun Yəhya saytlarında bütün çalışmalar diləyən hər kəsin asanlıqla əldə edə biləcəyi şəkildədir və bu çalışmalarla əlaqədar heç bir maddi qazanc əldə edilmir.

Əlinizdəki bu kitabın hazırlanmasındakı məqsəd isə kitablardan sənədli filmlərə qədər çox geniş miqyasda yer alan Harun Yəhya külliyyatının dünyadakı təsirləri haqqında insanları məlumatlandırmaqdır. Harun Yəhyanın əsərlərinin yer aldığı İslami və elmi təşkilatların və müxtəlif universitetlərin internet səhifələrini, dünyanın dörd tərəfindən gələn oxucu məktublarını, Harun Yəhya əsərlərinin nümayiş etdirildiyi sərgilər və konfranslarda yaranan böyük təsirin əks-sədalarını tapa biləcəyiniz bu kitabda müəyyən sayda qaynağa yer verilmişdir. Həqiqətdə isə bu təsir təxmin ediləndən daha böyükdür.

# HARUN YƏHYANIN ƏSƏRLƏRİNİN VƏSİLƏSİ İLƏ İMAN EDƏNLƏR VƏ İMANLARI ARTANLAR

Harun Yəhyanın çalışmalarının dünya səviyyəsindəki təsirini nümayiş etdirən ən əhəmiyyətli məqamlardan biri də, bu çalışmalar vəsiləsi ilə iman edən və ya imanı güclənən çox sayda insan olmasıdır. Bununla əlaqədar çoxlu oxucu məktubu və mesaj gəlir. Burada yalnız az hissəsinə yer verdiyimiz bu mesajlar, Harun Yəhyanın əsərlərinin yaratdığı böyük təsirin yalnız bir neçə nümunəsidir.

"Sizin Rus dilindəki bütün kitablarınızı oxuyuram. Sibirdə yaşayıram. Yoldaşım rusdur. **Sizin kitablarınızın və Quranın köməyi ilə İslamı seçdi.** Dinimizi Quran ayələri ilə açıqlayıb bizə doğru yolu göstərən, belə gözəl insan olduğu üçün çox xoşbəxtəm. Allah cəhdlərinizi artırsın və bəşəriyyət üçün daha təsirli etsin."

**Mohammad Arif – Riyad**

**"Sizin kitablarınız sayəsində bir Müsəlman olaraq imanım gücləndi.** Allah sizi mükafatlandırsın. Öyrəndiklərimi ingiliscə bilməyən milyonlarla Müsəlman qardaşlarımla paylaşmaq istəyirəm. Buna görə sizdən çalışmalarınızı Hausa dilinə tərcümə etmək üçün icazə istəyirəm. Vəkiləm və icazənizə ehtiyacım var. Salamlar..."

**Nuraddeen Ayagi – Nigeriya**

"Salam. Mən Kosovadan olan bir Müsəlmanam. **Daha əvvəlki həyatımın necə olduğu əhəmiyyətli deyil. Amma Harun Yəhyanın kitabları sayəsində özümü "daha da"**

**Müsəlman kimi hiss edirəm. Bu şəkildə nizamlı olaraq namaz qılmağa başladım.** Daha əvvəl nizamlı olaraq namaz qılmırdım. Qaranlığa doğru gedərkən özümü daha doğruya gedən görürəm. Harun Yəhyanın kitabları sayəsində artıq dünyanı çox fərqli görürəm. Allahın köməyi ilə kitabınızı ingilis dilindən Alban dilinə tərcümə edirəm. Sizə göndərəcəyəm, beləliklə, Albaniyadan oxuyucular faydalana bilərlər. Sizin üçün hər şeyin ən yaxşısını diləyirəm."

**Ali Avdiu – Kosova**

**"Harun Yəhyanın bəzi kitablarının tərcüməsini şəxsən tamamladıqdan sonra imanımın artdığını hiss etdim və özümü Harun Yəhya kimi Allaha həsr etmək üçün söz verdim.** İnşaAllah, bir neçə il içində Türkiyədəki cəmiyyətdə dəyişikliklər olduğu kimi, Harun Yəhya əsərləri Tailandda da dəyişiklik yaradacaq."

**Zaki – Tayland**

**"Salam, İslam dinini qəbul etdim, Allaha şükürlər olsun. Bunda cənab Yəhyanın çalışmalarının böyük payı vardır.** Bu səbəblə, minnətdarlığımı bildirmək istəyirəm... Harun Yəhyanın açıqladığı mövzular vəsiləsi ilə qazandığım sabitliyə heyrətlənirəm, bu mövzuda milyardlarla insan çaşqın vəziyyətdədir... Vaxt ayırdığınız üçün təşəkkür edirəm."

**Tom Malies**

"İndi "Təkamül nəzəriyyəsinin tənəzzülü"nü oxudum, çox gözəldir. Ağlıma gələn (liseydə biologiya dərsində oxuduğum mövzularla əlaqədar) və cavabını tapa bilmədiyim hər sual cavablandırıldı. Ən diqqətə layiqi bakteriyaların antibiotiklərə qarşı immunitet qazanmasıdır. Bu kitabı bu qədər açıq və ödənişsiz etdiyiniz üçün çox təşəkkürlər. **Bu çalışma sayəsində Allaha olan inamım daha da artdı."**

**Christopher**

"Bu, çox gözəl internet saytıdır. MaşaAllah. **Çalışmalarınızın mənə çox faydası oldu. Xüsusilə də, "Dünya həyatının həqiqətləri" adlı kitabınız. Mənə Allaha bağlanmağım üçün ilham verdi.** Məncə videolar, kasetlər və kitablar hazırlayıb bunları ödənişsiz təqdim etməyiniz çox alicənab davranışdır. Bir çox insan Allaha daha çox yaxınlaşmaq istəyir, amma bu məlumatları əldə etmək üçün pulları çatmırdı. Allah sizi etdikləriniz müqabilində mükafatlandırsın. Sizə İslamı dünyanın hər yerinə yaymaq üçün güc və qabiliyyət verməyi davam etdirsin."

**Sr. Rahmah – Nijerya**

"Çalışmalarınızın böyük hissəsini oxudum və bunlara şahid oldum. İllərdir doğrunu axtarırdım, amma tapa bilmirdim... İnsanlar bəzi şeylər söylədilər, amma heç biri bir məna ifadə etmədi. **Amma sizin kitablarınız və məqalələriniz çox şey ifadə etdi...** Bizə görə bilmədiyimiz, amma əslində var olan şeyləri göstərdikləri üçün sizə və sizinlə birlikdə çalışan şəxslərə təşəkkür etmək istəyirəm... Dinim üçün etdiyiniz hər şey üçün təşəkkürlər. Allah sizi qorusun, sizi və hamımızı sadiqlərdən etsin. Hamımız Quranın nurunu görək və İslam dünyanı idarə etsin."

**Sardar Umair Ali Khan Saddozai – Pakistan**

"Salam, sizə ilk dəfə yazmaqdan və sizə hər mövzuda kömək etmək istədiyimi bildirməkdən xoşbəxtlik duyuram. **Bunu etmək istəməyimin səbəbi Harun Yəhyanın əsərlərindən çox istifadə etməyimdir.** Bu günə qədər 30-dan çox kitabınızı kompüterimə yüklədim. Onları davamlı olaraq və sevərək oxuyuram. **Mənim Allaha olan imanım üzərində çox böyük təsiri oldu.** Quran və sünnə haqqında çox məlumatım olmasına, İslami xalq söhbətlərinə qatılmağıma baxmayaraq, beş vaxt namazlarımı inandığım üçün etmirdim. Amma Allahın mənə bir gün həqiqətləri göstərəcəyini ümid edirdim. **Darvinistlərin ortaya atdığı fərziyyələr başımı çox qarışdırmışdı və çıxılmaz vəziyyətdə qalmışdım. Amma indi Allahın rəhməti sayəsində, Harun Yəhyanın kitabları ilə Allaha olan güclü və tam iman qazandım.** Bunun ardından ağılımdakı boş, bir-biri ilə ziddiyyət təşkil edən iddiaları kənara atdım. Bundan sonra mənim əxlaqi məsuliyyətim

başqalarının da bunlardan istifadə etmələrini təmin etmək və onların Yaradıcımız olan Allah ilə səmimi bağ qurmalarına vəsilə olmaqdır. İlk təşəbbüs olaraq Nigeriya şagirdlər birliyi rəhbəri ilə əlaqə quracağam və bu kitabları ölkənin bütün liseylərindəki şagirdlərə tanıtma və tədrisi mövzusunda mənə necə kömək ola biləcəyinə baxacağam. Məncə, bu yaxşı başlanğıc olacaq. Bundan başqa Nigeriyada danışılan bir çox dilə tərcümə edəcək çox sayda yoldaşlarım var. Bunda da problem olmayacaq."

**Musa Dayyib Harun – Nigeriya**

**"Salam, saytınız kainatın Yaradıcısı olan Allah ilə əlaqəmin qurulmasına kömək etdi, imanımı gücləndirdi və həyatın həqiqətlərini anlamağı təmin etdi.** Uca Allah sizi bu çalışmalarınıza görə nemətləndirsin."

**Adam Elder – ABŞ**

**"Yoldaşlarım da daxil olmaqla 2 ay əvvələ qədər çox günahkar insanlardıq. Həmişə nəfsimizə məğlub olurduq.** Amma bir gün Harun Yəhyanın saytına rast gəldim və araşdırdım, hətta Türkiyədən VCD-lərini sifariş etdim və yoldaşlarımla birlikdə izlədik. Hamımız səhv etdiyimizi anladıq. Nəticədə Allah qəlblərimizi nurlandırdı. **Biz də hər şeyə tövbə edib bundan sonrası üçün yalnız Allaha qul ola bilmək üçün yaşayacağımıza qərar verdik."**

**İsveçrə**

"Salam, cənab Harun Yəhya. Xahiş edirəm, bu mesajımızı qardaşım Harun Yəhyaya çatdırın. Təşəkkürlər. Çalışmalarınızı və əsərlərinizi həqiqətən təqdir edirəm və pulsuz olaraq yükləmə fürsəti verdiyiniz filmləri seyr etməyi çox sevirəm. Allah bütün səyləriniz üçün sizi mükafatlandırsın və sizi Cənnətinə daxil etsin. Yalnız sizin üçün deyil, əsərləriniz mövzusunda sizə kömək edən hər kəs üçün dua edirəm. Anladığınız kimi mən onsuz da Müsəlmanam və **əsərlərinizin mənim üzərimdə çox böyük təsiri oldu.**

**Allahın ucalığına və dünyanın yaradılışındakı qüsursuzluğa olan imanımı gücləndirdi.** Kitablarınız əsaslı və asan başa düşülən məlumatlarla doludur. MaşaAllah."

**Bilal Chbib – Almanya**

"Allahın rəhməti üzərinizə olsun. Albaniyada yaşayıram. İnternet saytınız sayəsində əsərlərinizlə tanış oldum. **Bu əsərlər mənim dünyamı dəyişdirir.** Çox maraqlı və həqiqətə uyğundur. Mənə təsir edən Quranın nuru ilə ilham tapmış həyatın fərqli istiqamətlərinə olan yanaşmanızdır. **Bizə indiyə qədər bilmədiyimiz çox şey öyrətdiniz və əsl imanı daha yaxşı anlamağımızı təmin etdiniz.** Quranı həyatımızda tətbiq etməyimizə kömək etdiniz. Çalışmalarınız həqiqətən möhtəşəmdir və sizi bu mövzuda təşviq etmək istəyirəm. Allah sizi bütün nemətləri ilə mükafatlandırsın və doğru yola yönəltsin.

**Sizin çalışmalarınız indiyə qədər rast gəldiyim qaynaqlar içərisində mənə və bütün Albaniyadakı insanlara Allahı tanımaq və Onun böyüklüyünü qavramaq üçün ən böyük köməkçidir.** Bəlkə də bilirsiniz, Albaniyada media və televiziya degenerasiya olunmuş əxlaqi təhsili verir və bu da ən çox uşaqlara təsir edir. Məncə, bu sahədə ən uyğun həll yolu sizin materiallarınızdır. Bu günlərdə internetdən yüklədiyim uşaqlarla əlaqədar əsərlərinizi oxuyacağam. Bunları tərcümə etmək istəyirəm."

**Altin – Arnavutluk**

"Salam Əleykum! **Harun Yəhyanın əsərlərindən bir hissə oxuyanda və bir neçə videosunu izləyəndə uzun zamandır axtardığım həqiqəti tapdığımı anladım və iman etdim.** Əvvəllər türklər haqqında bəzi ön mühakimələrə sahib idim və onların İslamı yaxşı təmsil etmədiklərinə inanardım. Ta ki Harun Yəhyanı tanıyana qədər... Harun Yəhya imanlı bir Türkdür. Ümid edirəm, Allah daha çox insanı sizin yolunuza sövq edər. Allah Harun Yəhyaya və köməkçilərinə güc, qüvvət versin. Allah inananları qorusun. Allahın salamı üzərinizə olsun."

**Redouan – Almanya**

“Sizin əsərlərinizdən çox ilham alıram. **Mənim Allaha olan inancımı artırdılar.** Əsərlərinizin ingilis dilində olanların hamısını almaq istəyirəm. Bunun üçün mənə yol göstərə bilərsinizmi?”

**Şamil Xan – İngiltərə**

“Bütün Müsəlman qardaşlarıma salam. **Bu mənim fərqli düşünməyimi və həqiqəti görməyimi təmin edən heyrətverici bir səhifədir.** Müəllifə belə internet saytı hazırladığı və insanların həyatını dəyişdirdiyi üçün təşəkkür edirəm. İnşaAllah daha çox insan həqiqəti qavrayacaq. Allahdan başqa İlah yoxdur və hz. Məhəmməd (s.ə.v) Onun elçisidir.”

**Noor-nahar Hoque – İngiltərə**

“Qardaşımız Harun Yəhyanı tanımağın mənə nə qədər xoşbəxtlik verdiyini izah edə bilmərəm. **Mən Katolik ailəyə məxsusam, Əlhəmdülillah, 7 il əvvəl Müsəlman oldum. Mənim həqiqəti tapmağımda Harun Yəhyanın məqalələrinin çox böyük köməyi oldu.”**

**Jalil Al Biruani – Peru**

“Salam. Adım Amir Afridir. Pakistanlıyam. Əsərinizi gördüm və inanın ki, həyatımda ilk dəfə belə çalışma gördüyüm üçün gözlərimə inana bilmədim. Televizorda “İndus Vision” kanalında sizin proqramınıza rast gəldim. Belə çalışmanın İslam üçün edilə biləcəyini təxmin edə bilməzdim. Çünki bu gün gördüyümüz sadəcə bəzi darıxdırıcı proqramlar və oxumayacağımız kitablardır... İyirmi iki yaşındayam və oxuduqlarıma əsasən iki problemim var idi və artıq hz. İsanın yer üzünə bir daha geri gəlməyəcəyinə və hər canlının təkamül prosesindən keçdiyinə inanmağa başlamışdım. Ancaq proqramda sizin internet saytınızı qeyd etdim və mənim mövqeyim ilə əlaqədar bəzi kitabları kompüterimə yüklədim. Harun Yəhyaya necə təşəkkür edəcəyimi bilmirəm. **Hz. İsa və Darvinizm mövzusunda kitablarını oxudum. Məni tam olaraq dəyişdirdilər deyə bilərəm. Əsərləri mükəmməldir.** İlk olaraq sizə və qrupunuza təşəkkür edirəm. Xahiş

edirəm, mənə İslam üçün nə edə biləcəyimi söyləyin. **Son olaraq xahiş edirəm, Harun Yəhyaya məndən bəhs edin. Əsərləri ilə necə bir insanı Müsəlman etdiyini izah edin.** Bir insan etdiklərinizin qarşılığını verə bilməz, yalnız Allah verər. Allah sizi qorusun. Pərəstişkarınız və xidmətçiniz Amir Afridi."

**Amir Afridi - Pakistan**

"Möhtərəm mömin qardaşlarımız, Rusiyada yaşayan Müsəlman qardaşlar adından sizə səmimi salamlarımızı çatdırıram.

Yetmiş illik kommunizm zülmündən xilas olduqdan sonra Rusiyada yaşayan müsəlmanlar öz şəxsiyyətlərini tapdılar. İslamın və Müsəlman kimi yaşamağın nə olduğunu anladılar. Amma imanı qüvvətləndirmək üçün yetərli məlumatlar və müdrik şəxslər tapılmadığı üçün Rusiya müsəlmanları çox əziyyətli günlər yaşadı. **Allaha şükür, sizin kitablar rus dilinə tərcümə edildikdən sonra insanlar imanlarını elmi dəlillər işığında qüvvətləndirməyə başladılar. Müsəlman olmayan şəxslər kitablarınızı oxuduqdan sonra İslamı qəbul edir, İslam haqqında ön mühakimələri olan (etnik) Müsəlmanlar isə ön mühakimələrinin nə qədər yanlış olduğunu anlayırlar... Allah Celle-Celaluhu sizi bu insanlara hidayət vəsiləsi olaraq göndərmiş, kitablarınızın rus dilinə tərcüməsi də insanların aydınlanma və hidayətə gəlmə vəsiləsi olmuşdur.** Əsərlərinizdəki ixlas və səmimiyyət qəlbləri aydınladır, illərlə yığılmış çirkləri silib atır və nurlandırır. Rusiyada İslamı seçən şəxslərin sayı gündən günə artır, lakin bununla yanaşı İslamı öz məqsəd və mənfəətlərinə uyğun istifadə edən şəxslər də az deyil. Bu yazdıqlarımız şikayət mahiyyətində deyil, yalnız İslam ictimaiyyətini aydınlandırmaq məqsədi ilədir. Rusiyada yaşayan müsəlmanlar olaraq bizim İslami ədəbiyyata ehtiyacımız bəlkə də digər ölkələrdən daha çoxdur. Rusca əlimizdə olan ədəbiyyat ya çox az məlumat ehtiva edir, ya da tərcümə səhvləri var. Hal-hazırda Ərəb ölkələrində təhsil almış yoldaşlar maddi çətinliklərə görə böyük şəhərlərə köç edir, oralarda məscidlərdə və mədrəsələrdə dərs keçirlər. Başqırdıstan təbii nemətlər ilə zəngin, lakin kasıb respublikadır. Müsəlman cəmiyyətlər maddi çətinliklərə görə İslami təhsil verə bilmir və ya yüklənən ağır vergilərə görə qısa müddətdə bağlanılır. Əlimizdə olan ədəbiyyatı qiymətləndirərək insanları aydınlandırmağa çalışırıq. Ancaq xidmətimizi daha canlı tutmaq və daha geniş kütlələrə

yaymaq üçün sizdən kömək istəyirik. Mümkündürsə, bizə rus dilinə tərcümə edilmiş əsərlərinizdən, video və səs kasetlərinizdən göndərməyinizi xahiş edirik. Burada, Türkiyədə təhsil alan azərbaycanlı din qardaşımız var və onun sayəsində bəzi Türkcə əsərləri oxuyub anlayırıq. Rus dilinə tərcümə edilməmiş Türkcə əsərlərinizi də göndərsəniz məmnun olarıq. Sizdən bir daha xahiş edirik, bizi yanlış anlamayın, bizi anlayışla qarşılayın.

İndidən hər şey üçün sizə dərin təşəkkürlərimizi və hörmətlərimizi bildiririk. Allahın rəhməti və bərəkəti üzərinizə olsun."

**Biktashev Ilgız (Abdulhakk) – Rusiya**

"Burnley, İngiltərədən bu mesajı yazıram. Harun Yəhyanın əsərləri mənə ilham verir. **Bir müddət əvvəl doğru yoldan ayrılmışdım. Harun qardaşımızın internet saytı sayəsində yenidən doğru yola yönəldim.** Onu şəxsən tanımağı və ona təşəkkür etməyi çox istəyirəm. Allah razı olsun."

**Sami – İngiltərə**

"İslam dinini qəbul edən bir şəxs olaraq mənə bu sayt tövsiyə edildi. Bu həqiqətən möhtəşəm saytdır və gözəl məlumatlar ilə doludur. **Harun Yəhya İslama dönməyimi asanlaşdırdı."**

**Joshua Wilson – İngiltərə**

# DÜNYA MEDİASINDA DƏRC OLAN ELAN VƏ XƏBƏRLƏR

## Dünya mediasında yer alan elanlar

"Time", "Newsweek" kimi dünyanın bir çox ölkəsinə nəşr olunan böyük qəzet və jurnallarda Harun Yəhyanın əsərləri ilə əlaqədar müxtəlif elanlar nəşr olunur. Bu elanlarla yanaşı dünyanın müxtəlif ölkələrində nəşr olunan İslami qəzet və jurnallarda da Harun Yəhyanın fərqli əsərlərini tanıdan elanlar və xəbərlərə tez-tez yer verilir .

### Avropa – "Time" jurnalı

24 noyabr 2003-cü il və 1 dekabr 2003-cü il tarixlərində Time jurnalındakı elanlar aşağıdakı kitabların tanıtımlarını yer verilmişdi: Kainatın yaradılması, həyatın əsl mənşəyi, təkamül aldatması, islam terroru lənətləyir, xəyalın başqa adı: maddə, hz. İsa gələcək, qiyamətin əlamətləri

### ABŞ – "Newsweek" jurnalı

5 iyul 2004-cü il tarixli "Müsəlman, yəhudi və xristian qardaşlarımıza çağırış" başlıqlı elanda Harun Yəhyanın "Terror sevgi ilə məğlub edilər", "İslam terroru lənətləyir", "Dəccalın terrora qarşı ayini" və "Gəlin birlik olaq" kitablarının təqdimatlarına yer verirdi.

## ABŞ – "The Washington report on middle east affairs"

Orta Şərqdəki siyasi hadisələr və əlaqələr haqqında nəşrlər edən "The Washington report" jurnalında "İslam terroru lənətləyir" və "Fələstin" kitabları ilə internet saytlarının təqdimatını ehtiva edən elan 2003-cü il dekabr ayı sayında nəşr olunmuşdur.

Üstəlik, jurnalın 2000-cü il iyul ayı sayında Harun Yəhyanın "Qövmlərin həlakı", "Dünya həyatının həqiqətləri" və "Təkamül yalanı" adlı əsərlərinin təqdimatı nəşr olunmuşdur.

## İngiltərə - "Amalpress" nəşriyyat

"İslam terroru lənətləyir" kitabını İngilis dilində nəşr edən İngilis "Amalpress" nəşriyyat tərəfindən hazırlanan bu afişada kitabın təqdimatı edilmişdir. Dünya miqyasındakı nəşriyyat və kitabxanalara paylanan bu afişada Harun Yəhya və digər əsərləri tanıdılır.

## Azərbaycan – "Xəzər" jurnalı

"Xəzər view" xəbər jurnalında Harun Yəhyanın Xəzər universitetinin kitabxanasına əlavə olunan iki yeni kitabı tanıdılır. Bunlar Azərbaycan dilinə tərcümə edilmiş "Müsəlmanın 24 saatı" və "Nümunəvi müsəlman qadın: Hz. Məryəm" kitablarıdır.

## Afrika – “Africa perspectives” qəzeti

Afrikada nəşr olunan “Africa perspectives” qəzetində Harun Yəhyanın kitablarının satışını edən IDM Bookshop tərəfindən müəllifin ingiliscə əsərlərindən 12-nin təqdimatı edilmişdir. Reklamda müəllif və əsərləri haqqında bu sözlərə yer verilmişdir: **“Dinamik müəllif Harun Yəhyadan... Gözəl təqdimat, mükəmməl dizayn və şəkillər... Hər yaşa uyğundur...”**

## Banqladeş- “İttefaq” qəzeti

Harun Yəhyanın Banqladeşdə “Signs of the Creator” (Yaradıcının dəlilləri) başlıqlı 6 fərqli filmdən ibarət VCD sənədli film seti hazırlanmışdır. Banqladeşdə ilk olan bu çalışma ilə əlaqədar ölkənin ən çox oxunan gündəlik qəzeti “İttifeq”da nəşr olunan elanda bunlar yazılmışdır:

“Signs of the Creator” (Yaradıcının dəlilləri) adlı bu sənədli film seti Quran və elmə əsaslanan açıqlamalara yer verilir. Bu, dünya səviyyəsində Benqoli dilində bu növdə edilən ilk çalışmadır. Bu film vəsiləsi ilə həm ölkəmizdəki, həm də media vasitəsi ilə ölkə xaricindəki milyonlarla insana Allahı və Onun sonsuz elmini tanıda biləcəyik. Bu sənədli filmlərin çoxaltma və paylanma ərəfəsindəki günlərdə bu layihənin mövzusunu Banqladeş xalqına izah etmək üçün paytaxt Dhakada rəsmi açılış mərasimi və müxtəlif şəhərlərdə seminarlar təşkil ediləcək.”

## Səudi Ərəbistan- “Əl-Bilad” jurnalı

Səudiyyə Ərəbistanında nəşr olunan ərəbcə “Əl-Bilad” jurnalında Harun Yəhyanın əsərlərindən hazırlanan sənədli filmlərin təqdimatı nəşr olunmuşdur.

## Hindistan- “Əl Risala” jurnalı

Hindistanda nəşr olunan “Əl-Risala” jurnalında dəfələrlə Harun Yəhyanın İngilis dilində bir çox kitabının reklamı nəşr olunmuşdur. Bu kitablar arasında “Allah ağılla bilinər”, “Quranda təməl anlayışlar”, “Qarışqadakı möcüzə” adlı əsərlər vardır.

## Hindistan – “Books today” kitab kataloqu

Hindistan Yeni Delhidə nəşr olunan “Books today” adlı kitab kataloqunun 2000-ci il sentyabr-oktyabr tarixli sayında Harun Yəhyanın “Allah ağılla bilinər” adlı kitabının təqdimatı edilmişdir. Eyni kataloqun 2000-ci il noyabr-dekabr tarixli sayında da bu əsər “Ən çox satılan” kitablar arasında yer almışdır.

## Avstraliya – “Brotherhood” qəzeti

Avstraliyada nəşr olunan “Brotherhood” adlı aylıq İslami qəzetdə 2001-ci ildə Harun Yəhyanın iki elanı nəşr olunmuşdur. “Zülmə göz yummaq buna dəstək olmaq deməkdir” başlıqlı elanda Şərqi Türküstan nümunəsindən yola çıxan hər kəsin müsəlmanlara yönəlik zülmə qarşı fikri mübarizə etməli olduğu yazılmışdır. Bu zülmün sona çatmasının da tək həll yolu insanlar arasında Quran əxlaqının yayılmasıdır.

## Şri Lanka – “Islamic studies” fondunun nəşri

Şri Lankada “Center for Islamic studies” adlı fond təqdimat broşurasında “Nəşriyyatımız” başlığı altında Harun Yəhyanın “Hz. İsa gələcək”, “Hz. Musa”, “Ağılsız Quranı necə izah edər?” kimi bir çox əsəri nümayiş etdirilmişdir.

## Hindistan – “Goodword” kitab kataloqu

Harun Yəhyanın Hindistandakı kitablarını nəşr edən “Goodword” kitab kataloqunda müəllifin bir çox əsərlərini nümayiş etdirilmişdir.

## İngiltərə - “The Islamic foundation” kitab kataloqu

İngiltərədə fəaliyyət göstərən “The Islamic foundation” adlı təşkilatın 2002-2003-cü illərə aid kitab kataloqunda “Harun Yəhya silsiləsi” başlığı altında müəllifin ingilis dilində 6 ədəd əsərinin təqdimatı edilmişdir.

## Hindistan – “The Milli qazette”

Hindistanın qabaqcıl ingilis dilində qəzetlərdən biri olan “The Milli qazette”də dəfələrlə Harun Yəhyanın kitablarının təqdimatı nəşr olunmuşdur.

Harun Yəhyanın “İslam terroru lənətləyir”, “Hz. İsa gələcək” və “Təkamül yalanı” adlı əsərlərinin təqdimatının edildiyi bu elanda, müəllifin kitablarının ödənişsiz oxuna biləcəyi internet saytının da təqdimatı edilir.

Yuxarıda Harun Yəhyanın Hindistanda satılan, İngilis dilinə tərcümə edilmiş əsərlərinin təqdimatı yer alır.

## Amerika – “The Muslim observer” qəzeti

Amerikanın ən məşhur həftəlik İslami xəbər qəzetlərindən “The Muslim observer”də dəfələrlə Harun Yəhyanın kitablarının təqdimatı, “Həyata baxışınızı dəyişdirəcək əsərlər” başlığı altında nəşr olunmuşdur.

## İngiltərə- “The Muslim news” qəzeti

İngiltərənin ən əhəmiyyətli İslami qəzetlərindən olan “The Muslim news”də Harun Yəhyanın İngiltərədə nəşr olunan kitablarının reklamları və təqdimatları nəşr olunmuşdur. “Dərin düşünmək”, “Təkamül yalanı”, “Qövmlərin həlakı”, “Dünya həyatının həqiqəti” və “Düşünən insanlar üçün” adlı kitablarla əlaqədar təqdimatlar aşağıda göstərilir:

“Yaradılış möcüzəsi” başlığı altında Ruqaiyyah Waris Maqsood adlı bir müəllif tərəfindən Harun Yəhyanın “Qarışqadakı möcüzə” adlı əsərinin araşdırması yazılmışdır.

Burada müəllif Harun Yəhyanın qarışqa üzərində dayanaraq Allahın ən mükəmməl yaradılış möcüzələrindən birini ortaya qoyduğunu yazır.

## Malaziya – “Nur” jurnalı

Malayziyada nəşr olunan “Nur” jurnalının 2003-cü il yanvar ayı sayında Harun Yəhyanın “Maddənin ardındakı sirr”, “Təkamül nəzəriyyəsinin tənəzzülü”, “Kainatın yaradılışı”, “Yaradılış həqiqəti”, “Hüceyrədəki möcüzə” və “Quran möcüzələri” adlı Malayziya dilində sənədli filmlərinin təqdimatları nəşr olunmuşdur.

Jurnalın 2002-ci il dekabr ayı sayında da Harun Yəhyanın Malayziya dilində “Təkamül yalanı” adlı əsəri haqqında oxuculara məlumat verilmişdir.

## Hollandiya- "Onze oemma"

Hollandiyada "Onze oemma" adlı Müsəlman uşaqlar üçün nəşr olunan jurnalda Harun Yəhyanın "Dinimizi öyrənək" adlı kitabının təqdimatı edilmişdir.

## ABŞ – "Voice of İslam" qəzeti

Amerikada nəşr olunan "Voice of İslam" qəzetində Harun Yəhyanın bir çox kitabının reklamı nəşr olunmuşdur. Bu kitablar arasında "Kainatın yaradılışı", "Peşman olmazdan əvvəl", "Quran möcüzələri", "Uşaqlar; Darvin yalan danışdı" kimi əsərlər var.

## "Sound vision" kitab kataloqu

İslami nəşrləri yayan və Amerikanın ən məşhur paylama şəbəkəsinə sahib olan "Sound vision"un kitab kataloqunda Harun Yəhyanın "Təkamül yalanı", "Qövmlərin həlakı" və "Dünya həyatının həqiqəti" adlı əsərlərinin də təqdimatı edilir.

## Malaziya- “Saba Islamic media”

Harun Yəhyanın Malayziyada nəşr edən “Səba Islamic media”, müxtəlif kampaniyalar və reklam çalışmaları ilə Harun Yəhya əsərlərinin təqdimatını etmişdir.

Malayziyada təşkil edilən “Bir milyon Harun Yəhya layihəsi” adlı kampaniya çərçivəsində ölkə miqyasında Harun Yəhyanın əsərlərinin izah edildiyi müxtəlif seminarlar təşkil edilmişdir. Bu seminarlarda Harun Yəhyanın sənədli filmlərinin bir yerə gətirildiyi “Yaradıcının dəlilləri” adlı setin də təqdimatı edilmişdir.

Harun Yəhya sənədli filmləri Malayziyada “Signs of the Creator” (Yaradıcının dəlilləri) adı altında bir set olaraq hazırlanmışdır. Yuxarıdakı afişada bu sənədli filmlər tanıdılır.

“Saba Islamic media” 2003-cü il kataloqunda yer alan Harun Yəhya əsərlərindən bəziləri: “Qlobal masonluq”, “Quranın bəzi sirləri”, “Peşman olmazdan əvvəl”.

## İngiltərə - “Taha” nəşriyyat

İngiltərədə paylanan bu afişalarda Harun Yəhyanın sənədli filmləri, səs kasetləri və uşaqlar üçün hazırladığı kitabların təqdimatı edilir.

## İngiltərə - "Q-News" jurnalı

İngiltərədə nəşr olunan "Q–News" adlı jurnalda Harun Yəhyanın kitablarının reklamları dəfələrlə nəşr olunmuşdur. Reklamda kitablar belə tanıdılmışdır:

"Harun Yəhyanın kitabı günümüzün ənənəvi anlayışını sorğulayaraq, bizə doğru və təbii olaraq qəbul etdirilən anlayışların nə qədər yanlış olduğunu ortaya çıxarır. Harun Yəhyanın müxtəlif kitabları bu günə qədər 20 dilə tərcümə edilmişdir və nəşr olunduğu hər ölkədə böyük təsirə malik olmuşdur. Bu kitabları oxumalısınız: Sizi tamamilə fərqli dünyaya aparacaq qapını açacaq."

## İngiltərə - "The Muslim weekly" jurnalı

İngiltərədə nəşr olunan "The Muslim news" jurnalında Harun Yəhyanın "Dərin düşünmək" adlı kitabının elanı nəşr olunmuşdur.

## ABŞ – "Astrolabe"

Amerikanın ən böyük İslami kitabçılarından biri olan "Astrolobe"nin kitab kataloqunda Harun Yəhyanın "Qarışqadakı möcüzə" və "Allah ağılla bilinər" kitablarına yer verilmişdir.

## Tanzaniya - “Dar İtrah” jurnalı

Tanzaniyada nəşr olunan “Dar İtrah” jurnalında Harun Yəhyanın “Həyatın həqiqi mənşəyi” adlı əsərinin reklamı nəşr olunmuşdur.

## İndoneziya - “Dzıkra” nəşriyyat

Harun Yəhyanın “Təkamül yalanı” adlı kitabını İndoneziyada İndoneziya dilində nəşr edən “Dzikra” nəşriyyat bu kitabı tanıtmaq məqsədi ilə konfranslar təşkil etmişdir. Bu çərçivədə müxtəlif təqdimat afişaları, braşuralar və təqvimlər hazırlamışdır.

## İndoneziya - “Tarbawi” jurnalı

İndoneziyada nəşr olunan “Tarbawi” jurnalında Harun Yəhyanın kitablarının və sənədli filmlərinin reklamları nəşr olunmuşdur.

## Almaniya - “SKD” nəşriyyat

(Solda) ”İslam terroru lənətləyir” adlı təqdimatın ediləcəyini göstərən reklam, (sağda) “SKD” nəşriyyatın hazırladığı və üzərində Harun Yəhyanın “Təkamül yalanı” kitabının təqdimatının olduğu kitab reklamı görülür.

# DÜNYA MƏTBUATINDA YER ALAN XƏBƏRLƏR

Harun Yəhyanın təkamül nəzəriyyəsinin yalan olduğunu ortaya qoymaq üçün hazırladığı əsərlər xarici mətbuatın da diqqətini çəkmişdir. Bəzi mətbuat orqanları hazırladıqları xəbərlərdə bu fəaliyyətlərə geniş yer vermişlər. Bəziləri təkamülün 20-ci əsr elmi tərəfindən çökdürülən bir nəzəriyyə olduğunu ələ alan konfranslara və kitablara, bəzisi də bu kitabların təqdimatlarına yer verərək Harun Yəhyanın çalışmalarını oxucularına təlqin etmişlər. Üstəlik, müəllifin digər bütün mövzulardakı əsərləri də müxtəlif nəşr orqanlarında oxuculara xəbər kimi təqdim edilmişdir.

## ABŞ – "National geographic" jurnalı

Məşhur "National geographic" jurnalının 2004-cü il noyabr ayı sayının İngilis və Almanca nəşrində "Was Darvin wrong?" (Darvin yanılmışdı?) başlıqlı xəbər yer almışdır. Bu xəbərdə təkamül nəzəriyyəsinin yanılmalarını ortaya qoyan şəxs və qruplara diqqət çəkilərkən, Harun Yəhya və çalışmalarından da bəhs edilmişdir. Harun Yəhyanın çalışmalarının darvinist kütlələrdə böyük narahatlıq meydana gətirdiyini açıqca ortaya qoyan bu xəbərdə, bu ifadələrə yer verilmişdir:

"Quranda bildirildiyi kimi, kainatın altı gündə yaradıldığının ifadə edildiyi "Təkamül yalanı" kitabının müəllifi İslami yaradılışçı Harun Yəhya təkamül nəzəriyyəsini belə təyin edir: Bu nəzəriyyə, dünya sistemini istiqamətləndirən güclər tərəfindən bizə təlqin edilməyə çalışılan yalandır."

## ABŞ – "Science"

Harun Yəhyanın təkamül mövzulu əsərlərinin və xüsusilə də, dünyaca məşhur "Təkamül yalanı" kitabının beynəlxalq təsiri təkamülçü nəşrləri ilə məşhur elm jurnalı "Science"də də görüldü.

"Science" jurnalının 18 may 2001-ci il tarixli sayında nəşr olunan Robert Koenig imzalı və **"Creationism taxa root where Europe, Asia meet"** (Avropa ilə Asiyanın birləşdiyi yerdə yaradılışçılıq möhkəmlənir) başlıqlı yazıda Harun Yəhyanın təkamül nəzəriyyəsinin yalanlarına qarşı apardığı elmi mübarizəyə "Təkamül yalanı" adlı kitabın beynəlxalq müvəffəqiyyətinə və Türkiyədəki təkamülçülərin çarəsizliklərinə geniş yer verilmişdir. Yazıda təkamül nəzəriyyəsini elmi mənada çürütməyi hədəfləyən bu geniş miqyaslı akademik hərəkatın **"Şimali Amerika xaricində dünyanın ən qüvvətli anti-təkamülçü hərəkəti"** olduğunun və **"digər Müsəlman ölkələrə də sürətlə yayıldığı" vurğulanmışdı.**

Yazıda üzərində durulan bir başqa mövzu isə "Təkamül yalanı" kitabının beynəlxalq müvəffəqiyyəti və bəzi Türk təkamülçü elm adamlarının "bu kitabların ölkənin bəzi bölgələrində məktəblərdə tədris olan dərs kitablarından daha təsirli olduğundan şikayət etdikləri" şəklində idi. Türk təkamülçülərin narahatlıqları məqalədə "... Buradakı bir çox (təkamülçü) elm adamı **təkamülçülərin ictimaiyyət nəzdində Türk yaradılışçılarının qarşısında etibardan düşdüklərindən narahatlıq duyur" cümlələrinə yer verdi.**

## ABŞ- "NCSE reports" jurnalı

"NSCE reports", "National center for science education" (Milli elm təhsili mərkəzi) adlı mərkəzi Berkleydə olan bir təhsil mərkəzinin nəşr etdiyi jurnaldır. Amerikan elmlər akademiyası tərəfindən dəstəklənilən jurnal təkamül tərəfdarı olmasına baxmayaraq,

1999-cu il noyabr-dekabr tarixli sayını Harun Yəhyanın təkamül nəzəriyyəsinin tənəzzülü mövzusunda çalışmalarına ayırdı. “Islamic scientific creationism an Turkey” (Türkiyədə İslami elmi yaradılışçılıq) başlığı altında ön səhifədə verilən xəbərdə bu açıqlamalara yer verilmişdir:

“...Ən məşhuru Harun Yəhyanın “Təkamül yalanı” kitabıdır. Kitabın iki versiyası var; rəngarəng şəkilli və parlaq cildli, 370 səhifəlik, əhatəli, təsirli cild (Yəhya 1997) və xalqa pulsuz paylanan xüsusən hazırlanmış, daha az şəkilli 128 səhifəlik broşura (Yəhya 1998)...

“Təbiətin möhtəşəm və nizam içindəki ünsürlərini –göylər, yer üzünün tarazlığı, şimşək və yağış, faydalı bitki və meyvələr və s.– müşahidə ilə sağlam düşüncə ilə hərəkətə keçirərək, bunların bir məqsədlə yaradıldığı nəticəsinə gəlinər. (Rəd surəsi 2-3; Rum surəsi 20-27)...”

**Harun Yəhya kimdir?** Harun Yəhya təxəllüsündən istifadə edən Adnan Oktar həyatını Allahın varlığını və birliyini, Quranın əxlaqi dəyərinin böyüklüyünü açıqlamağa həsr etmişdir. Gənc yaşlarından etibarən bu məqsədə xidmət edir. Çətinliklərdən qorxmadı. Bioqrafiyasında Oktarın 1979-cu ildə universitetə qəbul olduğunu və 1986-cı ildən bəri 100-dən çox kitab yazdığı ifadə edilir. Bu, həqiqətən, bir şəxs üçün mükəmməl səmərədir.

## İngiltərə - “New scientist” jurnalı

Dünyada məşhur “New Scientist” jurnalı 22 aprel 2000-ci il tarixli sayında dünyadakı yaradılışçı hərəkatlar araşdırılmış, Harun Yəhya və kitabları haqqında da bu açıqlamalar edilmişdir:

“Harun Yəhya beynəlxalq qəhrəman halına gəlmişdir. Kitabları İslam dünyasının dörd tərəfində yayılmışdır. Öz İslami yaradılışı meydana gətirmişdir.”

## İngiltərə - "Student British medical journal"

İngiltərədə nəşr olunan "Student British medical journal" 27 fərqli nəşri olan İngilis Tibb Birliyinin tələbələri üçün hazırladığı beynəlxalq aylıq tibb jurnalıdır. Jurnalın 2001-ci il iyun ayı sayındakı kitab araşdırmaları hissəsində Harun Yəhyanın "Təkamül yalanı" adlı kitabı haqqında bir şərh nəşr olunmuşdur. Dörd ulduzlu mükəmməl kitab olaraq tanıdılan bu əsər üçün Manchester universitetinin tibb tələbəsi Amina Rəhmanın qiymətləndirmələrinin bir hissəsi belədir:

"Təkamül yalanı" təkamül nəzəriyyəsini əhatə edən hekayələri elmi araşdırma və məlumata əsaslanan dəlillərlə çürüdür..."

"Son əsrdə elmin sürətlə inkişafı həyatın mənşəyi problemini həll etmək əvəzinə bu mövzuya dair problemləri daha yaxşı göstərmişdir. Xüsusilə, ABŞ və Avropa olmaqla dünyanın bir çox yerindəki minlərlə elm adamı təkamül nəzəriyyəsini rədd etmiş və bu nəzəriyyənin etibarsızlığı haqqında bir çox kitab yazmışlar. Bu da o kitablardan biridir."

"Kitabda çox gözəl fosil və vəhşi həyat şəkilləri ilə yanaşı məşhur elm adamlarının şəkilləri də yer alır."

"Kitabın sonunda asanlıqla başa düşülən, lakin qeyri-adi mövzusu ilə zehni açan bir hissə vardır."

"Bu kitab həyatın necə ortaya çıxdığı mövzusu ilə maraqlanan və mövzuya açıq şüurla yanaşanlar üçündür."

## “The Muslim world” kitab analizləri

“Islamic foundation” və “The International institute of Islamic thought” fondları tərəfindən nəşr olunan kitab analizlərinin yer aldığı bu kitabçada Harun Yəhyanın “Təkamül yalanı” adlı kitabı haqqında bunlar yazılmışdır:

“Bu kitabın ən təəccüblü hissələrindən biri insanın heyvan mənşəli olduğunun rədd edildiyi hissədir. Müəllif olduqca inandırıcı şəkildə ən qədim fosil qeydlərinə əsaslanaraq insanın nöqsansız şəkildə bugünkü halı ilə yaradıldığını və yarı meymun bir canlıdan ortaya çıxmadığını elmi sübutlarla ortaya qoyur.”

## “Al Vatan” qəzeti

“Al Vatan” qəzetində 10 oktyabr 2003-cü tarixində nəşr olunan məqalədə Harun Yəhyanın ərəb dilində “Möcüzələr zənciri” kitabı ilə əlaqədar geniş xəbər yer almışdır. Xəbərdə Allahın kainatda yaratdığı möcüzələrin təfərrüatı ilə nümayiş etdirildiyi vurğulanılır. Üstəlik, xəbərdə Harun Yəhyanın həyatı haqqında da məlumatlar verilir, bu kitabın yazılma məqsədi isə kitabdan alınan bir hissə ilə dilə gətirilir:

“Bu kitabda, canlı-cansız kainatdan müxtəlif nümunələr verdik; bizim hədəfimiz insanların kainata baxıb bu nümunələrdən ibrət və dərs almalarına vəsilə olmaqdır. Əslində isə bunlar yalnız damladır, çünki kainatın hər tərəfi bu möcüzələrlə doludur. Bu görünən ayələr, möminlərin Allah qarşısında hidayətləri üçün bir yoldur.”

## Almaniya – “Riyaziyyat ensiklopediyası”

Almanca “Riyaziyyat ensiklopediyası” saytında “Yaradılış” başlığı altında İslam dünyasında təkamül nəzəriyyəsi mövzusu ələ alınır. Bu hissədə Harun Yəhyanın əsərləri haqqında məlumatlar verilir. Harun Yəhyanın əsərlərinin ən böyük İslam ölkələri olan İndoneziya və Malayziyada çox geniş oxucu kütləsinə sahib olduğu ifadə edilir.

## Azərbaycan – “Xalq” qəzeti

Azərbaycanda nəşr olunan “Xalq” adlı qəzetdə Həsrət Rüstəmov tərəfindən xəbər nəşr olundu. Xəbərdə Harun Yəhyanın “Qövmlərin həlakı” adlı kitabı tanıdılırdı. “Quranın hikmətinə dair yeni kitab” başlıqlı yazıda Harun Yəhya və əsərləri haqqında bunları ifadə edirdi:

“...Belə zamanda Qurana əsaslanan elmi ədəbiyyatla qarşılaşmaq həqiqətən çox çətindir. Müəllif bu kitabında Quranda əvvəllər mövcud olmuş qədim mədəniyyətlərin qəfildən həlak olması və xalqların yer üzündən silinməsi ilə əlaqədar ayələri arxeologiya, coğrafiya, tarix və digər elmlərin son araşdırmalarına əsaslanaraq izah edərək Quranın Allahın göndərdiyi bir kitab olduğunu və dəfələrlə həqiqətə iman gətirmənin yolu olduğunu yazır. Xalqların yer üzündən silinməsi ilə əlaqədar Qərb alimlərinin bir çox kitabları nəşr olunmuşdur. Lakin haqqında danışdığımız kitabın digərlərindən fərqli xüsusiyyəti xalqların həlak olmasının səbəblərini araşdırmaq deyil, yalnız Quranda bu hadisələrdə yazılanların daha aydın şəkildə oxucuya çatdırılmasıdır.

...Yalnız bu əsəri ilə tanış olmaq belə onun məqsədinə çatması mövzusunda necə fədakarcasına çalışdığını göstərir. Zənn edirəm, Harun Yəhyanın bu əsəri yalnız dinlə maraqlananlar üçün deyil, sosiologiya, tarix və fəlsəfə ilə maraqlananlar üçün də çox maraqlı olacaq.”

## "İBERR" - Təhsil analizləri və qaynaqları beynəlxalq təşkilatı

Şimali Amerika, İngiltərə, Cənubi Afrika və digər ölkələrdəki Müsəlman təhsil təşkilatlarını təmsil edən beynəlxalq təşkilat İBERR-in nəşr etdiyi aylıq bülletendə Harun Yəhya ilə əlaqədar bir məqalə nəşr olunmuşdur. Sonradan İslam dinini seçən Yusif İslamın başçılıqetdiyi İBERR dünya miqyasındakı İslami məktəblərin tədris planlarının təyin olunmasında çox əhəmiyyətli rol oynayır, bu çalışmalarında Harun Yəhyanın əsərlərindən də faydalanır. Xəbərdə Harun Yəhyanın əsərləri bu şəkildə tanıdılır:

### Harun Yəhya: Möhtəşəm Müsəlman yazıçı

Müəllif Harun Yəhya təxəllüsü ilə imani mövzularla əlaqədar yüzdən çox əsər yazmışdır. Çalışmalarının əhəmiyyətli bir hissəsi materialist dünyagörüşü və bunun dünya tarixi və siyasətindəki təsiri ilə əlaqədardır.

Harun Yəhyanın geniş miqyasdakı kitabları Allahın mesajını insanlara çatdırmaq üzərində dayanmışdır. Qurana əsaslanaraq və son elmi üsullardan istifadə edərək Allahın yaradılış möcüzəsini və bizə bəxş etdiyi saysız nemətlərini dilə gətirir. Bu dəlillər qane edici şəkildə bir yerə gətirilir və dərin təfəkkürlə bizə təqdim edilir. Kitablarda yer alan rəngarəng şəkillər, qrafiklər və aydın izahat ilə oxucunun diqqətini Allahın sonsuz mərhəmətinə çəkir!

İBERR-in 2004-cü ildə Qətərdə təşkil edilən yığıncağında isə Harun Yəhyanın çalışmaları daha yaxından araşdırılmışdır. Dünyanın fərqli ölkələrində İBERR-ə bağlı məktəblərdə Harun Yəhya kitablarının tədris planına daxil edilməsi görüşülmüşdür. Yığıncağa qatılan natiqlər müxtəlif məktəblərdə, məsələn, Nigeriyadakı İslam məktəblərində, Harun Yəhyanın çalışmalarının tədris planının əhəmiyyətli parçası olduğunu dilə gətirmişlər. Harun Yəhyanın əsərləri həm şagirdlər, həm də müəllimlər tərəfindən böyük maraq görür.

## Hollandiya- “ISIM newsettler”

Hollandiyada mərkəzi olan “Beynəlxalq müasir dünyada İslam çalışmaları institutu” (International institute for the study of Islam in the Modern world) tərəfindən hər ay nəşr olunan “ISIM Newsletter”in 2002-ci il dekabr ayı tarixli sayında Freiburg universitetindən dr. Martın Riexinger tərəfindən yazılan yazı Harun Yəhyanın çalışmalarını ələ alırdı. “Harun Yəhyanın İslami yaradılış” başlıqlı yazıda müəllifin əsərlərinin dünya üzərindəki təsirini ifadə edən bəzi cümlələr bu şəkildədir:

“Müəyyən müddət Qərbdəki nəşrlər zəif ingiliscə ilə keyfiyyətsiz kağıza çap edilmiş braşuralardan ibarət idi. Ancaq bir az axtardıqda İngiltərədəki kitabxanalarda bu vəziyyətin dəyişdiyini dərhal anlaya bilirik. Münasib qiymətlərə çox gözəl hazırlanmış kitablar bunların yerini alıb. Bu nəşrlərin böyük əksəriyyəti İslamı Xristianlığa və materializmə qarşı müdafiə edir. Bu yeni axın içərisində ən əhəmiyyətli yeri Darvinizmi çürütmək məqsədi ilə yazılmış 180-dən çox kitabın müəllifi olan məşhur və hörmətli Türk yazıçı Harun Yəhyaya aiddir.

Harun Yəhyanın kitabları çox gözəl şəkillərlə bəzədilmişdir və ən fundamental mövzu təkamül nəzəriyyəsinin tənəzzülüdür. Burada təkamül nəzəriyyəsinə din və müasir elm ilə verilmiş cavablar var ki, İslamı çalışmalarda bu mövzulara qarşı laqeydlik edilmişdi... Məqalələri çox fərdi saytda və müxtəlif təşkilatlara aid İslami internet saytlarında yer alır. İnternetdən istifadə etməklə bütün dünyada məşhurlaşdı. Harun Yəhya texnologiyadan çox istifadə edərək inkişaf etdirmiş ilk İslam ziyalısı olaraq qəbul edilə bilər.”

## Rusiya- "islam.ru" xəbər agentliyi

Rusiyada nəşr olunan və internetin ən böyük İslami xəbər saytlarından biri olan www.islam.ru saytında Harun Yəhyanın əsərlərinə olan böyük maraq bu şəkildə xəbər edilmişdir:

**"Dövlət parlamenti (Duma) Harun Yəhyanın kitabların oxuyur**

Harun Yəhyanın akademik araşdırmalarını icra edən fond "İslam terroru lənətləyir" adlı kitabının rus dilində nəşr etdi. Bu nəşrin edilməsinin səbəbi kütləvi informasiya orqanları və müxtəlif siyasi kütlələr tərəfindən dəstəklənilən cəmiyyətin artan islamofobiyasıdır. Sülh və mərhəmət dini olan İslama qarşı düşüncə tərzini dəyişdirmək üçün kitabın 1000-dən çox nüsxəsi müxtəlif hökumət, dövlət və təhsil təşkilatlarının başçılarına göndərildi. Kitab Dövlət Parlamenti (Duma) nümayəndələri, Daxili İşlər Nazirliyinin nümayəndələri, Müdafiə Nazirliyi, bir çox televiziya kanalı, üstəlik, Rus kütləvi informasiya vasitələrinə göndərilmişdir.

Fondun nümayəndələri kitabın yaratdığı marağın, bir çox siyasi və cəmiyyət vəzifəlisinin İslam və müsəlmanların əxlaq normalarına dünyagörüşlərinin dəyişməsinə gətirib çıxardığını bildirdilər. Bu məzmunda Harun Yəhyanın fondunun nümayəndələri ilə hökumət səlahiyyətlilərinin Rusiyadakı İslami ənənəvi qaydaları müzakirə etmək üzrə yığıncaqlar edilməsi planlanır.

Bu da ifadə edilməlidir ki "İslam terroru lənətləyir" adlı sənədli film və bir il əvvəl nəşr edilən kitab həm Amerika, həm də bəzi Avropa ölkələri daxil olmaqla dünya səviyyəsində müsbət reaksiya və dəstək görmüşdür."

## Bosniya – “Oslobodjenje” qəzeti

Bosniyanın ən böyük qəzetlərindən biri olan “Oslobodjenje”nin 24 iyun 2003-cü il tarixli sayında yer alan aşağıdakı xəbərdə Harun Yəhyanın Bosniya dilinə tərcümə edilən “Təkamül yalanı” adlı əsəri izah edilir. Xəbərdə bu məlumatlar qısa şəkildə yer alır:

““Təkamül yalanı” adlı əsərində Harun Yəhya Darvinizmin etibarsızlığından və onun digər müxtəlif ideologiyalarla əlaqəsindən bəhs edir... Müəllif nəzəriyyənin qısa tarixindən sonra elmi həqiqətləri sıralayaraq, nəzəriyyəni həm fosillərdə olan həqiqətlərlə, həm də molekulyar biologiya baxımından çökdürür... Eyni şəkildə, heç bir elmi dayağı olmadığını göstərərək ibtidai həyatın dənizlərdə ortaya çıxdığı və sonra təkamülləşdiyi kimi uydurulmuş ssenariləri və bütün təkamülçü iddiaları qəti bir şəkildə çürüdür... Harun Yəhya təxəllüsündən istifadə edən müəllif 1956-cı ildə Ankarada doğulmuş, İstanbul Memar Sinan universiteti Gözəl Sənətlər və İstanbul universiteti Fəlsəfə fakültəsində təhsil almışdır. 1980-ci ildən bu günə kimi imani, elmi və siyasi mövzularda bir çox əsər yazmışdır.”

## Səudiyyə Ərəbistanı – “Al Riyadh” qəzeti

Səudiyyə Ərəbistanında nəşr olunan gündəlik “Al Riyadh” qəzetində Harun Yəhya Türkiyənin ən əhəmiyyətli mütəfəkkirlərindən biri kimi tanıdılır. Müəllifin internet saytının tanıdıldığı yazıda bu məlumatlara yer verilir:

**“Harun Yəhyanın saytına səfər**

Harun Yəhya Türkiyənin ən tanınmış və əhəmiyyətli mütəfəkkirlərindən biridir. Yazdığı kitabları, məqalələri və çox sayda sənədli filmləri mövcuddur. Bu əsərlərində Harun Yəhya Qurani Kərim və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində olan hədislər ilə kainatın möcüzələrindən bəhs edir. Bu əsərlər, hər kəsin oxuması və əldə edə bilməsi üçün müəllifin internet saytında ödənişsiz təqdim edilmişdir. Həqiqətən də, bu sayt çox faydalı və əhəmiyyətlidir. Dünyanın hər tərəfində oxunur. Yalnız Türkcə deyil, Ərəb, Bosniya, İndoneziya, Alman, Fransız, Rus və Malayca da hazırlanmışdır. Bu möcüzələr video hissəsində ziyarətçilərə səsli və görüntülü izah edilir. Son olaraq, Harun Yəhyanın yazdığı bütün əsərlər fihristdə sıralanmışdır. Bu əsərlərdən, hər kəs pulsuz istifadə edə bilər.”

## “Moheet” internet saytı

Radhwan Adəm tərəfindən beynəlxalq xəbər saytı olan “Moheet”də Harun Yəhyanın “Bitkilərdəki yaradılış möcüzəsi” adlı əsəri ilə əlaqədar yazı nəşr olunmuşdur. Yazıda bu ifadələrə yer verilmişdir:

“Keçən dövrdə “ər-Risalə” nəşriyyatda Harun Yəhyanın “Bitkilərdəki yaradılış möcüzəsi” kitabı nəşr olundu. Müəllif bu kitabında bitkilərin sirləri və maraqlı möcüzələrindən bəhs edir. Müəllif kitabın girişində bitkilərin meydana gəlməsini izah etmiş, bitkilərdəki yaradılışın mürəkkəbliyindən bəhs etmişdir. Bitkilərin görünüşcə sadə olduğunu zənn edirik; halbuki, həqiqətdə çox detallı və möcüzəvi yaradılışa sahibdirlər. Əlbəttə ki, bu bitkilər təsadüfən meydana gəlməmiş, Allahın qüdrət və dizaynı ilə ortaya çıxmışdır; eynilə digər bütün canlıların yaradılışı kimi. Bu kitablar, insanların Allaha iman etmələri və Allahın yoluna dəvət etmələrində çox faydalıdır. Bu kitabların asan və məntiqli üslubu ilə böyük müvəffəqiyyət əldə edilir. Oxucu bu

cür kitabları oxuduqdan sonra ağlında və ürəyində heç bir tərəddüdü qalmaz; digər maddi fəlsəfələri mütləq tərk edər. Çünki bu kitablar, o maddi fəlsəfələri və düşüncələri təməlindən çökdürür. Bu sahədə, həqiqətən Harun Yəhya və yoldaşları əhəmiyyətli vəzifə icra edirlər. Bu kitablar, Allahın icazəsi ilə, 21-ci əsrdə bütün insanlara Qurani Kərimdə vəd edilmiş kimi sülh, güvən, ədalət və səadət təmin edəcək. Harun Yəhya bütün kitabların sonlarında təkamül nəzəriyyəsi üçün xüsusi hissə təsis etmişdir. Bunun səbəbi isə keçmişdə və müasir dövrdə dünyada olub bitən fəlakətlər bu nəzəriyyədən qaynaqlanır. Deməli, bu qorxunc fəlsəfələr və düşüncələr bu nəzəriyyə üzərinə təsis edilmişdir. Ötən 140 il boyunca Darvinizmin insanların Allahın varlığını inkar etməsində, ya da varlığından şübhəyə düşməsində böyük rolu olmuşdur. Buna görə bu nəzəriyyənin rədd edilməsi bizim üçün çox böyük vəzifədir. Bu qiymətli əsərləri cəmiyyətin bütün təbəqələri tərəfindən oxuna bilər, ondan faydalana bilər. Ehtiva etdiyi həqiqətləri də heç kim inkar edə bilməz."

## İndoneziya – "Minda" jurnalı

"Minda" jurnalı İndoneziyada nəşr olunan yüksək tirajlı jurnallardan biridir. Jurnalın 2004-cü il sentyabr ayı tarixli sayında isə Harun Yəhyanın "Peşman olmazdan əvvəl" adlı kitabı ilə əlaqədar yazıya yer verilmişdir.

Yazıda "Harun Yəhya kimdir?" başlığı altında Harun Yəhyanın həyat hekayəsindən də bəhs edilmişdir.

## Venesuela – “Venesuela's electronic news” saytı

“Venezuela's electronic news” adlı internet üzərindən yayım edən xəbər agentliyində Harun Yəhyanın “İslam terroru lənətləyir” kitabına göstərilən marağı izah edən xəbər nəşr olundu. Xəbərdə “Venesuelalı müsəlmanların Harun Yəhyanın yeni kitabı “İslam terroru lənətləyir”i oxumaq üçün internetə axın etdikləri” ifadə edildi. Xəbərdə Harun Yəhya və bir çox dilə tərcümə edilən əhəmiyyətli əsəri “İslam terroru lənətləyir” haqqında bunlar ifadə edildi:

“Bütün dünyada çox böyük maraq görən müsəlman alim Harun Yəhya tərəfindən yazılmış bu kitab, dünya səviyyəsində bir qarışıqlıq və İslam dininə yönəlmiş yanlış analamaların olduğu əsnada ortaya çıxdı. Yəhya bu kitabında, İslam dininin əslində nə öyrətdiyini və müsəlmanların da əsl dinin nə olduğunu insanlara izah etməli olduqlarını söyləyir.

Harun Yəhya “İslam terroru lənətləyir” adlı kitabında bu mövzudakı fikri mübarizəsini davam etdirəcəyini bildirir. Bütün dünyadakı kitab tənqidçiləri də bu kitab haqqında İslamın rolu və Amerika Birləşmiş Ştatlarındakı 11 sentyabr terrorist hücumları arxasındakı həqiqətləri öyrənmək istəyən hər kəs üçün “mütləq oxunmalı olan” bir kitab olduğunu söyləyirlər.”

## İndoneziya – “Pikiran Rakyat” jurnalı

İndoneziyada nəşr olunan “Pikiran Rakyat” jurnalında Harun Yəhyanın “Təkamül yalanı” adlı kitabı ilə əlaqədar təqdimat yazısı nəşr olunmuşdur. 2001-ci il avqust ayı tarixində nəşr olunan bu yazıda, bu kitabın ehtiva etdiyi məlumatların əhəmiyyətinə diqqət çəkilir.

## Kanada - "The ambition monthly"

Kanadadakı gənc müsəlmanlara yönəlik və 1987-ci ildən bəri nəşrinə davam edən "The ambition monthly" qəzetində Harun Yəhyanın "Qövmlərin həlakı" və "Həll yolu Quran əxlaqıdır" adlı əsərləri üçün təqdimat yazısı nəşr olunmuşdur.

**Həll yolu Quran əxlaqıdır**

"Hamımız vicdanımızın səsini dinləyib, zülm içindəki insanlar üçün fikri mübarizə etməli və dünyanı sülhün, ədalətin, təhlükəsizliyin, hüzur və rifahın yaşandığı yer etməliyik. Vicdanlı olmanın tək yolu imandır. Bu səbəblə, yer üzündəki ədalətsizlik, xaos, terror, soyqırım, aclıq və şiddətin tək həlli Quran əxlaqını yaşamaqdır."

## Kanada - "Young Muslim" fondunun elanı

Kanadada fəaliyyət göstərən "Young Muslim" adlı fondun öz üzvləri üçün hazırladığı elanda gənclərə bəzi kitablar tövsiyə edilir. Bu kitablar arasında Harun Yəhyanın "Təkamül yalanı" adlı kitabı da yer alır. Elanda tövsiyə edilən kitablar belə tanıdılır:

"Aşağıdakı kitablardan bir hissəsi çox sayda insanın həyatının dəyişməsinə vəsilə olmuşdur."

Harun Yəhyanın saytına gələn mesajlar da elandakı sözləri təsdiqləyir. Bu mesajlardan bir neçəsində oxucular duyğularını belə ifadə ediblər:

“Harun Yəhyanın Allahın mesajına güvənmələri təmin edəcək şəkildə bir yerə gətirdiyi məlumat inanılmaz. Hər kəsin yaxşılığı üçün Allahın sözünü yaymağı vəzifə etmiş Harun Yəhya kimi insanlara ehtiyacımız var. Allah sizi qorusun.”

## Samer Ayoubi – ABŞ

“Əsərləriniz üçün sizə təşəkkür edirəm. Onlar sayəsində imanım gücləndi.”

Hameed Shahul, 14 sentyabr 2002

“Çalışmalarınız imanımı artırır.”

Aysha Ghar, Hindistan, 7 yanvar 2003

“İslam dinini yeni qəbul edən biri olaraq saytınız mənə tövsiyə edildi. Harun Yəhya mənim İslama keçməyimi daha da asanlaşdırdı.”

Joshua Wilson, İngiltərə, 25 fevral 2003

## İngiltərə - “Crescent International” qəzeti

İngiltərədə nəşr olunan “Crescent International” adlı İslami qəzetdə Harun Yəhyanın müxtəlif kitabları haqqında yazılar nəşr olunmuşdur. Bu əsərlər

arasında “Dünya həyatının həqiqətləri”, “Qarışqadakı möcüzə” və “Həll yolu Quran əxlaqıdır” vardır.

“Harun Yəhyanın “Təkamül yalanı” adlı kitabı fizika, kimya və genetika sahəsindəki elmi kəşflərlə etibarını itirən müasir təkamül nəzəriyyəsinə elmi, intellektual və akademik sahədə ölümcül zərbə etmişdir.”

“Harun Yəhyanın geniş miqyaslı araşdırması təkamül mifini məhv etmişdir.

Harun Yəhyanın qələmi daha çox şey ehtiva edir.”

Crescent International

“Islamic institute of the Americas” adlı fondun üzvü Hector Abi Dharr Manzolillo tərəfindən yazılan bu yazıda Harun Yəhyanın “Təkamül yalanı” adlı əsəri detallı olaraq araşdırılır. Bu əhəmiyyətli əsərin həm Qərb, həm də Müsəlman dünyasındakı təsirləri araşdırılmış və kitabın, təkamül nəzəriyyəsini dilemma qarşısında qoyan əhəmiyyətli gücə sahib olduğu ifadə edilmişdir.

“Kitabın mətni çox açıq, asan başa düşünülən və üstəlik, Quran ayələrinin istifadə edilməsi çox təsirlidir. Bununla yanaşı kitab, içindəki onlarla rəngli şəkil, qrafik, sxemlərlə, estetik dizaynı və kağız keyfiyyəti ilə çox mükəmməl şəkildə təqdim edilmişdir.

Bu kitab Qərb təbliğatının təsiri altında qalmış Müsəlman və ya qeyri-müsəlman oxucuları da qane edən bir neçə əsərdən biridir.” (16-31 mart 2000)

“Crescent International” qəzetində Harun Yəhyanın “Təkamül yalanı” kitabının təqdimatını oxuyan bir oxucudan gələn mesaj belədir:

“Son nəşrinizdəki Harun Yəhyanın kitabı ilə əlaqədar olan açıqlama möhtəşəm idi. Yəhyanın kitabı həyatın əsl təbiəti haqqında xatırlatmadır. Üstəlik, çox yaxşı yazılmış və nəşr edilmişdir. Qərb sistemində təhsil alan gənc müsəlmanlar üçün çox cazibədar və qane edicidir. Mənim uşaqlarımın hər ikisi də kitabdan çox təsirləndilər.” Mona Qureshi, İngiltərə (01–15 aprel 2000)

“Qarışqa möcüzəsi” kitabının təqdimatda isə Harun Yəhya təkamül nəzəriyyəsinin əsassızlığını ortaya qoyan ən səbat adam olaraq tanıdılır. (16–30 oktyabr 2000)

## Pakistan – “İslami araşdırmalar” institutunun saytı

Pakistan Dövlət universitetinin zoologiya fakültəsindən prof. Abdul Majidin “Təkamül nəzəriyyəsinə müsəlmanların cavabları” başlıqlı məqaləsində Harun Yəhyanın təkamül mövzulu çalışmaları araşdırılmışdır. “İslami araşdırmalar” institutunun internet saytında da nəşr olunan məqalədə Harun Yəhya üçün bunlar deyilir:

“Harun Yəhya təkamül və yaradılış haqqında müxtəlif kitablar yazmış əhəmiyyətli Türk alimidir... İnternet saytı “www.harunyahya.com”da çox təsirli kitabları var və Harun Yəhyanın həyatını Allahın varlığı və birliyini izah etməyə həsr edən Adnan Oktarın təxəllüsü olduğu bildirilir. İki əhəmiyyətli kitabı olan “Təkamül yalanı” və “Allah ağılla bilinər” darvinizmin çürüdülməsi üzərinə qurulmuşdur... Harun Yəhyanın “Təkamül yalanı” kitabı əslində darvinizmi çökdürmək və rədd etmək üçün qələmə alınmış elmi yanaşmadır.”

## ABŞ – Wikipedia encyclopedia

50 dildə xidmət edən təxminən 1 milyon məqalənin yer aldığı ödənişsiz internet ensiklopediyası "www.wikipedia.com" saytında Harun Yəhya və əsərləri belə tanıdılır:

"Harun Yəhya Türk yaradılışçılığının qabaqcıl şəxsiyyətlərindən və yaradılış-təkamül mübahisələrinin qatı yaradılış müdafiəçilərindən biridir... Yaradılışı müdafiə edən qabaqcıl Müsəlman olaraq tanınır."

## ABŞ – "Gulf today"

Birləşmiş Ərəb Əmirliyinin gündəlik qəzeti olan "The Gulf Today" da, Sharjahdakı Dünya kitab sərgisində ən çox kitabı satılan xarici müəllifin Harun Yəhya olduğu xəbəri belə nəşr olunmuşdur:

"Sharjah Sərgi mərkəzindəki dünya kitab sərgisində Harun Yəhya ən çox satılan xarici müəllif oldu. Harun Yəhya ötən 20 ildə 200-dən çox əsər yazmışdı. Book Malldan Rashid Siddiqui Harun Yəhyanın çalışmalarının BAE də paylanmasının əhəmiyyətli olduğunu, bu əsərlərin insanların imanlarını təməl inanc əsasları tərəfində gücləndirdiyini ifadə etdi. "Harun Yəhyanın çalışmaları müxtəlif mövzuları İslama bağlı olaraq izah edilir. İstər İslama görə terror izah edilsin, istərsə də təbiətdəki iman həqiqətləri izah edilsin, Harun Yəhyanın çalışmaları, hər yeri əhatə edən Allahın ehtişamını gözlər önünə sərir."

# MƏKTUBLAR

## Rusiya, dr. Levin Zalman İsaakoviç

**Harun Yəhya geniş oxucu kütləsinə xitab edən (və yalnız müsəlmanlara xitab etməklə qalmayan) bir çox kitabın müəllifidir və çalışmalarında dünyadakı bütün inkarçı və ateist ideologiyaların təməllərini fikirlə yıxmağı güdür.**

“Harun Yəhya geniş oxucu kütləsinə xitab edən (və yalnız müsəlmanlara xitab etməklə məhdud qalmayan) bir çox kitabın müəllifidir və çalışmalarında dünyadakı bütün inkarçı və ateist ideologiyaların təməllərini fikirlə yıxmağa çalışır. Sekulyarizm və elm hakimiyyəti altında yaşayan dünyada imanın təməllərini gücləndirməyə çalışan Müsəlman ziyalılarından biridir. Rus dilində indiyə qədər nəşr olunan və daha sonra nəşr olunması planlanan bütün kitablar Allahın yaradılış möcüzələrini göstərən “elmin isbat etdiyi həqiqətləri” ehtiva edir.

“İslam terroru lənətləyir” kitabı da eyni silsilədəndir. Müəllif Quranın inananlara hər cür təzyiq və şiddəti qətiyyən qadağan etdiyini, insanlara sülh, tolerantlıq, rifah və ədalət gətirdiyini göstərir və səmimi olaraq sülh istəyən Kitab Əhlinin (Müsəlman, Yəhudi və Ortodoksların) ortaq dəyərlərə sahib olduqlarını vurğulayır.

Bu məzmunda müəllifin “cihad” anlayışının izahı diqqət çəkir. Bilindiyi kimi, cəmiyyətdəki geniş mənada istifadə edilən “cihad” sözü İslam yolunda hər şeydən əvvəl inkarçılara qarşı icra edilən müqəddəs döyüş mənasını daşıyır. Müəllif isə “cihadın inkarçı doktrinalara qarşı icra edilən yalnız fikri mübarizə olduğunu və ən böyük “cihadın isə “insanın içindəki pisliklərə qarşı icra etdiyi mübarizə” olduğunu vurğulayır. Fiziki “cihad” ilə də əxlaqi və insani prinsiplərin möhkəm tətbiq olunması ilə icra edilən müdafiə məqsədli döyüşü nəzərdə tutulur.

Terror hadisəsi isə terroristlərin Qurandakı "cihad" anlayışını bilərəkdən təhrif etmələri ilə ortaya çıxır.

Kitabın son hissəsi terror hadisələrinin mənşələrini araşdırır. Müəllif terrorun qaynağını Darvinizm və materializm ideologiyalarında görür. Həyatın təsadüflər və davamlı həyat mübarizəsi nəticəsində ortaya çıxdığını iddia edən Darvin nəzəriyyəsinin etibarsızlığını isbat edir. Müəllifin fikrinə görə Darvinizm, Malthus nəzəriyyəsini, irqçilik və faşizmi qanuni və haqlı ideologiyalar olaraq göstərir. Amma terrorizm və radikallığın artdığı bu dövrdə, hətta dünya cəmiyyətində radikallıq və terrorizmin İslamla uyğun gətirilməyə çalışıldığı bu dövrdə, bu tərz kitabların nəşr olunması ən böyük dəstəyə layiqdir."

**Rusiya Federasiyası elmlər akademiyası nəzdində Şarklyat institutu**

**Tarix elmlər doktoru,**

**Levin Zalman İsaakoviç**

## ABŞ, Saleh Surasit İssarachai

**Harun Yəhyanın kitablarını oxuduğum zaman Allaha çox şükür etdim və bu kitabların islamiyyəti təmsil etmənin çox gözəl yolu olduğunu düşündüm.**

"Sevimli Müsəlman qardaşlarım, Harun Yəhya və dostları, əsərləriniz İslam həqiqətlərini bu günə qədər oxuduğum başqa yazıçılardan çox fərqli şəkildə ifadə edir. Kitablarınızdan bir neçəsini oxumuşam.

Bir Müsəlman olaraq, İslamın Quran və sünnəyə əsaslandığını və bütün bəşəriyyət üçün həqiqi rəhbər olduğunu anlamışam. Bir çox elmi hadisə, bundan

1400 il əvvəl Quranda bildirilmişdir. Müasir elmin sahib olduğu üsul və texnologiyasına daha əvvəl sahib olunmadığından, bu günə qədər insanoğlu bəzi ayələrin hikmətini qavraya bilmirdi. Harun Yəhyanın kitablarını oxuduğum zaman Allaha çox şükür etdim və bu kitabların İslamiyyəti təmsil etmənin çox gözəl yolu olduğunu düşündüm. Harun Yəhya kitablarının bəzilərində elmi məlumatların başa düşülməsini asanlaşdırmaq üçün Quran ayələri əsasında şəkillər və sxemlərdən istifadə edir. Quran həmişə tək həqiqət olub, ancaq zamanımıza aid elmi təcrübə və üsullar ayələri sübut etməyə yetərli deyil. Qurandakı bəzi ayələrdə açıqca təsvir edilən embriologiya, dalğalar, dağlar kimi möcüzələr son 100 ildən daha az bir zamanda qət edilən elmi inkişaflarla da sübut edilmişdir. Bu kitabları oxumaq düşüncələrimi aydınlaşdırmağıma və Allahın varlığını xatırlamağıma vəsilə olmuşdur.

Kitablarınızdan İslamın həqiqətlərini müsəlman olan və olmayan şəxslərə izah etmək və bir çox mövzunu aydınlandırmaq üçün faydalandıq. Bu kitablar Tailandda müqayisəli dinlər mövzusunda çalışmalarını icra edən bir çox şagird üçün də faydalı olmuşdur. Onlar Quranla yanaşı bu kitabları müsəlman olmayanlarla apardıqları söhbətlərdə istifadə edirlər.

Quran və sünnəyə əsaslanılan hər çalışma, Allahın icazəsi ilə, İslamı və bir-birimizi anlamaqda çox faydalı olacaq. Allah sizə bu dünyada və axirətdə İslam həqiqətlərini səmimi şəkildə izah etmənin mükafatını versin.

Allah hamımıza doğru yolu göstərsin.

Salamlar.”

**Vaşinqton universiteti tibb fakültəsi, hematologiya ixtisası,**

**Saleh Surasit İssarachai**

## İndoneziya, Maulwi Saelan

**İslamiyyətlə əlaqəli olaraq elm dünyasını mükəmməlləşdirmək üçün verdiyiniz bu faydaya görə sizə ən səmimi təbrik diləklərimi təqdim edirəm.**

“Əvvəla, özümü “Al Azhar Syifa Budu” fondunun qurucusu və başçısı Maulwi Saelan olaraq tanıdaraq məktubuma başlamaq istəyirəm.

Əsas vəzifəsi 3-19 yaş arası uşaqlara və ailələrinə İslam əxlaqının həqiqətlərini izah etmək olan təşkilatımız; İndoneziya, Cakartada 20 ildir təhsil sahəsində vəzifə icra edir.

Müasir dünyanı və gəldiyi yeri göz önünə alaraq, İslamiyyətlə əlaqədar elm dünyasını mükəmməlləşdirmək üçün verdiyiniz faydaya görə sizə ən səmimi təbrik diləklərimi təqdim edirəm. Kitablarınız “Görkəmli məktəb proqramımız” çərçivəsində təhsil dəyərlərimizi inkişaf etdirməkdə çox əhəmiyyətli və asanlaşdırıcı faktor olublar.

Qrupunuzla birlikdə iş fürsətini əldə etməyi və mədəniyyətlərimiz arasında mədəni təhsil alış-verişini artırmağı ümid edirəm

Son olaraq, lütfən, ən səmimi diləklərimi qəbul buyurun, diqqətiniz və dəstəyiniz üçün sizə təşəkkürlərimi bildirirəm.”

**“Syıfa” fondunun başçısı**

**H. Maulwı Saelaı**

## Malaziya, Zaidnuddin Alang Mamat

**Bu cür möhtəşəm adla və daha əvvəl heç görülməmiş, bənzərsiz və çox ehtiyac duyulan İslami elmlə əməkdaşlıq etməkdən duyduğumuz məmnuniyyəti İfadə etməyimə icazə verin.**

"Harun Yəhya qardaşımızın məqalələrini ehtiva edən əlavədəki "Al-Nidaa" jurnalı və braşuralar göndərmək bizim üçün çox böyük məmnuniyyətdir. Xahiş edirəm, çalışmalarından istifadə etməyimizə icazə verdiyi üçün ən səmimi minnətdarlığımızı Harun Yəhya qardaşımıza və fondunuza çatdırın.

Braşuralar bir neçə ay əvvəl edilən dinlər arası dialoq üçün nəşr edildi və gələcəkdə də fürsət düşdükcə istifadə edəcəyik, inşaAllah. İki aydan bir nəşr olunan jurnalımızda Harun Yəhyanın məqalələrini nəşr etməyə başladıq.

Harun Yəhya adı burada çap edilmiş nəşrlərdə və internet mühitində tanınmasına baxmayaraq, braşuramızda nəşr olunması onun ününü hər yerə yayacaq və ən azından bizim qardaşlığımız çərçivəsində buradakı İslami mühitə yeni nəfəs gətirəcək. İslamın elmi tərəfinin daha yaxşı bilinməsi üçün növbəti sayılarda da yazılarınızdan nəşr edəcəyik, inşaAllah.

Mənə bir daha belə möhtəşəm isimlə və daha əvvəl görülməmiş, bənzərsiz və çox ehtiyac duyulan İslami elmlə əməkdaşlıq etməkdən duyduğumuz məmnuniyyəti ifadə etməyimə icazə verin.

Təşəkkür edirik."

**"Al Nidaa" jurnalını redaktoru,**

**Zıanuddın Alang Mami**

## İsrail, Ben-Ami Shillony

**Yəhudiləri və müsəlmanları bir yerə gətirmək kimi çox nəcib məqsəd uğrunda çalışırsınız. Bunu ifadə etməyimə icazə verin, yaşadığımız dövrdə edilməli olan ən əhəmiyyətli çalışmalardan birini edirsiniz.**

Yəhudiləri və müsəlmanları bir yerə gətirmək kimi çox nəcib bir məqsəd üçün çalışırsınız. Bunu ifadə etməyimə icazə verin, yaşadığımız dövrdə edilməli olan ən əhəmiyyətli çalışmalardan birini edirsiniz.

Bu iki İlahi din; İslam və Yəhudilik, sülh və sevgi dinidir və iki dinin mənsubları əsrlərlə bir yerdə sülh içində yaşayıblar. 20-ci əsrdə ərəblər və israillilər atalarının torpaqlarında yeni siyasi dövlətlər meydana gətiriblər. Bu dövlətlərin qurulduğu gündən bəri Ərəb dövlətləri və İsrail arasında tragik və qanlı mübahisə davam edir. Hər iki tərəf özlərinin Allah üçün ortaya çıxdıqlarını iddia edir, digər tərəfin haqlarına, istəklərinə və həssaslığına əhəmiyyət vermir.

Hər iki cəmiyyətin də ziyalı din adamlarının bir-birləri ilə görüşüb Orta Şərqdəki acıya son verməvə sülhü təmin etmə vaxtı çoxdan gəlmişdir. Allah, qullarının bir-birlərinə hörmət və sevgi duymalarını, bir-birilərini öldürməmələrini bildirmişdir. Bu din adamları tərəfindən ifadə edilməlidir. Bu cəhdin, Orta Şərqi əsrlər boyunca sülh və hüzur içində idarə etmiş ölkə olan Türkiyədən gəlməsindən xoşbəxtəm. Sizə müvəffəqiyyətlər diləyirəm."

**Qüds İbrani universiteti**

**Ben -Amı Shılonny**

## Pakistan, A. Hakeem Malik

**Əsərləriniz yalnız bir çox insanın Allaha iman etməsinə vəsilə olmaqla qalmayıb, eyni zamanda bir çox insanın da İslam haqqında dərin düşüncəyə sahib olmasına kömək edir.**

Pakistandan gələn bu məktubun sizi təəccübləndirdiyini düşünürəm. Tədqiqat çalışmalarınızın və Qurani Kərimi anlamağımız yolunda verdiyiniz töhfələrin pərəstişkarıyam.

Kitabxanamızın çox əhəmiyyətli hissəsini meydana gətirən əsərləriniz yalnız bir çox insanın Allaha iman etməsinə vəsilə olmaqla qalmayıb, eyni zamanda, bir çox insanın da İslam haqqında dərin düşüncəyə sahib olmağına kömək edir.

Ünvanınız mənə İngiltərədəki bir Müsəlman qardaşım tərəfindən verildi. Bu vəsilə ilə sizə "Qur'anic Prism" adlı çalışmamı (bütün Qurani Kərimin üç dildə hazırlanmış Mövzu Fihristi) təqdim etmə fürsəti tapdım.

Bu çalışmamı haqqındakı dəyərli fikirlərinizi və sizə çatdığına dair məlumat gözləyirəm.

Hörmətlə, direktor."

**İslami araşdırma fondu,**

**A. Hakeem Malik**

## İndoneziya, Tyas U. Soekarsano

**İzahatlar həm şagirdlər, həm də bizim üçün maarifləndirici və düşündürücü idi.**

12 mart 2003-cü il tarixində İndoneziya universitetində reallaşdırılan, “Təkamül nəzəriyyəsinin tənəzzülü və Yaradılış həqiqətləri” konfransına qatılan alimlərə və verdiyi töhfələrə görə hörmətli Adnan Oktara təşəkkür edirik. Slayd təqdimatları ilə dəstəklənilən izahatlar həm şagirdlər, həm də bizim üçün maarifləndirici və düşündürücü idi.”

Hörmətlə,

**İndoneziya universiteti iqtisadiyyat fakültəsi,**

**KOBİ Mərkəzi rəhbəri,**

**Tyas U. Soekarsano**

## İngiltərə, dr. İmran Ali

“Ötən ilin sonlarına doğru “Islamic society of Britain” (İngiltərə İslam birliyi) “Təkamül nəzəriyyəsinin tənəzzülü və Yaradılış həqiqətləri” başlığı altında konfrans təşkil etmişdir. Konfransa 200-dən çox insan iştirak etmişdir. Həmin gün eyni zamanda sərgi və slayd nümayişi də təşkil edilmişdir. Çıxış edən alimlərə və hörmətli Adnan Oktara elm və təhsilə verdikləri töhfələrə görə təşəkkür edərik.”

**Islamic society of Britain,**

Dr. İmran Ali,

Eve nt co ordinator

## İndoneziya, Teddy Trilaksono

**Harun Yəhya və yoldaşlarına təşəkkürlərimi təqdim etməyi borc bilirəm. Yaradılış həq iqətlərini nümayiş etdirən bu çalışmalar, İndoneziya xalqının önünə yeni üfüq açdı.**

Elektronik və çap edilmiş kütləvi informasiya vasitəsilə kitablar, sənədli filmlər, internet saytları hazırlayaraq elmə və təhsilə töhfə verən Harun Yəhya və yoldaşlarına təşəkkürlərimi təqdim etməyi borc bilirəm. Yaradılış həqiqətini nümayiş etdirən bu çalışmalar İndoneziya xalqının önünə yeni üfüq açdı. Xüsusilə mənim üçün, bunları həm özümün qəbul etməyim, həm də başqaları ilə paylaşmağın çox asan olduğunu ifadə etməliyəm.

Bu vəsilə ilə 22 sentyabr 2003-cü ildə Bandungda təşkil edilən "Təkamül nəzəriyyəsinin tənəzzülü və Yaradılış həqiqəti" başlıqlı konfrans əsnasında təqdim edilən slayd nümayişi üçün alimlərə təşəkkür edirəm.

Bu təqdimatlar iştirakçıların marağına səbəb oldu. Bu çalışmalar, gələcəkdə İndoneziya xalqının daha savadlı olması üçün əhəmiyyətli vasitədir.

Hörmətlə.

**Teddy Trilaksono,**

**Layihə müdiri**

# HARUN YƏHYANIN KİTABLARINA GƏLƏN TƏRİF MƏKTUBLAR

## İngiltərə Baş Nazirliyi

Baş nazirimiz üçün göndərdiyiniz və ilk fürsətdə oxumağı səbirsizliklə gözlədiyi "Təkamül yalanı" kitabı üçün təşəkkür edirəm.

**Emma McEwan**

## Singapur Baş Nazirinin köməkçisi

Baş nazirimiz Lee Hsien Loong ona göndərdiyiniz Harun Yəhya kitabları üçün təşəkkürlərini çatdırmağımı xahiş etdi.

**Ongye Kung**

**Baş nazir köməkçisinin xüsusi katibi**

## Hollandiya krallığı

Hörmətli kraliçamıza göndərdiyiniz cənab Harun Yəhyanın İslam mədəniyyəti haqqında yazdığı əsərləri tanıdan nəzakətli məktubunuz üçün təşəkkür edirik.

Bu düşüncəli hərəkətinizi təqdir edirik.

Səmimi diləklərimizlə,

**A. M. Leendertse**

**Kral və Kraliçanın xüsusi katibi**

## İspaniya Müdafiə Nazirliyi

"Təkamül yalanı" adlı maraqlı elmi kitab üçün sizə təşəkkür edirəm.

**Federico Trillo Fifueroa**

## Filipin Respublikasının senatı

Göndərdiyiniz 5 ədəd Harun Yəhya kitabı üçün çox təşəkkürlər. Bu kitabları araşdırmaq və öyrənmək üçün səbirsizlənirəm.

Ən yaxşı diləklərimlə,

**Juan M. Flavier, senator**

## Yeni Delhi parlamenti

7 avqust 2002-ci tarixli məktubunuzu və Harun Yəhya tərəfindən yazılmış imani və əlaqəli mövzuları açıqlayan kitabları aldım.

Əgər O, hamımızın Rəbbidirsə, biz niyə hamımızın bir olduğunu dərk etmirik?

**Kailash Joshi,**

**Parlament başçısı**

## Səudiyyə Ərəbistanı Krallığı səfirliyi

Harun Yəhyanın 4 İslam kitabı ilə birlikdə Səudiyyə Ərəbistanı Krallığı İnformasiya Nazirliyinə göndərdiyiniz məktubunuzla əlaqədar Ankaradakı Səudiyyə Ərəbistanı

Krallığının səfirliyi olaraq İnformasiya Nazirliyində əlaqədar səlahiyyətlilərin bu kitabları araşdırdıqlarını; kitabların dəyərli olduqlarını düşündüklərini, bunların tutarlı və elmi dildə yazıldığı, Qurani Kərimin ayələrinə əsaslanıldığı və maraqlı şəkilləri olduqlarını sizə bildirmək istəyirik.

Üstəlik, müəllifin fikirlərini ifadə etmədə təvazökar üslubdan istifadə etdiyi, bunları elmi və həqiqi nümunələr ilə yanaşı dini nümunələrlə də dəstəklədiyini düşünürlər. Səudiyyə İnformasiya Nazirliyi adına səfirlik olaraq, nəşr edənlərə bu qiymətli hədiyyəsinə görə sonsuz təşəkkürlərimizi təqdim edirik.

## Portuqaliya Prezidentliyi

Göndərdiyiniz 5 ədəd Harun Yəhya kitabı üçün çox təşəkkür edirəm.

Mədəniyyətlər və sivilizasiyalar arasındakı dialoqun və anlayışın inkişaf etdirilməsinə dair hədəflərinizə tamamilə qatılıram.

**Joao Boscomato Amaral**

## ABŞ Konqresi

Göndərdiyiniz "Təkamül yalanı" kitabı üçün təşəkkür edirəm. Bu düşüncəli davranışınız üçün təşəkkürlər.

Hörmətlə,

**Dan Burton,**

**Konqres üzvü**

## Avstraliya Nümayəndələr palatası və Parlamenti

Nümayəndələr Məclisinin spikeri və parlament üzvü hörmətli Hon Neil Andrew məndən Harun Yəhyanın yazdığı beş kitabın alındığını bildirən məktub yazmağımı istədi.

Hörmətli spiker ona bu maraqlı əsərləri göndərdiyiniz üçün təşəkkürlərini çatdırmağımı xahiş etdi.

Üstəlik, məndən terroristlər və terrorizmi qınadığınız üçün təşəkkürlərini çatdırmağımı və terrorizmi dünyamızdan rədd edə bilmək üçün bütün mədəniyyət və dinlərdən insanların əməkdaşlıq etməli olduğuna dair düşüncələrinizə dəstək verdiyini sizə bildirməyimi istədi. Bu əsərlər bir-birimizin inanclarını anlamağa və bu məqsədi reallaşdırmaq üçün əhəmiyyətli addımdır, bu baxımdan, hörmətli Harun Yəhyanın bu kitabları töhfə verəcək.

Hörmətli spikerə bu kitabları göndərməklə nəzakətiniz və comərdliyiniz üçün təkrar təşəkkür edirik.

Hörmətlərimizlə,

**Pauline M. Osmond**

**Avstraliya Nümayəndələr Məclisi spikerinin məsləhətçisi**

## Bəhreyn Əkinçilik və İctimai İşlər Nazirliyi

Mənə Harun Yəhyanın 4 kitabını hədiyyə göndərdiyiniz üçün sizə təşəkkürlərimi təqdim etmək istəyirəm.

Bu kitabların İslami inancları qeyri-müsəlmanlara daha müsbət şəkildə ifadə edə bilmə yolunda bir addım olduğunu düşünürəm.

Bir daha təşəkkür edirəm.

**Abdulnabi A. Al Shoala**

**Əkinçilik və İctimai İşlər Naziri**

## Malayziya Xarici İşlər Nazirliyi

27 iyul 2002-ci il tarixli məktubunuz üçün təşəkkür edirik. Hörmətli Harun bəyin yazılarını oxudum; əksəriyyətinin uyğun olduğunu və bu kitabların oxucularını Quran ayələri nuru ilə İslamiyyət haqqında daha yaxşı məlumatlar əldə etməsini təmin etdiklərini müşahidə etdim.

Fikrimcə, "İslam terroru lənətləyir" kitablarının içində ən müvəffəqiyyətli olanıdır. İş yoldaşlarım arasında çox böyük marağa sahib olduğu üçün kitabxanamıza daxil etməyimiz üçün bu kitabın başqa nüsxəsini də göndərməyinizi xahiş edirəm.

**Syed Hamid Albar**

**Xarici İşləri Naziri**

## İndoneziya Müdafiə Nazirliyi

İndoneziya Respublikası Müdafiə Nazirinin nəzdində H. E. H. Matori Abdul Djalil olaraq hörmətli Harun Yəhya tərəfindən yazılan

1) "Quran möcüzələri"

2) "İslam terroru lənətləyir"

3) "Qövmlərin həlakı"

4) "Darvinizmin qanlı ideologiyası: Faşizm"

5) "Təkamül yalanı"

6) "Xəyalin digər adı: Maddə"

adlı kitabları göndərdiyinizə və nəzakətli ünsiyyətinizə görə xüsusi təşəkkürlərimi bildirir, qarşımızdakı illərdə də müvəffəqiyyətinizin davamını diləyirəm.

**B. G. Prasetyo**

**Nazirliyin mətbuat katibi**

## Bəhreyn Respublikası Təhsil Nazirliyi

27 iyul 2002-ci il tarixli məktubunuz və göndərdiyiniz Harun Yəhyanın "İslam terroru lənətləyir", "Təkamül yalanı", "Maddə: Xəyalın digər adı" və "Quran möcüzələri" adlı kitablarınız üçün çox təşəkkür edirəm.

Bu kitablar çox maraqlıdır, İslamiyyətin terrorla uyğun olduğuna aid yanlış ön mühakimələri silmədə və İslam dünyasına dair dərin məlumat əldə etmədə çox faydalıldırlar. Üstəlik, təlimatçı olan bu kitablar dünyada mümkün qədər çox insana çatdırılmalıdır.

Göndərdiyiniz bu kitablar üçün təkrar təşəkkür edir, hörmətli Harun Yəhyaya bugünkü cəmiyyətdə İslamiyyətə verdiyi səmimi töhfələrə görə təriflərimi təqdim edirəm.

**Dr. Mohammed J. K. Alghatam**

**Təhsil Naziri**

## Seyşel Adaları Respublikası İctimai Əlaqələr və Məşğulluq Nazirliyi

29 iyul 2002-ci il tarixli məktubunuz və göndərdiyiniz Harun Yəhya tərəfindən yazılmış, çox müvəffəqiyyətli elmi araşdırmaların məhsulu olan əsərlər üçün təşəkkür edirəm.

Darvinin təkamül nəzəriyyəsini çürüdən və yer üzündəki həyatın “Üstün bir Ağıl” məhsulu olduğu doktrinasını müdafiə edən hörmətli Harun Yəhyanın bu qiymətli əsərlərini tanıma fürsətini əldə etdiyim üçün çox xoşbəxtəm.

Çalışmaların çox əhəmiyyətli düşüncələrlə dolu olduğuna və şövqlə oxuyacağım bu əsərlərin yer üzündəki canlılıq tarixi ilə əlaqədar mənə ən doğru və tərəfsiz məlumatı çatdıracağına əminəm.

Üstəlik, dünyanın terrorun vəhşi hərəkətlərindən qurtarılması üçün bütün din və inancların birləşməsinin vaxtı gəldiyi fikrini də dəstəkləyirəm.

**Dolor C. Ernesta**

**İctimai Əlaqələr və Məşğulluq Naziri**

## İran Prezidenti

İran İslam Respublikası Prezidentlik məqamına göndərdiyiniz "Təkamül yalanı" adlı kitabınız dövlət başçısı hörmətli Seyed Mohammed Hətamiyə təqdim edilmişdir. Prezidentin şəxsi katibi bu kitabın alındığını bildirən və şəxsən sizə təşəkkürlərini təqdim edən yazısı təqdim edilmişdir.

## Tayvan Ədalət Nazirliyi

Göndərdiyiniz "İslam terroru lənətləyir", "Faşizm: Darvinizmin qanlı ideologiyası", "Təkamül yalanı", "Maddə: Xəyalın digər adı" və "Quran möcüzələri" başlıqlı kitablar üçün təşəkkür edirəm. Bu kitablar yalnız Müsəlman zehniyyətini daha yaxşı anlamağıma kömək etmir, eyni zamanda, dininizi daha yaxşı tanımağıma da vəsilə olur.

Terrorizmə qarşı göstərdiyiniz səydən çox təsirləndiyimi və bu nəcib davranışınıza duyduğum hörməti ifadə etmək istəyirəm.

**Ding-Nan Chen**

**Ədalət Naziri**

## ABŞ Konqres Kitabxanası

Konqres Kitabxanası adına aşağıda adı ifadə edilən kitabları aldığımızı ifadə edir və nəzakətli hədiyyələriniz üçün təşəkkür edirik.

Kitab siyahısı:

“Dərin düşünmək”

“Quranı bilməyin əhəmiyyəti”

“Allahın rəng sənəti”

“Əsla anlamazlıqdan gəlməyin”

“Təkamül yalanı”

“Dünya həyatının həqiqətləri”

“Düşünən insanlar üçün”

“Qövmlərin həlakı”

“Peşman olmazdan əvvəl”

“Darvinizmin insanlığa gətirdiyi fəlakətlər”

“Kainatın yaradılışı”

“Qarışqadakı möcüzə”

Çalışmalarınız kitabxanadakı kolleksiyamızı zənginləşdirəcək. Milli kitabxanamıza göndərdiyiniz kitablar üçün yenidən təşəkkür edirik.

**Elena Zahirpour**

## Çin Respublikası Ətraf Mühiti Qoruma Nazirliyi

Rəhbərimiz Hau Lung-binə göndərdiyiniz 5 ədəd Harun Yəhya kitablarını aldıq.

Günümüzün çox əhəmiyyətli məsələlərini ələ alan bu kitablar üçün sizə təşəkkür edirik. Kitabxanamıza çox əhəmiyyətli faydası olacağına əminik.

Səmimi diləklərimizlə,

**Gwo-Dong Roam**

**Elm və Texnologiya Məsləhətçiliyi Ofisi,**

**Baş direktor**

## Filippin Respublikası Nümayəndələr palatası

Nümayəndələr Məclisinə göndərdiyiniz 5 ədəd kitaba görə dərin təşəkkürlərini bildirir.

Biz kainatın bu hissəsində İslam dini haqqında məhdud məlumata sahibik. Buna görə bu kitabların, İslamiyyətin nə olduğu, mədəniyyəti, inananları və doktrinaları haqqında dərin məlumatlar verəcəyinə inanırıq.

Oxumaq ən qüvvətli öyrənmə və aydınlanma yoludur.

Son olaraq, nəşriyyatınızda çalışan bəy və qadınların, insanlar arasında irqi ayrı-seçkilik güdmədən hər kəsə Müsəlmanlığın səsini eşitdirib, yaxşılığı və düzgün düşüncəni yaymaq üçün göstərdikləri səyi qiymətləndirirəm.

**Generoso D. C. Tulagam**

**Pangasinan Millət vəkili**

## Qətər Əmirliyi

"Qlobal" nəşriyyat tərəfindən Qətər dövləti əmirinə göndərilən məktub və hədiyyə kimi təqdim edilən müəllifi olduğunuz (3) kitaba ("İslam terroru lənətləyir", "Təkamül yalanı", Xəyalın digər adı: Maddə) ətf edərək

Ölkəmizin əmiri əla-həzrət ən gözəl salamlarını və səmimi təşəkkürlərini bildirməkdən qürur duyuram, üstəlik özü, bu qiymətli kitablarınız vasitəsi ilə bəşəriyyətin fikrini zənginləşdirən çalışmalarınızda da şəxsən sizə müvəffəqiyyətlər diləyir.

Ən gözəl diləklərimlə,

**Qətər əmirinin şəxsi katibi**

## İordaniya Əmək və Mənzil Təsərrüfatı Nazirliyi

İordaniya Əmək və Mənzil Təsərrüfatı Nazirliyi üçün göndərdiyiniz comərd hədiyyəniz, "İslam terroru lənətləyir", "Qövmlərin həlakı", "Maddə: Xəyalın digər adı" və "Quran möcüzələri" kitabları üçün təşəkkür edirəm.

Bu kitabları oxuyaraq hamımızın böyük fayda əldə edəcəyindən əminik. Hər kəsin oxuyub faydalana bilməsi üçün kitabları nazirliyimizin kitabxanasında saxlayacağıq. Yenidən təşəkkür edir və sizi İordaniyada görməyi ümid edirəm. Üstəlik, sizə yeni əsərlərinizdə müvəffəqiyyətlər diləyir, bütün müsəlmanların təhlükəsizliyi üçün Allahın sizi mərhəmət qanadları altına almasını diləyirəm.

**Hüsnü ABİ Gida**

**Əmək və Mənzil Təsərrüfatı Nazirliyi**

## Kipr Yunan Daxili İşlər Nazirliyi

1 avqust 2002-ci il tarixli məktubunuzla əlaqədar olaraq mənə Harun Yəhyanın "İslam terroru lənətləyir", "Təkamül yalanı", "Maddə: Xəyalın digər adı" və "Quran möcüzələri" adındakı 4 əsəri qazandırdığınız üçün təşəkkür edirəm.

Bu kitablarda təsirli fəlsəfə və ideologiyalar ilə inanc və elm mövzulu başlıqlar açıq və aydın təlqin edilmiş və insanı düşünməyə sövq edir.

**Dr. Andreas Panayiotou**

**Daxili İşlər Naziri**

## Hindistan Texnologiya İnstitutu

Bombeydəki Hindistan Texnologiya İnstitutu Mərkəz Kitabxanası 8 avqust 2002-ci il tarixində göndərdiyiniz məktubunuzu və aşağıda ifadə edilən nəşrləri aldığını bildirir və təşəkkür edir.

"İslam terroru lənətləyir",

"Faşizm: Darvinizmin qanlı ideologiyası",

"Təkamül yalanı",

"Maddə: Xəyalın digər adı",

"Quran möcüzələri".

Bu nəşrlər fakültə üzvləri, şagirdlər və institutun digər üzvlərinin istifadəsinə təqdim edilməklə Mərkəz Kitabxananın kolleksiyasına əlavə olunmuşdur.

**Dr. H. Z. Waydance**

**Kitabxananın məsul işçisi**

## Hindistan, Jawaharlal Çayı universiteti

Bu məktubla göndərdiyiniz, Harun Yəhya tərəfindən yazılmış kitabları aldığımızı bildirir, təşəkkür edirəm. Məzmunlarından anladığım qədəri ilə bu kitablar fərqli mövzularda qiymətli məlumatlar ehtiva edir.

**Prof. G. K. Chadha, Rektor**

## Xəzər universitetinin kitabxanası

Hörmətli Harun bəy,

Xəzər universitetinin kitabxana məlumat mərkəzinə hədiyyə etdiyiniz kitablar üçün sizə ən dərin minnətdarlığımı bildirirəm. Bu kitablar buradakı bir çox oxucu (araşdırmaçı, elm adamı, müəllim və şagirdlər) üçün çox əhəmiyyətli qaynaqdır və bizim İslam dini haqqındakı məlumatlarımızı zənginləşdirəcək.

Kitabxanaya hədiyyə etdiyiniz kitabları dostluğumuzun bir təzahürü olaraq görürük və ümid edirik ki bu dostluğumuz gələcəkdə də davam edər.

**F. H. Rəsulov**

**Məlumat mərkəzinin direktoru**

## Filippin Senatorluğu

Bizə göndərdiyiniz "İslam terroru lənətləyir", "Faşizm: darvinizmin qanlı ideologiyası", "Təkamül yalanı", "Maddə: Xəyalın digər adı" və "Quran möcüzələri" kitabları üçün təşəkkür edirik. Bu kitabları kitabxanamızda saxlayırıq.

Yenidən təşəkkürlər, ən dərin hörmətlərimizlə.

**Senator Teresa Aquino Orega adına**

**Dennis N.Acorda**

## New York Kolumbiya universiteti, ABŞ

Kolumbiya universitetinə göndərdiyiniz qiymətli hədiyyələr üçün təşəkkür edirik.

Kolleksiyamız siz və sizin kimi düşüncəli davrananlar sayəsində inkişaf edir. Bu hədiyyələr fakültəmizin və şagirdlərimizin ehtiyaclarını qarşılayır.

5 ədəd kitab bizə çatmışdır.

**Matthew A. Hambel**

**Koordinator köməkçisi**

## Pekin universitetinin kitabxanası, Çin

Aşağıdakı kitabları kitabxana kolleksiyamıza əlavə etdiyimizi bildirir və təşəkkür edirik.

1) "Quran möcüzələri"

2) "Atomdakı möcüzə"

3) "Kainatın yaradılışı"

4)"Quran elmə yol göstərər"

5)"Faşizm: Darvinizmin qanlı ideologiyası"

Bu kitabların bizim kolleksiyamıza çox böyük faydası olacağına inanırıq. Kitabxanamız və öz adımızdan sizə davamlı dəstəyiniz üçün təşəkkür edirik.

**Nu Zong Lin**

## Saraybosna universiteti, Bosniya-Herseqovina Respublikası

Məşhur müəllif Harun Yəhyanın beş mükəmməl kitabını aldığımızı bildirir və təşəkkür edirik. Kitabların məzmunlarına baxaraq söyləyə bilərik ki, mövzular institutumuzun araşdırmaları ilə çox yaxından əlaqəlidir. Buna görə bu kitablardan institutumuzun bioloji araşdırmalarında faydalanacağıq.

Eyni zamanda bunu, təhsil təşkilatlarımız arasında, xüsusilə, birlikdə layihə həyata keçirmək və əməkdaşlıq üçün fürsət kimi görürük. Bu mənada, əməkdaşlığımızın əsas tərəflərini danışmaq üçün yığıncaq təşkil edə bilərik. Bu mövzudakı təkliflərinizə açığıq.

Sizə institutumuzun ingilis dilində bir neçə nəşrini göndərməkdən məmnun olarıq. Beləliklə, bu elmi təşkilatın çapı ilə məlumatlanmağınızı diləyirik.

**Prof. Dr. Smail Cekic**

**Beynəlxalq cinayətlər araşdırma hissəsinin başçısı**

## Bahauddin Zakariya universiteti, Pakistan

Bahauiddin Zakariya universitetinin rektor köməkçisi Ghulam Chauardya göndərdiyiniz 20 avqust 2002-ci il tarixli məktubunuzu aldığımızı bildirmək istəyirəm. Harun Yəhya bəyin mütaliəsini və əsərlərini göndərdiyiniz üçün təşəkkür edirik.

**Ashiq Muhammad**

**Rektor köməkçisi**

## Əziz Stephen kilsəsi

Allah və hz. İsa adına salamlar,

“Təkamül yalanı” adlı hamımızın Yaradıcısı olan Allahın yaratma sənətini təsirli dəlillərlə izah edən kitabınız üçün təşəkkür edirəm. Müəllifin yaradılışı izah etmədəki səmimiyyət və aydınlığını təqdir edirəm.

Fərdi kitabxanamda saxlayacağım bu kitab üçün təkrar təşəkkürlər.

**Rahib Corc D. McKinney**

## İslam çalışma mərkəzi, Sinqapur

Ofisiniz tərəfindən bizə göndərilən “Harun Yəhya əsərlərinin dünyadakı əks-sədaları” adlı kitabı aldığımızı səmimi təşəkkürlərimlə bildirmək istəyirəm. Bu düşüncəli davranışınızı təqdir edir və ən qısa zamanda sizə qarşılıq verə bilməyi ümid edirik. Harun Yəhyanın kitabları, kitab dükanımızın ən çox satan əsərləri arasındadır.

Yenidən ən dərin hörmətlərimizi təqdim edirik.

**Dr. Siti Maryam**

**Malinumbay S. Salasal**

## Qaller Şahzadəsi

Əlahəzrət ilə 13-25 oktyabr 2002-ci il tarixləri arasında görüşmək istədiyinizi bildirdiniz və onu konfransınıza dəvət etdiyiniz 9 avqust 2002-ci il tarixli məktubunuz üçün təşəkkür edirik.

Əlahəzrətləri onu düşündüyünüz üçün minnətdar olduğunu və məndən sizə ən səmimi diləklərini çatdırmağımı istədi.

**Baş Kapitan**

**Alastair Graham,**

**Kraliyyət donanması**

## Rusiya universiteti

Kitablar üçün təşəkkür edirik.

Gələcəkdə əməkdaşlığımızın davamını diləyirəm.

Hörmətlə,

**Goubin V. D.**

**Fəlsəfə fakültəsinin dekanı**

## Ədən universiteti, Yəmən Respublikası

Cənab Harun Yəhyaya aid göndərdiyiniz kitabları aldıq:

a) "Maddə: Xəyalın digər adı"

b) "İslam terroru lənətləyir"

c) "Quran möcüzələri"

d) "Təkamül yalanı"

Göndərdiyiniz faydalı kitablar üçün çox təşəkkür edirəm. Bu eyni zamanda sizinlə əlaqədə qalmağımız üçün faydalı olacaq.

Ən səmimi diləklərimlə,

**Dr. Ahmad Alial-Hamadan**

**Yüksək təhsil və elmi araşdırma fakültəsinin dekanı**

## Edinburq universiteti, hüquq fakültəsi, İngiltərə

Universitetimiz kitabxanasına əlavə etdiyimiz üç ədəd əsəriniz üçün təşəkkür edirəm.

**Prof. H. L. MacQueen**

**Dekan**

## Bandunq texnologiya institutu, İndoneziya

Kainatın Yaradıcısı olan Allah çox ucadır. Harun Yəhyanın yalnız Müsəlman dünyasına deyil, dünyadakı bütün insanlara həqiqətləri göstərməyə həsr olunmuş müxtəlif nəşrlər şəklində etdiyi möhtəşəm çalışmaya olan səmimi hörmət və heyranlığımı ifadə etmək istəyirəm. Çalışmaları zehnimizə əsin qaynağı olur, ruhumuzu oyandırır. Harun Yəhya elmi həqiqətləri düşünən insanlar üçün Allahın yaradılışının dəlilləri olaraq təqdim etdi. Allah Harun Yəhyanı ən gözəl şəkildə mükafatlandırsın.

**Dr. Taufiburahman**

**Biologiya fakültəsinin başçısı**

## Hökumətlər arası araşdırma institutu, ABŞ

Mənfəət güdməyən institut olan Hökumətlər arası araşdırma institutunda çalışıram. Amerika Birləşmiş Dövlətlərində yerli və əyalət polis məmurlarına antiterror təhsili verdik. İcazənizlə, sənədli filminizdən proqramımızın bir parçası olaraq istifadə etmək istəyirik. Bu tələbimizə hər hansı etirazınız varmı? Əgər bir sualınız varsa, mənə aşağıdakı nömrələrdən, ya da bu mesaja cavab verərək əlaqə qura bilərsiniz.

Təşəkkürlər,

**Scott Tedcastle**

**Tədqiqatçı**

## "Azizah" jurnalı, ABŞ

Salam Əleykum... Göndərdiyiniz Harun Yəhya kitabları üçün təşəkkür edirəm. Yazıların keyfiyyətindən çox təsirləndik. Hal-hazırda həmişəkindən daha çox Müsəlman nəşriyyatçıların həqiqi İslam əxlaqını yazma mövzusunda məsul olduqlarına inanırıq. Sizin bu məqsədə yönəlik səylərinizi təqdir edirik.

**Ruqayyah K. Mohammed**

**Redaktor köməkçisi**

## Təl Əviv universiteti, İsrail

"Dini" olaraq adlandırılan terroru dayandırmaq və üç tək İlahlı dində ortaq olan əsl dini dəyərləri yerləşdirmək üçün icra etdiyiniz nəcib səyinizə dəstəklərimi ifadə etməkdən qürur duyuram. Bu konfransın bölgəmizdə və bütün dünyada qarşılıqlı anlayışa böyük töhfə verəcəyindən heç şübhəm yoxdur və bu çalışmanı təqdir edirəm.

Bir olan Allaha inananlar arasında etibarlı daimi sülhü təmin etmənin tək yolunun ortaq dini və əxlaqi dəyərlərimizin tanınması olduğuna inanıram. Bu səbəblə, ilk və ən əhəmiyyətli addımın, bu dəyərlərin aradan qaldırılması ilə Allah adına qan tökülməsinin qınanması olduğuna inanıram. Məhz bu səbəblə, təşəbbüsünüzə çox əhəmiyyət verir və müvəffəqiyyətli olacağınıza mən də inanıram. Allah sizi qorusun.

**Prof. Aryeh Finkelberg**

**Fəlsəfə fakültəsi**

# KONFRANSLAR VƏ SƏRGİLƏR

## Harun Yahya konfransları

### ✓ Amerika və Kanada

#### San Fransisko illik İslam konfransı

“As Sabeel Masjid Noor Al Islam” tərəfindən 26-28 dekabr 2003-cü ildə San Fransiskoda olan Nob Hill Centerdə “İllik İslam konqresi” təşkil edildi. Üç gün davam edən bu konfranslara İslam dünyasının tanınmış simaları ilə yanaşı Harun Yəhyanın əsərlərindən hazırlanmış təqdimatlarda alimlər də qatıldı. Natiqlərin Harun Yəhyanın əsərlərindən faydalanaraq hazırladıqları təqdimatların mövzuları “Quran möcüzələri” ilə “Quran elmə yol göstərər” idi. Harun Yəhyanın müxtəlif dillərə tərcümə edilən əsərlərinin də nümayiş etdirildiyi konfrans çox böyük marağa səbəb oldu. Bu konfransların ardından “www.harunyahya.com” saytına gələn mesajlar isə edilən təqdimatların insanlar üzərində nə qədər böyük təsir meydana gətirdiyini açıqca göstərirdi. Bu mesajlardan biri belədir:

“San Fransisko İslam konqresində natiqlərinizdən ikisini dinlədim və dərhal evə gəlib saytınızı araşdırdım. Bu dərin tədqiqatlara çox təəccübləndim və təsirləndim, Əlhamdulillah. İnancım mövzusunda özümü daha etibarlı və rahat hiss edirəm. Bu mükəmməl çalışmalarınıza görə təşəkkür edirəm. Mən də bu yeni məlumatlarımı yoldaşlarıma və ailəmə təbliğ edəcəyəm.” Karolin.

## ✓ Kanada və Amerika

**Konfranslar silsiləsi, 2003-cü il noyabr ayı**

2003-cü ilin noyabr ayında Amerikanın müxtəlif universitetlərində, təhsil mərkəzlərində, liseylərdə və bəzi quruluşlarda Harun Yəhyanın əsərlərini təməl alan konfranslar təşkil edildi. 19 gün davam edən konfranslar silsiləsida 6 fərqli universitetdə və müxtəlif təşkilatlarda 17 fərqli təqdimat edildi. Müxtəlif televiziya proqramlarına da qatılan natiqlər hər ziyarət etdikləri yerdə çox böyük maraqla qarşılaşdılar.

### İllik şüurlu dizayn konfransı, Minneapolis universiteti

Minneapolis universitetində, IDN (Intelligent Design Network – şüurlu dizayn şəbəkəsi) tərəfindən təşkil edilən "İllik şüurlu dizayn konfransı"nda Harun Yəhya nümayəndələri "Darvinizmin tənəzzülü" mövzusunda çıxış etdilər. IDN-nin bu konfransında, Harun Yəhya tərəfindən darvinizm mövzusundakı bütün çalışmaları çox böyük marağa səbəb oldu.

## Amerikanın fərqli universitetləri

Andrews universiteti və Loma Linda universiteti Teologiya fakültəsində həyata keçirilən konfranslar silsiləsi isə "Xristianlarla müsəlmanların dinsizliyə və terrora qarşı necə birləşməli olduğu" mövzusu üzərində təşkil edilmişdi. Harun Yəhyanın çalışmalarının tanıtımı isə tamaşaçılardan böyük maraq gördü.

Bu konfranslardan başqa MESA universiteti və Irvine universiteti kimi təşkilatlarda “Təkamül nəzəriyyəsinin tənəzzülü”, “Axırzamanın əlamətləri” və “Yaradılış həqiqəti” mövzusunda müxtəlif təqdimatlar edildi. Afişa nümayişləri və slayd nümayişləri də konfranslar kimi böyük maraq gördü.

## ISNA kitab sərgisi

Amerikanın Vaşinqton DC əyalətində 30 avqust-2 sentyabr 2002-ci il tarixləri arasında ABŞ-ın ən böyük və ən hörmətli İslam təşkilatlarından biri olan “Islamic Society of North America” da (ISNA-Şimali Amerika İslam Cəmiyyəti) böyük sərgi təşkil etdi. Hər il təşkil edilən bu sərgiyə İslam dünyasının qabaqcıl yazıçıları, alimləri və mütəfəkkirləri çıxış etdilər. 2002-ci ildəki sərgidə Harun Yəhya stendi ziyarətçilərin çox böyük marağına səbəb oldu.

## Amerikan müsəlmanları mədəniyyət festivalı, Salt Lake

2003-cü ilin sentyabr ayında Salt Lakedə Amerikan Müsəlmanları mədəniyyət festivalı təşkil edildi. Gallivan Plazada təşkil edilən festivala çox sayda Xristian nümayəndə də qatıldı. Harun Yəhyanın müxtəlif dillərdəki əsərlərinin nümayiş etdirildiyi festival iki böyük dinin mənsublarının tolerantlıq içində bir yerdə ola biləcəklərini göstərən əhəmiyyətli cəhd olaraq qəzetlərdə əks olundu.

## Şüurlu dizayn seminarı, Kanzas

2001-ci ildə Kanzasda təşkil edilən, bir çox əhəmiyyətli elm adamı və tədqiqatçının qatıldığı Intelligent Design Network seminarının əvvəlində iştirakçılara Harun Yəhyanın "Təkamül nəzəriyyəsinin tənəzzülü" mövzusu üzərindəki çalışmaları haqqında təqdimat edildi. Harun Yəhyanın əsərlərində yer alan və "Xristianların və müsəlmanların Darvinizmə qarşı birlikdə mübarizə etməli olduğu" üzərində dayanan bu təqdimat, Xristian alimlərin çox böyük marağına səbəb oldu. Müəllifin çalışmaları haqqında təfərrüatlı sualların da yönəldildiyi bu təqdimatlardan sonra iştirakçılar bu çalışmalara heyran qaldıqlarını ifadə etdilər.

## Konfranslar silsiləsi, 2002-ci il sentyabr ayı

2002-ci ildə Amerikanın müxtəlif əyalətlərində Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan bir çox konfrans təşkil edildi. 11 sentyabr terror hücumlarının ardından reallaşdırılan bu konfranslar silsiləsin əsas başlığını "İslam terroru lənətləyir" mövzusunda idi. Bundan başqa "Təkamül nəzəriyyəsinin tənəzzülü və Yaradılış həqiqətləri", "Quran möcüzələri" və "Allahın varlığı" kimi mövzularda müxtəlif təqdimatlar həyata keçirildi. Konfransların təşkil edildiyi bəzi yerlər isə bunlardır:

Columbia Üniversitesi, Purdue Üniversitesi, New York Hunter College, Central Islamic Center of New York, Upper Westchester Muslim Society, The Cloyd Heck Marvin Center, Virgina Nova College, Illinois Muslim Education Center, Illinois Muslim Society İnc...

## Concordia və Mcgill universitetləri, Kanada

24-31 may 2002-ci il tarixləri arasında Kanada daxilində Harun Yəhyanın əsərlərindən faydalanılaraq “Quran möcüzələri”, “Kainatın yaradılışı”, “İslamda elm” və “Təkamül nəzəriyyəsinin tənəzzülü” mövzularında konfranslar silsiləsi təşkil edildi.

Ottowa və Montrealda daha çox müsəlmanların oxuduqları məktəblərdə həyata keçirilən bu təqdimatlardan başqa “Toronto Vision” TV də Harun Yəhyanın əsərlərə əsaslanılaraq üç proqram yayımlandı. “Islamic Information and Da'wah Centre of Toronto” (Toronto İslami məlumat və iddia mərkəzi) başçısı Shabir Allyin də qatıldığı televiziya proqramlarında “Kainatın yaradılışı” və “Quran möcüzələri” mövzuları üzərində dayanıldı.

## Argentina kitab sərgisi

Argentinada 2004-cü ilin aprel ayında təşkil edilən beynəlxalq kitab sərgisində Harun Yəhyanın ispan dilinə tərcümə edilən kitabları nümayiş etdirildi.

# Avropa

## İngiltərədə konfranslar silsiləsi, 2002-ci il oktyabr ayı

İngiltərədəki Müsəlman şagirdləri təmsil edən ən böyük təşkilatlardan biri olan FOSIS (The Federation of Student Islamic Societies-İslami çalışmalar tələbə dərnəyi)

tərəfindən 2002-ci ildə müxtəlif universitetlərdə Harun Yəhyanın əsərlərindən faydalanılaraq bir çox konfrans təşkil edildi. Aralarında Cambridge, Edinburgh və Leicester kimi bütün dünyada tanınan, səviyyəli təhsil təşkilatlarının da olduğu bir çox universitetdə təşkil edilən konfranslarda "Təkamül nəzəriyyəsinin tənəzzülü", "Atom möcüzəsi", "Quranın elmi möcüzələri" kimi mövzularda İngilis dilində təqdimatlar həyata keçirildi. Təqdimatlardan əvvəl Harun Yəhyanın müxtəlif dillərdəki əsərləri nümayiş etdirildi.

## IPCI konfransı, Birmingham

İngiltərənin ən əhəmiyyətli İslami quruluşlarından biri olan IPCI – Islamic Vision (İslami təqdimatlar komitəsi-Islamic Presentation Commitee) tərəfindən 2002-ci ilin oktyabr ayında Birminghamda təşkil edilən konfrans "The Nation" kimi gündəlik qəzetlərdə də əks olundu.

### IPCI – İslami kitab sərgisi

İngiltərənin ən əhəmiyyətli İslam təşkilatlarından biri olan İslami təqdimat komitəsi (İPCİ)-in 2003-cü ildə açdığı, İngiltərənin ilk daimi İslam sərgisində Harun Yəhyanın müxtəlif dillərdəki əsərləri nümayiş etdirildi. Birmingham Milli Təhsil müdiri Tony Howell tərəfindən açılışı edilən sərgi Xristian ziyarətçilər tərəfindən də böyük maraq ilə qarşılandı.

## İngiltərə konfranslar silsiləsi, 2003-cü il oktyabr ayı

2002-ci ildəki İngiltərə konfranslarının da təşkilatçısı olan FOSIS (İslami çalışmalar tələbə federasiyası), 2003-cü ildə də yenə İngiltərənin müxtəlif bölgələrindəki universitetlərdə konfranslar silsiləsi təşkil etdi. 13-17 oktyabr tarixləri arasında həyata keçirilən konfranslardan "Yaradılış və darvinizmin tənəzzülü" mövzusunda sərgi ilə birlikdə təqdimat nümayişi də təşkil edilmişdir.

## Manchester konfransları, 2004-cü il dekabr ayı

5 və 6 dekabr 2004-cü il tarixlərində İslam fondu "The Lote Tree" tərəfindən İngiltərədə konfranslar silsiləsi təşkil edildi.

Manchesterdə reallaşdırılan konfranslarda Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan "Elm və din - düşünməyə dəvət", "Qiyamət əlamətləri" və "Kainatın yaradılışı" mövzusunda təqdimatlar həyata keçirildi.

11 dekabr 2004-cü il tarixində Londonda Amal Trust tərəfindən konfrans təşkil edildi. Kensington and Chelsea Town Hallda keçirilən konfransa Harun Yəhya nümayəndələri ilə yanaşı sonradan İslamı seçən müəllif Ahmad Thomson, Westminster qubernator köməkçisi və Avropa Parlamenti Millət vəkili Barones Sarah Ludford, Lambeth Qubernatoru İrene Kim, Kensington/Chelsea sabiq qubernator köməkçisi Christopher Buckmaster, Harrow qubernator köməkçisi Asad Omar, Səudiyyə Ərəbistanı İngiltərə səfiri şahzadə Al-Faysal və Lordlar Palatasından Lord Nazir Əhməd kimi çox əhəmiyyətli natiqlər qatıldı.

## Bourget kitab sərgisi, Fransa 2004-cü il

Bourget sərgisi 1983-cü ildən bu günə yalnız Fransadan gələn iştirakçılarla həyata keçirilir. Hər il aprel ayında edilən və 3-4 gün davam edən sərgidə, yalnız İslami əsərlər nümayiş etdirilir. 100.000-ə yaxın insanın ziyarət etdiyi sərgidə Harun Yəhyanın əsərləri də fərqli nəşriyyat tərəfindən xalqa təqdim edilir. Müəllifin əsərlərini fransızca və ərəbcə nəşr edən aşağıdakı nəşrlər 2004-cü ildə Bourget sərgisinə qatılmışdır.

## Danimarka milli kitab sərgisi, 2003-cü il oktyabr ayı

Danimarkada 2003-cü ilin oktyabr ayında təşkil edilən milli kitab sərgisində Harun Yəhyanın müxtəlif dillərdəki kitabları nümayiş etdirildi. Avropadakı vətəndaşlarımız Danimarkadakı mədəni fəaliyyətlərdə, kiçik kitab sərgilərində xüsusilə Harun Yəhya əsərlərini tələb edir, yazılı və vizual nəşrləri izləyirlər. Xüsusilə də, Kopenhaf və Arhus şəhərlərində Harun Yəhyanın əsərlərini izləyən çox böyük oxucu kütləsi var.

## Hollandiya, 2001-ci il oktyabr ayı

4 oktyabr 2001-ci il tarixində Hollandiyanın Rotterdam şəhərində Harun Yəhyanın əsərlərindən faydalanılaraq müxtəlif seminarlar təşkil edilmişdir. İslam universiteti tərəfindən təşkil edilən və xalqın böyük marağı ilə qarşılaşan konfransların mövzusu "Təkamül nəzəriyyəsi və Yaradılış həqiqəti" idi.

## Macarıstan konfransları, 2004-cü il

2004-cü ildə Macarıstan xalqı bir çox fərqli konfrans sayəsində Harun Yəhyanın əsərləri ilə yaxından tanış olma fürsəti tapdı. Məktəblərdə, İslam mərkəzlərində və müxtəlif təşkilatlarda təşkil edilən konfranslarla, təqdimatlar və sərgilərlə Harun Yəhyanın müxtəlif dillərdəki kitabları tanıdıldı. İstər orada yaşayan müsəlmanların, istərsə də Macar xalqının çox böyük maraq göstərdikləri bu təqdimatlar "Təkamül nəzəriyyəsinin tənəzzülü və Yaradılış həqiqəti", "Möcüzəvi planet" kimi mövzuları ehtiva edirdi. Bu təqdimatların bəziləri Macar dilində alt yazılı, bəziləri də dublyaj edilmişdi.

Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan "İnsanın yaradılışı" və "İslam, dünyanı aydınladan nur" sənədli filmlərinin Macar dilində təqdimatları böyük maraq ilə izlənildi.

28 iyul 2004-cü ildə tarixində Budapeştedə I Keruleti Budavari Muvelodesi Haz, Bem mədəniyyət mərkəzində "İnsanın yaradılış möcüzəsi" adlı sənədli film Macar dilində dublyaj edilərək iştirakçılara göstərildi. Maraq ilə izlənilən bu filmin ardından iştirakçıların arasında Xristian dininə mənsub şəxslərin də olması diqqətə alınaraq, "Gəlin birləşək" başlıqlı çıxış edildi. Çıxışı böyük diqqət və həvəs ilə izləyən iştirakçılar konfransda olmalarından duyduqları məmnuniyyəti dilə gətirdilər və bu cür konfransların davamını tələb etdilər.

## Harun Yəhyanın əsərləri Frankfurt kitab sərgilərində

Dünyanın ən böyük kitab sərgilərindən biri olan Beynəlxalq Frankfurt kitab sərgisində 2001, 2002 və 2004-cü ildə Harun Yəhyanın müxtəlif dillərdəki əsərləri, DVD və VCD-ləri nümayiş etdirildi. Harun Yəhyanın əsərlərini nəşr edən bir çox fərqli

nəşriyyatın da qatıldığı sərgilərdə, bu qiymətli əsərlər fərqli dinlərə mənsub ziyarətçilərin çox böyük marağı ilə qarşılandı.

## Albaniya kitab sərgisi, Tiran 2002-ci il

2002-ci ilin noyabr ayında Albaniya, Tiranda çox böyük kitab sərgisi reallaşdırıldı. Sərgiyə Harun Yəhyanın kitablarını Alban dilində nəşr edən müxtəlif nəşriyyat da qatıldılar. Xüsusilə də "Təkamül nəzəriyyəsi" mövzusunda kitab və sənədli filmlər ziyarətçilərin çox böyük maraq ilə qarşılandı. Bu əsərlərin birinin stendini ziyarət edənlər arasında dövlət başçısı Alfred Moisiu və dövlət naziri Arta Dadeve də var idi. Sabiq dövlət başçısı Sali Berisha da ona hədiyyə edilən Harun Yəhyanın kitabları haqqında müxtəlif suallar soruşaraq məlumat əldə etdi.

## Albaniya kitab sərgisi, Tiran 2003-cü il

Albaniyadakı müxtəlif nəşriyyatlar 2003-cü ildə yenə böyük stendlərlə Harun Yəhyanın müxtəlif kitablarını, DVD və CD-lərini tamaşaçılara təqdim etdilər. Harun Yəhyanın "İslam terroru lənətləyir", "Təkamül yalanı", "Qövmlərin həlakı", "Darvinizmin dünyaya gətirdiyi bəlalar", "Dərin düşünmək" və "Quran möcüzələri" kimi kitablarını Alban dilində nəşr edən bir nəşriyyatın çox böyük maraq görən stendində Harun Yəhyanın əsərlərindən hazırlanan müxtəlif sənədli filmlər də göstərildi.

## Albaniya kitab sərgisi, Tirana, 2004-cü il

Tiranada təşkil edilən kitab sərgisinə 2004-cü ildə də yenə bir çox əsərlər Harun Yəhyanın çalışmaları ilə qatıldı. Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan "Yaradılış həqiqəti", "İnsanın yaradılışındakı möcüzə", "Hüceyrədəki möcüzə", "Dənizlərdəki ehtişam", "Quşlardakı möcüzə", "Təkamül nəzəriyyəsinin tənəzzülü", "Kainatın yaradılışı", "İslam terroru lənətləyir" kimi sənədli filmləri Alban dilində nəşr edən bir nəşriyyatın stendi ziyarətçilərdən yenə böyük maraq gördü.

## Association Millenium dərnəyi, Makedoniya

Makedoniyada fəaliyyət göstərən Association Millennium dərnəyinin başçısı senat Brvraynko Bekiri dörd ildən çoxdur ki, Harun Yəhyanın əsərləri vəsiləsi ilə Makedoniya xalqına "Yaradılış həqiqəti"ni izah edir. Bekiri yazdığı bir məktubunda çalışmalarını bu şəkildə ifadə edir.

"Təşkilatımız, Harun Yəhyanın əsərləri ilə tanış olduğu gündən bu yana çalışmaları bu əsərlərə əsas alaraq, öz hədəf kütləsi olan uşaq və gənclərə, sizin tərəfinizdən hazırlanan VCD-ləri göstərməyə başladı. Təşkilatımız dörd ildir ki, uşaq və gənclərə xüsusi təhsil proqramları təşkil edir. Təhsil proqramlarımıza müxtəlif milliyyətlərə mənsub uşaq və gənclər qatılırlar. Bunların içində Müsəlman Türk, Alban və Rum qruplar kimi Ortodoks Makedon gənc və uşaqlar da vardır. Təşkil etdiyimiz proqrama iki ildən bəri vizual dərslər təşkil edirik. Bu proqram yalnız sizin hazırladığınız VCD-lərlə reallaşır. İndiyə qədər mərkəzimizə və vizual dərslərimizə təxminən 600 şagird qatılmışdır. Vizual dərslər adını verdiyimiz bu təşkilat, dörd aylıq təhsil proqramıdır və yalnız həftə sonları keçirilir. Bu proqramın başlamasından sonra, valideynlərdə və xalqda fəaliyyətlərimiz çox böyük maraq ilə qarşılandı. Bizə bu fəaliyyətləri davam etdirməyimiz və VCD-ləri çoxaltmağımız üçün tələblər başladı.

# Rus və Türk xalqları

## Rusiya beynəlxalq din sərgisi, 2003-cü il

22 may-1 iyun 2003-cü il tarixləri arasında Moskvada, VDNH sərgi kompleksində beynəlxalq din sərgisi təşkil edildi.

Bu il Moskva bələdiyyəsi, Rusiya Patriki Aleksiy II, Rusiya Müftilər şurasının başçısı Ravil Gaynuttin, Katolik və Protestant Xristian kilsələrinin başçıları, Rusiya Yəhudi camaatı konqresi tərəfindən dəstəklənilən sərginin üçüncüsü təşkil edildi. On gün davam edən sərgi 15.000-dən çox insan ziyarət etdi.

Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan və Rus dilində nəşr olunan "İslam-dünyanı aydınladan nur" film nümayişi ilə başlayan İslam günü, Rusiya Müftilər şurası başçısı Ravil Gaynuttinin çıxışı ilə açıldı. Şeyx Gaynuttin Harun Yəhyanın kitablarının Rusiyadakı müsəlmanlara böyük qürur və şövq verdiyini vurğulamış və bu qiymətli əsərlərin daha çox nəşr olunmasını istədi.

Harun Yəhyanın iyirmidən çox dilə tərcümə edilən "Təkamül yalanı" adlı əsəri Rusiyadakı Ortodoks, Xristian və Müsəlman yaradılışçı forumlarda ən böyük qaynaq kimi istifadə edilir.

Rusiya Yüksək İslam universitetinin rektoru Harun Yəhyanın Rus dilində hazırladığı bütün kitabları və sənədli filmləri universitetin və Rusiyanın bütün mədrəsələri üçün tətbiq etdikləri təhsil proqramına daxil etməyə hazırlandıqlarını ifadə etdi.

## Rusiya müsəlmanları, 100-cü il konfransları

Rusiya müsəlmanları tərəfindən 2004-cü ilin may ayında təşkil edilən 100-cü il konfranslarında Harun Yəhyanın əsərlərinə çox böyük maraq göstərildi. 1500 şəxsin iştirakı ilə reallaşan konfransa Rusiyanın bütün qabaqcıl Müsəlman din adamları qatıldı. İslam ölkələrinin səfirləri, Moskva Bələdiyyə başçısı, Duma millət vəkilləri, Tatarıstan baş naziri, Müsəlman jurnalist və sənətçilər də iştirakçılar arasında idi.

## Rusiya beynəlxalq din sərgisi, 2002

Rusiyada 2002-ci ildə təşkil edilən Beynəlxalq din sərgisində Harun Yəhyanın əsərləri nümayiş etdirildi və xalqın böyük marağı ilə qarşılandı. Sərgi daxilində təşkil edilən konfrans əsnasında isə Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan sənədli film göstərildi.

## Rusiya milli kitab sərgisi, 2002-ci il

2002-ci ildə keçirilən Rusiya milli kitab sərgisində Harun Yəhyanın müxtəlif dillərdəki əsərləri sərgiləndi. Bir çox üst səviyyə siyasətçinin və alimin ziyarət etdiyi Harun Yəhya stendi çox böyük maraq ilə qarşılandı.

## Rusiya beynəlxalq kitab sərgisi, 2003-cü il

2003-cü ilin sentyabr ayında Moskvada 16-cı Beynəlxalq Kitab Sərgisi təşkil edildi. Harun Yəhyanın müxtəlif dillərdəki əsərlərinin nümayiş etdirildiyi stend sərginin açıq olduğu altı gün boyunca ziyarətçilər tərəfindən böyük maraq ilə qarşılandı.

## Rusiya beynəlxalq kitab sərgisi, 2004-cü il

2004-cü ildə təşkil edilən kitab sərgisində də Harun Yəhyanın kitablarına bütün ziyarətçilər böyük maraq göstərdilər.

## Xəzər universiteti, Azərbaycan

3 noyabr 2004-cü il tarixində Xəzər universitetində Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan konfrans təşkil edildi və konfransa yüzdən çox şagird və təhsil işçisi qatıldı. Konfransa Türkiyə səfirliyi din müşaviri Mustafa Kutlu və Xəzər universitetinin təhsil işçisi Elşad Miri qatıldı. Konfransda Harun Yəhyanın "Quran möcüzələri" adlı kitabı haqqında müxtəlif məlumatlar verildi.

## Azərbaycan konfransı, 2004-cü il

23 dekabr 2004-ci il tarixində Azərbaycanda konfrans təşkil edildi. Lisey müəllimlərinin qatıldığı konfransın mövzusu "Quranda qadın" idi. Harun Yəhyanın hz. Məryəm adlı kitabından hazırlanan müxtəlif çıxışların reallaşdırıldığı konfransda yenə Harun Yəhyanın əlaqədar kitablarına əsaslanan "Quran möcüzələri" sənədli filmi göstərildi.

## Ruhaniyyət İslam universiteti, Qazaxıstan

8 dekabr 2002-ci il tarixində Qazaxıstanın paytaxtı Almatıdakı Ruhaniyyət İslam universitetində, "İslam terroru lənətləyir" və "Dünya həyatının həqiqəti" mövzusunda təqdimatlar edildi. Universitetin rektoru Murad Hacının və Tərbiyə və Psixologiya İşlər müdir köməkçisi Viktor Timoşenkonun da Harun Yəhyanın əsərləri haqqında çıxış etdiyi yığıncaq Prezidentlik Dövlət Opera və Balet Teatr Binasında reallaşdı. Digər dinlərin nümayəndələrinin və Qazax millət vəkillərinin də qatıldığı "Dinlər arası uzlaşma" başlıqlı yığıncaqdakı təqdimat böyük maraq gördü. 400 nəfərlik salona 700-dən çox insan qatıldı.

## Qazaxıstan Müdafiə Nazirliyi, təqdimat

2004-cü ilin may ayında Qazaxıstan Müdafiə Nazirliyi binasının konfrans salonunda Müdafiə Nazirinin köməkçisi general polkovnik Balyukpayevic

Tasbulatov və üst səviyyə hərbi heyətdən ibarət 400 nəfərin qatıldığı təqdimat təşkil edildi. Təqdimatda Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan "Şeytanın silahı: Romantizm" adlı sənədli film ilə Harun Yəhyanın dünya səviyyəsində əks-səda oyandıran çalışmalarını tanıdan film göstərildi.

## Qazaxıstanda reallaşdırılan təqdimatlar

2004 ildə Qazaxıstanın müxtəlif şəhərlərindəki məktəblərdə Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan təqdimatlar təşkil edildi.

## Astana ibtidai məktəbi

Bu tədqimatlardan bəziləri Astanada ibtidai məktəblərdə həyata keçirildi. 17 və 21 noyabrda edilən bu nümayişlərə şagirdlər çox böyük maraq göstərdi, müxtəlif suallarla Harun Yəhyanı və əsərlərini daha yaxından tanımağa çalışdılar. Təxminən 200 şagirdin böyük maraq ilə izlədiyi film başda məktəb müdiri Sainova Ludmila Aleksandrovna, köməkçiləri Gaan Larisa Raingoldovna və bir çox təlimçi tərəfindən də maraq ilə izlənildi. Məktəb müdiri və müəllimlərin istəklərinə görə məktəblərdə Harun Yəhya filmlərinin göstərilməsinə hər həftə davam edilir.

## Almatı liseyi

Almatıdakı 21-ci liseydə 2004-cü ilin aprel ayında reallaşdırılan təqdimat nümayişləri də şagirdlər tərəfindən maraq ilə izlənildi. Harun Yəhyanın "Kainatın yaradılışı" və "Canlılardakı fədakarlıq" adlı elmi əsərlərindən faydalanılaraq hazırlanan sənədli filmlər Qazaxıstan kimi bir çox ölkədə təqdimat nümayişləri ilə şagirdlərə göstərilir.

## Çimkənt təqdimat nümayişləri

Qazaxıstanın Çimkənt şəhərindəki müxtəlif liseylərdə də nizamlı olaraq Harun Yəhya sənədli filmləri göstərilir. Şagirdlərin tələbinə əsasən konfrans salonlarında həyata keçirilən bu sənədli film nümayişlərini təlimçi heyəti də bəyənərək izləyir.

## Qazax-Ərəb institutu

Çimkəntdəki Qazax-Ərəb institutunda 11 may 2004-cü il tarixində Harun Yəhyanın kitablarından faydalanılaraq hazırlanan "Quran möcüzələri" və "İslam terroru lənətləyir" mövzusunda sənədli filmlər göstərildi.

## Çimkənt İqtisadiyyat və Hüquq kolleci

11 may 2004-ci il tarixində Çimkənt İqtisadiyyat və Hüquq kollecində "İnsanın yaradılışı" mövzusunda sənədli filmlər göstərildi. Təxminən 400 nəfərin iştirakı ilə reallaşan nümayiş əsnasında tamaşaçılar Harun Yəhyanı və digər əsərlərini yaxından tanımaq üçün nümayəndələrə müxtəlif suallar yönəltdilər.

Nümayişlərə tamaşaçı olaraq qatılan müəllimlər isə edilən bu elmi və mədəni fəaliyyətlərin yeni respublika olan Qazaxıstanın gənc əhalisinin mənəvi inkişafında böyük pay sahibi olacağını ifadə etdilər və nümayişlərin nizamlı olaraq təkrarlanmasını arzulayırdılar.

## Yəsəvi Qazax-Türk universiteti

Qazaxıstandakı Yəsəvi Qazax-Türk universitetində 2004-cü ilin may ayında Harun Yəhyanın "Şeytanın silahı: Romantizm" adlı kitabından faydalanılaraq hazırlanan "Romantizm" mövzusunda sənədli film göstərildi.

## Darrin kolleci

Darın kollecində "Canlılarda ana şəfqəti" və uşaqlar üçün xüsusi olaraq hazırlanan "Kainatın yaradılışı" sənədli filmlər göstərildi. 2004-cü ilin iyun ayında edilən nümayişə 11-17 yaşlı şagirdlər qatıldlar.

## Çimkənt universiteti

12 may 2004-cü il tarixində Çimkənt universitetində "Quran möcüzələri" və "İslam terroru lənətləyir" adlı sənədli filmlər göstərildi. Təxminən 200 nəfərin qatıldığı nümayişdən əvvəl Harun Yəhyanın müxtəlif dillərdəki əsərlərinin nümayiş etdirildiyi stend quruldu.

## Cənubi Qazaxıstan açıq universiteti

12 may 2004-cü il tarixində Cənubi Qazaxıstan Açıq universitetində "İnsanın yaradılışı" sənədli filmi göstərildi. Allahın yaradılış dəlillərini ələ alan bu nümayişdən sonra tamaşaçılar Harun Yəhyaya və əsərlərinə olan heyranlıqlarını dilə gətirdilər.

## Çimkənt tibb fakültəsi

Çimkənt tibb fakültəsində şagirdlərə "İnsanın yaradılışı" sənədli filmi göstərildi. Tibb fakültəsinin tələbələri Harun Yəhyanın əsərlərinə və sənədli filmlərə tərif və heyranlıqlarını dilə gətirdilər. 300-ə yaxın tələbənin qatıldığı konfransdan əvvəl keçirilən sərgidə Harun Yəhyanın müxtəlif dillərdəki əsərləri çox böyük maraq gördü.

## Ekibastus təqdimatları

Qazaxıstanın Ekibastus şəhərində Qazaxıstan şəhər teatrında “Möhtəşəm canlılar”, “İslam terroru lənətləyir” və “Harun Yəhya təqdimat” filmləri göstərildi. Nümayişdən sonra Ekibastus şəhərinin yerli kanalı “Arta TV” ilə Harun Yəhya və çalışmaları haqqında reportaj edildi. Ekibastus qubernatorunun da xüsusi maraq göstərdiyi təqdimat nümayişini izləmək istəyən xalq salona axın etmişdi.

## Stepneqorsk təqdimatı

14 may 2004-cü ildə Qazaxıstanın Stepneqorsk şəhərinin kino salonunda 270 nəfərə “Mehdi və Qızıl əsr” və “İslam terroru lənətləyir” filmləri göstərildi.

## Kaskelen təqdimatı

Almatıdan 35 km uzaqlıqda olan Kaskelen mahalında 23 may 2004-cü ildə əvvəl Rus dilində “İnsanın yaradılışı” filmi göstərildi, ardından, Türkiyədən gələn və Kaskelendə məskunlaş Qazax xalqına Türk dilində “Dünya həyatının həqiqəti” sənədli filmi göstərildi. Türk dilində çox yaxşı danışan Kaskelen xalqı hər bazar günü göstərilən film nümayişlərinə böyük maraq göstərir.

## Talqat kənd məscidində sənədli film nümayişi

2004-cü ilin aprel ayında Talqat kəndinin məscidində "Mehdi və Qızıl əsr" filmi göstərildi. Bu nümayişlər hər həftə eyni məsciddə davam edir.

## Qazax-Amerikan universiteti

2 may 2004-cü il tarixində Qazax-Amerikan universitetinin kollecində Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan "Müharibələrin pərdə arxası" filmi göstərildi. Təxminən 300 nəfərin izlədiyi bu nümayişin ardından istər şagirdlərdən, istərsə müəllimlərdən gələn tələblərə əsasən təqdimatların hər həftə davam etdirilməsinə qərar verildi.

## Karaqanda təqdimat

2004-cü ilin iyun ayında Qazaxıstanın ikinci böyük şəhəri Karaqandada, Şalkıma konsert salonunda təxminən 200 nəfərin qatıldığı film təqdimatında "İslam, dünyanı aydınladan nur" və "İslam terroru lənətləyir" filmləri göstərildi. Nümayişi üst səviyyə bürokratlar, Qazaxıstan Müftisinin baş köməkçisi və şəhərin 3 böyük televiziya kanalı izlədi.

### Astana dövlət muzeyi təqdimat nümayişi, Almatı kitab sərgisi

Almatıda təşkil edilən kitab sərgisində Harun Yəhyanın əsərləri ziyarətçilərin çox böyük marağı ilə qarşılaşdı. Sərgini ziyarət edənlər arasında Qazaxıstan dövlət başçısı Nursultan Nazarbayev də var idi.

## Afrika konfransları

### Cənubi Afrika konfranslar silsiləsi, 2004-cü il sentyabr ayı

2004-cü ilin sentyabr ayında Cənubi Afrikada Harun Yəhyanın əsərlərinə əsaslanan konfranslar silsiləsi təşkil edildi. Cənubi Afrikanın bir çox şəhərində reallaşdırılan bu konfranslar ilə minlərlə insan Quran təbliği ilə görüşməyin coşğusunu yaşadı. "Təkamül nəzəriyyəsinin tənəzzülü", "İslam və elm" və "Yaradılış həqiqəti" kimi mövzularda reallaşdırılan təqdimatlarla yanaşı Harun Yəhyanın müxtəlif kitab və DVD-lərinin nümayiş etdirildiyi stendlər də hazırlandı.

Johannesburgda; Witwatersrand universiteti, Witwatersrand tibb məktəbi, Nana Memorial Hall və Beynəlxalq Dil Mərkəzində müxtəlif təqdimatlar həyata keçirildi, konfranslar təşkil edildi. Durbanda isə Orient məktəbi, Zululand universiteti, Umlazi şəhərciyi, Nizamiyyə məktəbi və Salligram/Əl-Ənsar Hallda yenə universitet tələbələri üçün konfranslar keçirildi.

İyirmidən çox konfrans və təqdimatın həyata keçirildiyi Cənubi Afrika ziyarətində Radio İslam, Radio 1584/702, İma Health Radio, Radio 786 kimi çox dinlənilən milli radio kanallarına reportajlar verildi. Sonda Harun Yəhyanın əsərləri vasitəsi ilə edilən Quran təbliği Cape Townda da böyük coşğu ilə qarşılandı.

## Qahirə kitab sərgisi, 2003-cü il yanvar ayı

Harun Yəhyanın müxtəlif dillərdəki əsərləri 23 yanvar-7 fevral tarixləri arasında təşkil edilən Qahirə kitab sərgisində nümayiş etdirildi. Müəllifin "Quran möcüzələri", "Hər yerdə ehtişam", "Təbiətdəki dizayn" kimi 20-yə yaxın əsərini ərəb dilində nəşr edən "Resalah" nəşriyyatın stendində nümayiş etdirilən kitablar xalqın böyük marağı ilə qarşılandı.

# ORTA ŞƏRQ KONFRANSLARI

## Sharjah kitab sərgisi-BAE

29 dekabr 2002-ci il-9 yanvar 2003-cü il tarixləri arasında Birləşmiş Ərəb Əmrliklərində təşkil edilən Sharjah kitab sərgisində nümayiş etdirilən Harun Yəhyanın əsərlərinə çox böyük maraq göstərildi.

Bu maraq BAE mediasına da əks olundu. Bir çox TV kanalı və qəzet Harun Yəhyanın əsərləri ilə əlaqədar xəbərlər nəşr etdi. "The Gulf News"də nəşr olunan bir xəbərdə Harun Yəhyanın kitablarının "www.harunyahya.com" saytından ödənişsiz təmin edildiyi ifadə edilirdi. Xəbərdə Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan sənədli filmlərin, dünya daxilində başda Rusiya, İngiltərə, Ukrayna və Serbiya olmaqla 200-yə yaxın televiziya kanalında nəşr olunduğu vurğulanır, Harun Yəhyanın "Terror sevgi ilə məğlub edilər" adlı kitabına da yer verilirdi.

## "Təkamül yalanı" mövzusunda "The bookmall" seminarı

20 may 2003-cü il tarixində Sharjahda Harun Yəhyanın "Təkamül yalanı" və "Yaradılış həqiqəti" mövzusunda əsərlərinə əsaslanan seminar təşkil edildi.

## "Jumeirah" İslam mərkəzi

Birləşmiş Ərəb Əmrliklərinin Dubay şəhərində Jumeirah İslam mərkəzində yeni Müsəlman olan, ya da İslamı tanımaq istəyənlər üçün müxtəlif söhbət və fəaliyyətlər təşkil edilir. Burada da Harun Yəhyanın müxtəlif sənədli filmləri izlənilir və kitabları tanıdılır.

## Dubay liseylərində təqdimat

Dubaydakı müxtəlif təhsil müəssisələrində Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan sənədli filmlər göstərilir, istər şagirdlərdən, istərsə təlimçilərdən çox böyük maraq müşahidə edilir.

Ərəb dilində hazırlanan sənədli filmlər "Al Mamzar İttihad school"da və daha bir çox məktəbdə göstərilmişdir. Təqdimat nümayişlərindən əvvəl Harun Yəhya əsərlərini tanıdan stendlər hazırlanmış və müəllifin müxtəlif kitabları da nümayiş etdirilmişdir.

## Hong Kong konfranslar silsiləsi, 2002-ci il oktyabr ayı

2002-ci ilin oktyabr ayında Hong Kongda Harun Yəhyanın əsərlərinə əsaslanan konfranslar silsiləsi həyata keçirildi. "Təkamül və yaradılış", "Quran Möcüzələri", "İslam

terroru lənətləyir", "Darvinizmin dünyaya gətirdiyi bəlalar", "Qiyamət əlamətləri" kimi mövzulardakı konfranslar Çin xalqının marağı ilə qarşılaşdı.

## Kowloon məscidindəki nümayiş

Kovlun məscidində Harun Yəhyanın əsərlərindən istifadə edilərək hazırlanmış "Qurani-Kərim möcüzələri" və "İslam terrorizmi lənətləyir" adlı təqdimatlar keçirilib.

## Çin müsəlman mədəniyyət mərkəzi sənədli film nümayişi

Çin Müsəlman Mədəniyyət Mərkəzində "Təkamül Nəzəriyyəsinin Süqutu" adlı təqdimat keçirildi. Təqdimatdan sonra keçirilən sual-cavab sessiyasında Harun Yəhya və onun əsərlərinə böyük maraq müşahidə edildi.

## Osman İslam mərkəzi təqdimat nümayişi

Osman Sadık İslam Mərkəzində "Yaradılış Həqiqəti" və "Quranın Möcüzələri" mövzularında iki ayrı təqdimat edildi.

## Shenzen konfransı, 2003-cü il yanvar ayı

Shenzendə olan İslam təşkilatında Harun Yəhyanın "Quran möcüzələri" adlı əsərinə əsasən seminar təşkil edildi. Çin dilinə tərcümə edilən bu kitab haqqında edilən danışıqlar böyük maraq gördü.

## Hong Kong konfranslar silsiləsi, 2004-cü il

Kovlun məscidində cümə xütbəsindən əvvəl Harun Yəhyanın həyatı və əsərləri haqqında təqdimatlar edildi. Mövzular "Qurani-Kərim möcüzələri" və "İslam terrorizmi qınayır" mövzuları idi.

## Çin İslam Birliyi fondu təqdimat nümayişi

Çin İslam Birliyi fonduna aid binada olan dərs salonunda Harun Yahyanın əsərlərinə əsaslanan bəzi nümayişlər edildi. "Quran möcüzələri", "İslam terroru lənətləyir", "İnsanın yaradılış möcüzəsi" və "Quranda təbliğ üsulları" mövzusunda bu təqdimatlara qatılanların əksəriyyəti Müsəlman çinlilər idi. Çıxışı böyük maraq ilə dinlədilər. Xüsusilə də "Quranda təbliğ üsulları" başlıqlı təqdimatlar tamaşaçılardan böyük maraq gördü.

## Asiya konfransları, İndoneziya konfransları, 2002-ci il sentyabr-oktyabr ayları

17 sentyabr-2 oktyabr 2002-ci il tarixləri arasında İndoneziyanın müxtəlif şəhərlərində Harun Yəhyanın əsərlərinə əsaslanaraq konfranslar silsiləsi təşkil edildi.

Muhammadiyah Solo universitetində verilən konfransın mövzusu "Darvinizmin dünyaya gətirdiyi bəlalar", Surakarta Dövlət Universitetindəki tələbə mərkəzində verilən və 1500-dən çox şəxsin iştirakı ilə həyata keçirilən konfransın mövzusu isə "Darvinizmin sonu" idi.

Bunlardan başqa İndoneziya universiteti, Cakarta konfrans mərkəzi, Wahana Bakti Pos Indonesia salonu, Sultan Agung İslam universiteti, Diponegoro universiteti, Brawijaya universiteti, Andalas universiteti, Lampung universitetinin Bandung İslam mərkəzi və bir çox təhsil təşkilatında konfranslar təşkil edildi. 15 gün davam edən konfranslara 30.000-dən çox insan iştirak etdi.

## Lampung universiteti

Lampunq Universitetinin İdman Zalında keçirilən konfransda iştirak edən təxminən 2000 nəfərlik auditoriya Harun Yəhya və onun əsərlərinə böyük maraq göstərdi. "Darvinizmin Süqutu" adlı çoxvizionlu şou Təkamül Nəzəriyyəsinin elm qarşısında məğlubiyyətini ortaya qoydu.

## Gadjah Mahda universiteti

Qadjah Mahda Universitetinin Pamunqkas zalında "Elmi tərəqqi işığında darvinizmin süqutu" adlı seminar keçirildi. Tələbələrin böyük marağına səbəb olan seminar sual-cavab bölümü ilə başa çatdı.

## Andalas universiteti

Padangdakı Andalas universitetinin Governor salonunda eyni gün iki fərqli konfrans həyata keçirildi. “Darvinizmin sonu” və “Darvinizmin dünyaya gətirdiyi bəlalar” mövzusundakı təqdimatlara şagirdlər çox böyük maraq göstərdi. İlk konfransda 1.200, ikinci konfransda isə 1.500 şəxs iştirak etdi. Təxminən 400 nəfərə isə ayaq üstə dinlədi.

## Seneyang, Angreek salonu

27 sentyabrda Cakartanın Seneyang şəhərində Harun Yəhyanın müxtəlif əsərlərinə əsaslanan təqdimat keçirildi.

"Təkamül Nəzəriyyəsinin Süqutu və Yaradılış Həqiqəti" adlı bu təqdimat İndoneziya ictimaiyyəti tərəfindən böyük maraqla qarşılandı.

## Semarang konfransları

Sultan Agung İslam universitetinin rektoru dr. H. M. Rofiq Anwarın rəhbərliyi ilə konfrans keçirildi. Konfransa 100-dən çox müəllim qatıldı. Rektor Rofiq Anwar konfransın ardından Harun Yəhyanın Quran əxlaqının dünya səviyyəsində yayılması məqsədi ilə gördüyü işləri dəstəkləyən çıxış etdi.

Həmin gün Diponegoro universitetində, yenə məktəb rektoru tərəfindən təqdimat edilən konfrans həyata keçirildi. Konfransa Tibb fakültəsindən 1000-ə qədər tələbə qatıldı. Müsəlman Birliyi, Tibb və İqtisadiyyat fakültəsi tərəfindən təşkil edilən yığıncağa çox böyük maraq göstərildi.

## Cakarta kitab sərgisi

Cakarta sərgi sarayında təşkil edilən kitab sərgisindəki mətbuat konfransında Harun Yəhyanın İndoneziya dilində nəşr edilən kitablarını tanıdan çıxışlar edildi.

Yığıncağa qatılanların əksəriyyəti İndoneziyanın əhəmiyyətli jurnal və qəzetlərin mətbuat nümayəndələri idi. Çıxışlar sual-cavab şəklində təxminən yarım saat davam edən görüş ilə davam etdi.

# İndoneziyada hayata keçirilən müxtəlif taqdimatlar

Harun Yəhyanın əsərlərini yaxından izləyən bir çox indoneziyalı alim bu əsərlərdə izah edilən mövzuları təqdimat ilə hazırladıqları müstəqil konfranslarla, müxtəlif universitet və təşkilatlarda izah edirlər. Bu konfransların bəziləri belədir:

## Gadjah Mahda kitabları

26 dekabr 2004-cü il tarixində İndoneziyanın Yogharta şəhərində Gadjah Mahda universitetində "Harun Yəhya əsərləri ilə gələcək nəsillərin imanlarının artması" başlığı altında konfrans təşkil edildi. Salmağın Al Farisi fondu tərəfindən təşkil edilən konfrans əsnasında təlimçilərin elmi mövzuları Harun Yəhya əsərləri ilə necə izah edə biləcəkləri, bu şəkildə tələbələrin Allahın varlığının dəlillərini görmələrinə necə kömək edə biləcəkləri və imansızlığın qarşısında imanın yerləşdirilməsində Harun Yəhya əsərlərinin necə təsirli ola biləcəkləri üzərində dayanıldı.

## İndoneziya konfranslar silsiləsi, 2003-cü il mart ayı

Türkiyədə və dünyanın dörd tərəfində təşkil edilən Yaradılış həqiqəti konfranslar silsiləsi 2003-cü ilin mart ayında İndoneziyanın müxtəlif şəhərlərində həyata keçirildi. 8-19 mart tarixləri arasında həyata keçirilən konfranslar həmişəki kimi İndoneziya xalqının çox böyük marağı ilə qarşılandı.

Harun Yəhya əsərlərində məqsəd Quranın təbliğini bütün dünyaya çatdırmaq və beləliklə, insanları Allahın varlığı və birliyi kimi imani mövzularda düşünməyə sövq

etməkdir. Bu səbəblə, bu qiymətli əsərlərin bütün insanlar tərəfindən asanlıqla oxunmasını təmin etmək əhəmiyyətli xidmətdir. Böyük maraq görən və çox müvəffəqiyyətli keçən İndoneziya konfranslar silsiləsinin ikincisi bu mənada əhəmiyyətli töhfə vermişdir.

## Banqladeşdaki taqdimatlar

### Dhaka kitab sərgisi, Bangladeş

Dəkkə Kitab Sərgisində Harun Yəhyanın Benqal dilinə tərcümə olunmuş müxtəlif sənədli filmləri nümayiş etdirildi. Bu sənədli filmlərdən bəziləri bunlardır:

Kainatın Yaradılışı, Təkamülün Nəzəriyyəsinin Süqutu, Hüceyrədəki Möcüzə, Quranın Möcüzələri, Maddənin Arxasındakı Sirr, Yaradılış Həqiqəti.

## Pakistan konfranslar silsiləsi

### Lahot, 2003-cü il oktyabr ayı

2003-cü ilin oktyabr ayında Pakistanda Harun Yəhyanın əsərlərindən faydalanılaraq “Təkamül nəzəriyyəsinin tənəzzülü və Yaradılış həqiqəti” mövzusunda müxtəlif konfranslar təşkil edildi. 22 oktyabr tarixində Quaid-e-Azam universitetində, 23 oktyabrda Peshawar universitetində, 24 oktyabrda Karachi universitetində, 26

oktyabrda isə King Edward Tibb fakültəsində çox sayda insanın qatıldığı konfranslar keçirildi.

18-20 oktyabr Pəncab universitetində həyata keçirilən konfranslar silsiləsində Harun Yəhyanın "İslam birliyinə çağırış" adlı kitabından faydalanılaraq hazırlanan çıxış edildi və sənədli filmlər göstərildi. Üstəlik, "Təkamül nəzəriyyəsinin tənəzzülü" mövzusunda afişa sərgisi universitetdəki bütün alim və tələbələrdən böyük maraq gördü.

## Şri Lanka konfranslar silsiləsi, 2003-cü il iyul ayı

Şri Lankanın Marawila bölgəsində 4 və 5 iyul tarixlərində Harun Yəhya əsərlərinə əsaslanılan beynəlxalq konfranslar təşkil edildi. Dünya Müsəlman Gənclər Birliyi tərəfindən təşkil edilən bu konfranslarda xüsusilə "İslam terroru lənətləyir" və "İslamı izah etmənin təsirli üsulları" mövzuları üzərində dayanıldı.

7 iyul tarixində isə Sri Lankanın paytaxtı Kolombo şəhərində, Kolombo Tibb fakültəsində, "Təkamül nəzəriyyəsinin tənəzzülü və Yaradılış həqiqəti" mövzusunda daha bir konfrans təşkil edildi. Konfranslarda Şri Lanka Qərb bölgəsi İnkişaf Naziri M. H. Mohammed, Şri Lanka İslam dini və Mədəni Əlaqələr Naziri Rauf Hakeem, Pakistan Beynəlxalq İslam universitetinin rektoru prof. Kamal Hassan da çıxış etdilər.

## Kuala Lumpur, Ricoi konfransı, Malaziya, 2001-ci il

30 sentyabr 2001-ci il tarixində Kuala Lumpurda RICOI (Research and Information Centre on Islam-İslam Araşdırmaları və Məlumat Mərkəzi) və Great İstanbul Sdn Bhd tərəfindən "Təkamül nəzəriyyəsi, Yaradılış həqiqəti, Quran möcüzələri" mövzusunda böyük konfrans təşkil edildi. Harun Yəhyanın Malay dilinə tərcümə edilən əsərlərinin də

tanıdıldığı konfransda çıxış edənlərin təqdimatları Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanmışdı.

## Kefahaman İslami təhsil mərkəzi, Malaziya, 2003-cü il oktyabr ayı

3-6 noyabr 2003-cü il tarixləri arasında Kefahaman İslam təhsil mərkəzində, "Elm inancı dəstəkləyir" mövzusunda seminarlar təşkil edildi. İndoneziya Qids təhsil mərkəzi tərəfindən təşkil edilən bu təqdimatların mövzu başlıqları belə idi: Möcüzələr zənciri, İnsanın Yaradılış Möcüzəsi, Biomimetika: Texnologiya təbiəti təqlid edir, Dünya həyatının həqiqətləri, Zamansızlıq və Tale həqiqəti, Materializmin sonu, İslamı izah etməyin təsirli metodları və Quran elmə yol göstərir.

Konfransın açılış günündə təşkilata Malaziya Qadın və Ailə naziri də qatıldı. Təqdimat filmini izləyən və qısa çıxış edən nazir müəllifin şəxsində bütün çıxış edənlərə təşəkkür etdi. Konfransdan sonra Harun Yəhyanın "Səba Media" tərəfindən Malay dilində nəşr edilən kitabları hədiyyə edildi.

## Malaziya konfranslar silsiləsi, 2004-cü il aprel ayı

2004-cü ilin aprel ayında ölkəmizdən minlərlə kilometr uzaqdakı Malayziyada yaşayan müsəlmanlar üçün Harun Yəhyanın əsərlərinə əsaslanılan konfranslar təşkil edildi. Malayziyanın fərqli şəhərlərində təşkil edilən 25-ə yaxın konfrans böyük maraq ilə izləndi.

## Malaziya beynəlxalq kitab sərgisi, 2004-cü il may ayı

Malayziyada 2004-cü ilin may ayında təşkil edilən kitab sərgisində Harun Yəhyanın müxtəlif dillərdəki əsərləri və sənədli filmləri xalqa təqdim edildi və ziyarətçilərin böyük marağı ilə qarşılaşdı.

## "Yaradıcımızın dəlilləri" seminarı, Malaziya, 2002-ci il oktyabr ayı

4 oktyabr 2002-ci il tarixində Harun Yəhya kitablarının Malayziyadakı nəşriyyat evi olan "Seba Islamic Media" tərəfindən beynəlxalq səviyyədə, "Yaradıcımızın dəlilləri" adlı seminar təşkil etdi. Seminardan əvvəl stend qurularaq Harun Yəhya kitabları nümayiş etdirildi.

"Seba Islamic Media" 2002-ci ildə başlatdığı kampaniya ilə 1 il içində 1 milyon insana Harun Yəhya əsərlərini çatdırma kampaniyası başlatdı. Bu çərçivədə konfranslar, seminarlar təşkil etdi. Konfranslar Seba Media və Think Plus Məsləhətçilik şirkəti tərəfindən təşkil edildi. Kuala Lumpur, Malacca, Kuantan, Kuala Terengganu, Kota Baru, Penang, Kuching, Kota Kinabalu, Johor Baruda təşkil edilən konfranslarda Harun Yəhyanın əsərlərinin əhəmiyyəti üzərində dayanıldı.

## Avstraliya konfransı, 2005-ci il

2004-cü ilin son günlərində Avstraliyada müxtəlif konfranslar təşkil edildi. Harun Yəhyanın nümayəndələri Sidney və Melburnda əhəmiyyətli konfranslara qatıldılar. Xüsusilə də, 26 dekabr 2004-2 yanvar 2005-ci il tarixləri arasında həyata keçirilən “Allahın varlığı: Allahın varlığının elmi və mənəvi dəlilləri” mövzusunda konfrans daxilində həyata keçirilən təqdimatlar xalqın böyük marağı ilə izləndi.

# XARİCDƏKİ KİTAB EVLƏRİ

Harun Yəhyanın xarici dillərə tərcümə edilmiş kitabları xaricdəki kitabçılarda da satışa çıxarılır. Növbəti səhifələrdə bu kitabçılardan bəzilərinin adları da yer alır.

## Albaniya

Albaniyadakı "DİTA" nəşriyyatında satışa çıxarılan Harun Yəhya kitabları

Albaniyadakı "Muslim" kitab evindən görüntülər

## Avstraliya

Avstraliyadakı "Andalus" kitab evindən görüntülər

Avstraliyadakı "Islamic Bookstore" adlı kitab evi

## Birləşmiş Ərəb Əmirlikləri

"Magrudy" kitab evində Harun Yəhya kitablarının olduğu stend

Dubay hava limanında satışa çıxarılan Harun Yəhya kitabları

## Canubi Afrika Respublikası

"Əl Ənsar" kitab evi və burda satışa çıxarılan Harun Yəhya kitabları

## Malayziya

"Səba" kitab evi Harun Yəhya kitabları satışa verilir. Bunlar arasında uşaq kitabları da var.

"Səba" kitab evindən fərqli görüntülər.

Malayziya aeroport kitab mağazasındakı Harun Yəhya kitabları

## Fransa

“Essalam” kitab evi Harun Yəhya kitablarının satıldığı kitabçılardan biridir.

Fransada Harun Yəhya kitablarının satıldığı bir başqa kitab evi Sana kitab evidir.

## İndoneziya

Harun Yəhya kitabları “Senayan Abadi” kitabı evində satışa təqdim edilir.

İndoneziyada Harun Yəhya kitablarının olduğu bir kitab evi də “Dzikra” kitab evidir.

# MƏQALƏLƏR

## ABŞ - Al Manassah

15 gündə bir ingilis-ərəb dilində nəşr olunan 20.000 tirajlı Al Manassah adlı qəzetdə Harun Yəhyanın məqalələri nəşr olunur. Amerika və Orta Şərqdə satılan bu qəzetdə bir səhifə Harun Yəhyanın məqalələrinə yer verilir.

## ABŞ - The Message International

Amerikanın qabaqcıl İslam təşkilatlarından biri olan Şimali Amerika İslam cəmiyyətinin (ICNA) aylıq xəbər jurnalı "The Message Internationalda" Harun Yəhyanın müxtəlif məqalələri nizamlı olaraq nəşr olunur. Amerika və Kanadada cəmi 25.000 tirajla nəşr olunan bu jurnalda Harun Yəhyanın siyasi mövzulardakı yazıları nəşr olunur. Jurnalın, www.messageonline.org adlı saytında da məqalələr yer alır.

## Hindistan - "The Milli Gazette"

Hindistanın ingilis dilində ən böyük İslami qəzetlərindən biri olan "The Milli Gazette"də Harun Yəhyanın məqalələri ilə yanaşı kitablarının elanları da nəşr olunur. Qəzetin 16-30 aprel 2003-cü il tarixli nüsxəsində nəşr olunan "İraq müharibəsinin pərdə arxası" başlıqlı məqaləsində Harun Yəhya İraqda yaşanan müharibənin əsl səbəblərini

araşdırır və dünya sülhü üçün "İslam Birliyi"nin bir tezliklə yaradılmalı olduğuna diqqət çəkir:

"Bunlarla yanaşı, Qərb ilə İslam dünyası arasındakı bütün problemlərə həll gətirə biləcək, İslam dünyasının mövcud vəziyyətə çarə ola biləcək daha köklü bir həll isə, bütün İslam dünyasını dəyişdirə biləcək layihədə gizlidir: İslam Birliyi... Son hadisələr yalnız İslam coğrafiyasının deyil, bütün dünyanın "İslam Birliyi"nə ehtiyacı olduğunu göstərmişdir."

## İngiltərə - "The Message"

İngiltərədə nəşr olunan "The Message" jurnalı Harun Yəhyanın Quran möcüzələri, təkamül nəzəriyyəsinin tənəzzülü, kainatdakı yaradılış dəlilləri kimi mövzulardakı məqalələrinə geniş yer verir.

## Kanada - "The Ambition"

Kanadada nəşr olunan aylıq İslam qəzet "The Ambition" 2002-ci ildən bu günə kimi Harun Yəhyanın məqalələrini nəşr edir. Qəzetin 2004-cü il oktyabr ayı sayında Harun Yəhyanın "Təbiətin sizə düşündürdükləri" başlıqlı məqaləsi birinci səhifədə nəşr olunmuşdur. Müəllif bu məqaləsində bir saman çöpündən çobanyastığına, quşlardan qarışqalara qədər hər şeyin dərin düşünməyi tələb edən detallarla dolu yaradıldıqlarını ifadə etmişdir. Üstəlik, Harun Yəhyanın kitab təqdimatlarını ehtiva edən elanlar da bu qəzetdə yer almağa davam edir.

Kanadada nəşr olunan və Müsəlman ictimaiyyət ilə birgə qeyri müsəlmanlar tərəfindən də izlənilən aylıq "The Ambition" qəzetində Harun Yəhyanın bir çox

məqaləsinə yer verilmişdir. Oxucular qəzetə göndərdikləri mesajlarda Harun Yəhyanın məqalələrini maraqla oxuduqlarını və çox məlumat sahibi olduqlarını ifadə etmişdilər.

## Nigeriya - “Objetive Lens”

Nigeriyada “Müsəlman Tələbələr Elmi Birliyi”nin nəşri olan bu jurnalın ilk sayında qapaq mövzusu olaraq Harun Yəhyanın “İslam və Elm: Bilməli olduğunuz həqiqətlər” adlı silsilə yazı yer almışdır. Bu silsilə yazıda Harun Yəhya İslam əxlaqının tarixdə və müasir dövrdə elmə liderlik etdiyini dəlilləri ilə ortaya qoyur.

## Yəmən - “Yəmən Observer”

Yəmənin qabaqcıl həftəlik İngiliscə qəzeti “Yemən Observer” 2003-cü ilin Ramazan ayında Harun Yəhyanın məqalələrindən ibarət olan bir səhifə Ramazan səhifələri nəşr etmişdir. Üstəlik, digər zamanlarda da Harun Yəhyanın məqalələri bu qəzetdə nizamlı şəkildə yer alır.

Harun Yəhyanın “Yemən Observer” qəzetində nəşr olunan yazıları xalqdan böyük maraq görür.

## Kanada - “The Miracle”

Kanadanın çox tirajlı həftəlik qəzeti olan “The Miracle”da uzun müddətdir Harun Yəhyanın məqalələri tam səhifə olaraq yer alır. ABŞ və Kanadada satılan bu qəzetin sahibi

müəllifə yazdığı bir mesajında Harun Yəhyanın məqalələrinin Kanadada çox maraq gördüyünü ifadə etmişdir. Üstəlik, köşklərə gedəndə Harun Yəhyanın çox yaxşı tanındığına, tərif dolu sözlərlə xatırlandığına şahid olduğunu yazmış və "Sizin yazılarınız çox stabildir və bunu bacarmaq çətindir. Harun Yəhya kanadalı müsəlmanlar arasında çox tanınır, çox təqdir edilir. Ondan çox hörmətlə bəhs edilir və yazıları çox oxunur" sözləri ilə müəllifə olan hörmətini bildirmişdir.

Bir oxucu isə Harun Yəhyanın "The Miracle"da yazmasının bu qəzetin təqdir edilməsinə böyük töhfə verdiyini bildirmişdir.

Qəzetə göndərilən bir başqa mesajda da Harun Yəhyanın məqalələrini internetdən də izləmək istəyən bir oxucu bunları yazmışdır:

**"Bəzən qəzetinizi ala bilməyəndə internetdən oxuyuram. Harun Yəhyanın çalışmalarını yaxından izləyirəm və yazılarından çox faydalanıram."** (Mahmoud Malik)

"Dünyanı ayağa qaldıran film və hz. İsa" başlıqlı 5 hissə nəşr olunan məqaləsində Harun Yəhya hz. İsanın həyatını Quran ayələri ilə Tövrat və İncildən istinadlar göstərərək araşdırmışdır. Bu silsilə yazıda hz. İsanın Allahın peyğəmbəri olduğu, öldürülmədiyi, Allah Qatına yüksəldildiyi və yenidən yer üzünə gələcəyi izah edilir.

## Amerika - "The Arab World Newspaper

Kaliforniyada ingilis və ərəb dillərində nəşr olunan və ABŞ-ın digər böyük əyalətlərində də oxunan "The Arab World" qəzetində Harun Yəhyanın imani, elmi və siyasi məzmunlu məqalələri nəşr olunur. 30 min tirajlı bu əhəmiyyətli qəzetdə yer alan siyasi məqalələrdə İslam dünyasının qarşı-qarşıya olduğu problemlər və bu problemlərin həlləri ələ alınır.

## İndoneziya - “MQ Tabloid & Journal”

İndoneziyanın qabaqcıl fondlarından Daarut Tauhiib tərəfindən nəşr olunan 15 min tirajlı “MQ Tabloid” adlı jurnalda 4 ildir Harun Yəhyanın İndoneziya dilində məqalələri nəşr olunur. Məqalələrlə yanaşı müəllifin həyatı və əsərləri haqqında da yazılar nəşr olunmuşdur. 2002-ci ilin iyul ayında da yazıçı ilə edilən reportaja yer verilmişdir.

## Sinqapur - “The Muslims” Digest

Sinqapurda İngilis dilində olaraq nəşr olunan “The Muslims' Digest” jurnalında bu günə qədər Harun Yəhyanın elmi və imani bir çox məqaləsi yer almışdır. Bunlardan bir neçə başlıq belədir:

- Avqust 2000, “Sudakı dizayn”
- Sentyabr 1999, “Elm adamları Allahın varlığını təsdiq edir”
- Avqust 1999, “Məhv olan şəhərlər”
- May 1999, “Pompey faciəsi”

## ABŞ - “The Muslim Observer”

Amerikanın ən məşhur həftəlik İslam xəbər qəzetlərindən biri olan “The Muslim Observer”də yazarın onlarla məqaləsi nəşr olunmuşdur. Harun Yəhya 2001-ci ildən bu günə kimi qəzetin “Şərh” səhifəsində yer alan elmi məqalələr ilə yanaşı İslam dünyasını

yaxından maraqlandıran aktual mövzulardakı fikirlərini ortaya qoyan yazıları ilə də Amerikadakı Müsəlman oxucularına səslənir.

## Şimali Amerika - "Urdu Times"

Şimali Amerikanın ən böyük Urdu-İngilis dillərində qəzetlərdən biri olan "Urdu Times"da Harun Yəhyanın məqalələri həm Urduca, həm də İngiliscə nəşr olunur. 50 mindən çox tirajı olan bu qəzet Harun Yəhya ilə edilən bir reportajı nəşr etməsi ilə yanaşı Ramazan ayında Harun Yəhyanın məqalələrindən ibarət olan Ramazan səhifələrinə yer vermişdir.

## Almaniya – Kaaba

Alman universitet gəncliyi tərəfindən izlənilən "Kaaba" jurnalı uzun müddətdir Harun Yəhyanın məqalələrini nəşr edir. Müəllifin "Təkamül nəzəriyyəsinin tənəzzülü, Yaradılış dəlilləri" mövzusunda məqalələri oxuculardan çox müsbət reaksiya almışdır. Məqalələr ilə yanaşı Harun Yəhyanın kitab, kaset, CD və internet saytı təqdimatları da bu jurnalda yer verilmişdir.

## İngiltərə - "Discourse"

Harun Yəhyanın məqalələrinə uzun müddətdir səhifələrində yer verən İngilis "Discourse" jurnalı 4 noyabr 2000-ci il tarixində nəşr olunan sayında Harun Yəhyanın "Əsla anlamazlıqdan gəlməyin" adlı əsəri haqqında bu açıqlamanı etmişdir:

"...Müəllifin digər kitablarında olduğu kimi bu əsərində də imani mövzular Quran ayələri ilə araşdırılmış və insanlar Allahın ayələrinə görə yaşamağa dəvət ediliblər. Bu kitab həm qrup çalışmaları, həm də fərdi təfəkkürə yönəlmişdir."

## İngiltərə - "Daily Jang"

İngiltərənin ən böyük gündəlik qəzetlərindən biri olan "Daily Jangın" Urdu-İngilis dillərində nəşr olunan London nəşrində Harun Yəhyanın məqalələri bu günə qədər həm İngiliscə, həm də Urduca dəfələrlə nəşr olunmuşdur. Ramazan aylarında isə hər gün müəllifin məqalələrinə yer verilmişdir.

## Amerika- "Al Jumuah Magazine"

Amerikada 15 min tirajla nəşr olunan və başda ABŞ olmaqla Kanada, Avropa, Afrika və Orta Şərq ölkələrində oxunan "Al Jumuah Magazine" adlı jurnalda Harun Yəhyanın elmi və imani məzmunlu məqalələri, "Elm imanı dəstəkləyir" adlı köşədə hər ay nizamlı şəkildə nəşr olunur. 2004-cü il ərzində jurnal oxucularından gələn tələblər üzərinə müəllifin əsasən insanın yaradılışı və kainat haqqındakı məqalələrinə yer verilmişdir.

Harun Yəhyanın "Hüceyrədəki əlaqə", "Hormondakı möcüzə", "Müdafiə sistemindəki möcüzə", "DNT: Həyatın məlumat bankı", "Canlanan atomlar", "Qüsursuz uçuş maşını: Quşlar", "Canlılardakı məlumat və Materializmin tənəzzülü", "Atmosferdəki möcüzə" kimi daha bir çox məqaləsi "Al Jumuah" jurnalında nəşr olunmuşdur.

## Bəhreyn - "Bahrain Tribune"

Bəhreynin qabaqcıl qəzetlərindən biri olan "Bahrain Tribune"də uzun illərdir Harun Yəhyanın məqalələri nəşr olunur. Amerika, Avropa, Avstraliya və Orta Şərq ölkələrində satılan bu qəzetdə, Ramazan aylarında hər gün, digər aylarda da həftədə bir olmaq üzrə Harun Yəhyanın məqalələri nəşr olunur.

Müəllifin "Bahrain Tribune"də yer alan məqalələrindən bəzi nümunələr bunlardır:

"Vicdanı gücləndirmək", 20 noyabr 2002-ci il

"Allah rizası üçün ən çox səyi göstərmək", 22 noyabr 2002-ci il

"İman edənlər gözəl həyat yaşayarlar", 23 noyabr 2002-ci il

"Möminlərin gücü səmimiyyətlərindən qaynaqlanar", 19 noyabr 2003-cü il

"Qiyamət əlamətləri: Sosial çöküntü", 25 iyun 2004-cü il

## Səudiyyə Ərəbistan - Al-Daawah

Səudiyyə Ərəbistanda nəşr olunub Kanada, Amerika, Orta Şərq və Avropa ölkələrində satılan aylıq elmi Ao-Daawah jurnalında bu günə qədər Harun Yəhyanın

onlarla məqaləsi nəşr olunmuşdur. 11 ildir nəşr olunan bu jurnalda Harun Yəhyanın elmi, imani və siyasi məqalələri ilə yanaşı müsahibələri də yer almışdır.

"Allaha dəvətdə internetin əhəmiyyəti" başlıqlı reportajda Harun Yəhya internet istifadəsinin həqiqi İslam əxlaqının tanınmasına vəsilə olduğunu bu sözləri ilə ifadə etmişdir:

"Bu gün Qərb dünyasında İslama qarşı maraq artır. İslam əxlaqının hər kəsə doğru və şüurlu şəkildə çatdırılması, bu marağı artıracaq və insanların əsl İslamı tanımalarına vəsilə olacaq... İnternet texnologiyasının İslam əxlaqının yayılması məqsədi ilə daha təsirli şəkildə istifadə edilməli olduğuna inanıram."

Jurnalda yer alan digər bəzi məqalələrin başlıqları belədir:

"Kainatın yaradılışı", may 2002-ci il

"Elm adamları Allahın varlığını təsdiq edir", iyun 2002-ci il

"Allahın açıq-aşkar varlığı", oktyabr 2002-ci il

"İsraillilərə çağırış", yanvar 2003-cü il

"Ölümdən alınacaq dərs", may 2003-cü il

"Allah kainatı yoxdan var etmişdir", sentyabr 2003-cü il

Harun Yəhyanın jurnalda yer alan elmi məqalələri, oxucunun üfüqünü açmağı və ona Allahın yaratma sənətinin mükəmməlliyini göstərməyi hədəfləyir.

Jurnalın 2004-cü il sentyabr ayı sayında üz qabığında verilən "Gözdəki möcüzələr" başlıqlı məqaləsində Harun Yəhya bu sətirləri yazmışdır:

"Təkamülçülər tərəfindən qarşıya qoyulan "təsadüf" şərhini ələ alaq:

Daha əvvəl gözü olmayan bir canlıda təsadüf nəticəsində göz necə yarana bilər? Kəllə sümüyündə gözə tam uyğun ölçüdə iki göz çuxuru təsadüfən var ola bilərmi? İşığı qəbul edib, gözün arxa divarına əks etdirən iki linza təsadüf nəticəsində meydana gəliblər? Gözlərin hərəkətini təmin edən göz əzələləri öz özünə var olublar? Gözləri beyinə bağlayan sinirlər qəfildən öz-özünə ortaya çıxıblar?

Bunlarla yanaşı gözlərin qurumasına mane olan gözyaşı vəzləri də təsadüfən ortaya çıxıblar? Gözləri toz və digər xarici maddələrdən qoruyan qaş və kirpiklər təsadüf nəticəsində var olublar?

Bütün bu suallara veriləcək qəti cavab "xeyr"dir. Hətta Darvinin özü belə bu həqiqəti etiraf etmişdir."

## Pakistan - "Motherhood" jurnalı

Pakistanda İngilis dilində nəşr olunan "Motherhood" jurnalı nəşr həyatı boyunca Harun Yəhyanın məqalələrini nizamlı olaraq nəşr etmişdir. Harun Yəhyanın "Dünya həyatının həqiqəti", "Qövmlərin həlakı", "Kainatın yaradılışı" kimi ən çox oxunan əsərlərinin təqdimatları da bu jurnalda yer alır.

Oxuculardan gələn istəyə əsasən jurnalın redaktoru Harun Yəhyaya göndərdiyi bir məktubunda, qane edici məlumatlar ehtiva edən məqalələrin jurnallarında nəşr olunmasından duyduğu məmnuniyyəti bu sözlərlə dilə gətirmişdir:

**"Hörmətli Harun Yəhya,**

**Möhtəşəm məlumat təcrübənizi oxucularımızla paylaşdığınız üçün sizə ən dərin təşəkkürlərimizi təqdim edirik. Biz "Motherhood" olaraq sizdən aydınladan çalışmalarınızın davamını gözləyirik."**

Hörmətlərimizlə, Saadia Haseeb, redaktor

## Nigeriya - "Weekly Trust newspaper"

Nigeriyada nəşr olunan "Weekly Trust" adlı həftəlik qəzet Harun Yəhyanın ən əhəmiyyətli əsərlərindən biri olan və hələ də ən çox satılan kitabları arasında yer alan "Təkamül yalanı" silsilə şəklində nəşr etmişdir.

## Guyana - "The Muslim journal"

Guyana Gənc Müsəlmanlar Birliyinin nəşri olan "The Muslim Journal" jurnalının 2001-ci il oktyabr-noyabr sayında Harun Yəhyanın "Üstünlük soya görə deyil, təqvaya görədir" başlıqlı məqaləsi nəşr olunmuşdur.

## Pakistan - "Albalagh International"

Pakistan Quruçu İslam Universitetinin nəşri olan "Albalagh International" jurnalı 1999-cu il avqust ayından etibarən nizamlı olaraq Harun Yəhyanın məqalələrinə yer verilir. Bu məqalələrdən bəzi başlıqlar belədir:

"Kainatın genişlənməsi", mart 2000-ci il

"Yağış haqqında", aprel 2000-ci il

"Keçmiş mədəniyyətlər", iyun 2000-ci il

"Səmimi əməllər", avqust 2000-ci il

"Dərin düşünmək", sentyabr 2000-ci il

"Bədənimizdəki mexanizm", fevral 2001-ci il

"Din əxlaqının yaşanmadığı cəmiyyətlərdəki pozulma", aprel 2002

"Albalagh International" jurnalının redaktoru və eyni zamanda Pakistan Din İşləri Naziri Muhammad Vali Raazi Harun Yəhyaya yazdığı bir mesajında müəllifə etdiyi təriflərini bu sözlərlə dilə gətirmişdir:

**"Harun Yəhyanın məqalələrini hər ay nizamlı şəkildə nəşr edirəm... Xahiş edirəm, təriflərimi və səmimi diləklərimi Harun Yəhya qardaşıma çatdırın. Bir müddət əvvəl beynəlxalq seminarda onun çalışmaları haqqında çıxış etdim. Materializm yalanının ortaya çıxarılmasındakı töhfələrindən bəhs etdim. Yazılarınızdan daha çox göndərə bilsəniz, çox minnətdar olaram. Bütün yazıları böyük məmnuniyyətlə nəşr olunacaq."**

## Yəmən - "Althaqafiah"

Yəməndə ərəb dilində nəşr edən "Althaqafiah" qəzetində Harun Yəhya ilə edilən müsahibə nəşr olunmuşdur. Üstəlik, bəzən Harun Yəhyanın Ərəb dilində məqalələri də bu qəzetdə nəşr olunur.

## Azərbaycan - "Khazar view"

Xəzər universitetinin 1995-ci ildən bəri iki ayda bir Azərbaycan, İngilis və Rus dillərində olmaqla üç dildə nəşr etdiyi aylıq akademik jurnalda Harun Yəhyanın "Təkamül yalanı" adlı kitabı silsilə şəklində nəşr olunmuşdur.

## Birləşmiş Ərəb Əmirlikləri- “Arabia magazine”

Körfəz ölkələrinə satılan və Malayalam dilində nəşr olunan Birləşmiş Ərəb Əmrlikləri jurnalı “El-Arabiya Magazine”də Harun Yəhyanın müxtəlif məqalələri nəşr olunmuşdur.

## Sinqapur - “The Muslim reader”

Sinqapurda İslamı qəbul edənlər birliyi tərəfindən nəşr edilən mövsümlük jurnalda Harun Yəhyanın “İraq müharibəsinin pərdə arxası” adlı məqaləsinə yer verilmişdir.

## Səudiyyə Ərəbistanı - “Muslim Youth”

1975-ci ildə qurulan Səudiyyə Ərəbistanının ən böyük İslam fondlarından Dünya Müsəlman Gənclər Birliyinin nəşri olan “Muslim Youth”un 2003-cü il oktyabr ayı sayında Harun Yəhyanın “Heyvanlarda köç və istiqamət tapma” başlıqlı məqaləsi nəşr olunmuşdur.

## Tailand - “Islam santichon educational magazine”

Tailandda “Santichon” fondunun aylıq nəşri olan jurnalda 2003-cü ildən etibarən Harun Yəhyanın məqalələrinə nizamlı şəkildə yer verilir. Jurnalın yanda görülən, 2003-

cü il sentyabr ayı sayında da Harun Yəhyanın bütün əsərlərinin yer aldığı www.harunyahya.com saytının təqdimatı edilmişdir. Jurnalda yer alan bəzi məqalələr bunlardır:

“İslam müasir elmin qaynağıdır”, iyun 2003-cü il

“Uşaqlar Darvin yalan danışdı”, oktyabr 2003-cü il

“Təbiətdəki dizayn”, sentyabr 2003-cü il

## Azərbaycan - “Palitra”

Azərbaycanda nəşr olunan “Palitra” adlı qəzetdə 2002-ci ildən etibarən nizamlı olaraq Harun Yəhyanın məqalələri nəşr olunur. Bu qəzet yenə 18-19 sentyabr 2002-cü il tarixində Harun Yəhya ilə etdiyi müsahibəsini tam səhifə nəşr etmişdir. “Həyatını İslama həsr edən” başlıqlı bu reportajda Harun Yəhya uşaqlığından etibarən din əxlaqına yönəlişini və kitablarını izah etmişdir.

Harun Yəhyanın “Palitra” qəzetində nəşr olunan müsahibəsindən bəzi hissələr belədir:

**“Uşaqlıqdan bəri insanlara Allahın varlığını, Quranda bildirilən əxlaqın və axirət həyatının izah edilməli olduğunu düşünərdim. Bu səbəblə İslam tarixini, Peyğəmbərimiz (s.ə.v)-in həyatını və sünnəsini öyrəndim, böyük İslam alimlərinin qiymətli əsərlərini böyük diqqətlə oxudum və bildiklərimi insanlara izah etməyə başladım.**

**Həbs həyatı da başımıza gələn hər şey kimi Allahın yaratdığı bir imtahandır və çox böyük zövqdür, gözəllikdir.**

**Heç kimin Allahın idarəsi xaricində hər hansı bir insana zərər verməsi mümkün deyil. Bu səbəbdən insanı həbsə qoyan da oradan çıxaran da Allahdır.**

Mən darvinizmin böyük yalan olduğunu insanlara izah etmənin hər Müsəlmanın üzərinə düşən böyük vəzifə olduğuna inanıram.

Mənim Darvinizm ilə fikri mübarizəm də Allahın istəyi və ilhamı ilə mümkün olmuşdur. Bu səbəbdən, dünyada dinsizliyin ortadan qalxması və yerinə Quran əxlaqının hakim olması üçün ilk mərhələdə dinsizliyin fikri təməlinin ortadan qaldırılmalı olduğunu düşünürəm. Bunu mənə Allah göstərdi, ilham etdi... İyirmi ilə yaxın zamandır davam edən fikri mübarizəmiz sayəsində çox gözəl nəticələr əldə etdik... İnsanlar bu azğın ideologiyaların çökməsi ilə yanaşı Allaha və haqq din əxlaqına yönəlməyə başladılar. Bu çox böyük tarixi hadisədir.

Pislərin və pisliklərin fikirlə yox edilməsi və pislərin qurduqları ittifaqların dağılması üçün inananların birləşməsi əhəmiyyətlidir. Unutmamaq lazımdır ki, İslam əxlaqının yayılması üçün səy göstərənlərin ən böyük köməkçisi və dəstəkçisi Uca Allahdır. Bu səylərinin qarşılığını Müsəlmanlar Allah Qatında artırılmış olaraq alacaqlar. Səmimi olan insanlara Allah dünyada da çox gözəl, dinc və rahat həyat yaşadar."

## Hindistan – "Islamic Voice"

"Islamic Voice" Hindistanda aylıq nəşr olunan jurnaldır. Bu jurnalın 2000-ci il sentyabr ayı tarixli sayının "Quran və Elm" hissəsində "Lut göləndəki açıq-aşkar dəlillər" başlığı altında Harun Yəhya məqaləsi nəşr olunmuşdur. Bu məqalədə Lut qövmünün necə həlak olduğu arxeoloji dəlilləri ilə birlikdə araşdırılmışdır. 2001-ci il iyul ayı sayında yenə Harun Yəhyanın "Gözdəki möcüzə" başlıqlı məqaləsinə yer verilmişdir. Jurnalda müəllifin məqalələri nizamlı olaraq nəşr olunmağa davam edir.

# İngiltərə - "Impact International"

"Impact International" Amerika, İngiltərə, Kanada, Almaniya, Küveyt, Pakistan, Hindistan, Mauritus və Şri Lanka başda olmaqla cəmi 18 ölkədə nəşr olunan müstəqil jurnaldır. 100 mindən çox oxucusu olan jurnal 2001-ci il may ayı tarixli sayında Harun Yəhyanın "Kosova-Serbiya-Makedoniya üçbucağı" başlıqlı məqaləsini nəşr etmişdir. Bu məqalədə Balkanlarda yaşanan son hadisələr analiz edilir.

Harun Yəhyanın bu jurnalın 2000-ci il avqust ayı tarixli sayında nəşr olunan "Ortaq maddə dizayn və Yaradılış" başlıqlı məqaləsində isə Genom Layihəsi mövzusunda yaşanan son hadisələrə yer verilmişdir. Yazıda bu əhəmiyyətli hissələr yer alır:

"Bilindiyi kimi, mövcud günlərdə İnsan Genomu layihəsi çərçivəsində insanlığın gen xəritəsinin çıxarılması əhəmiyyətli elmi hadisə olmuşdur. Ancaq bu layihənin bəzi nəticələri kimi təkamülçü nəşrlər tərəfindən təhrif edilir. Şimpanzelərin genlərinin insan genləri ilə 98% bənzədiyi iddia edilir və bunun meymunların insana yaxın olduğunun və dolayısilə təkamül nəzəriyyəsinin dəlili olduğu irəli sürülür. Həqiqətdə isə bu, təkamülçülərin, cəmiyyətin bu mövzudakı məlumatsızlığından faydalanaraq ortaya atdıqları "saxta" dəlildir... Əvvəlcə ifadə etmək lazımdır ki, təkamülçülərin insan və şimpanze DNT-ləri haqqında tez-tez iddia etdikləri 98% bənzərlik anlayışı yanlışdır. İnsanla şimpanzenin genetik quruluşunun 98% bir-birinə bənzər olduğunu iddia etmək üçün müasir insanınkı kimi şimpanzenin də genetik xəritəsinin çıxarılmalı, ikisinin müqayisə edilməli və bu müqayisə etmə nəticəsindən sonra ortaya atılmalıdır. Halbuki, əldə belə nəticə yoxdur. Çünki indiyə qədər yalnız insanın genetik xəritəsi çıxardılmışdır. Şimpanze üçün isə hələ belə çalışma edilməmişdir. Həqiqətdə isə, bəzən gündəmə gələn insan və meymun genlərinin 98% bənzərliyi illər əvvəl qəsdən çıxarılmış təbliğat məqsədli şüardır."

## Tatarıstan – "Novosti"

Rusiya Federasiyasında yaşayan tatarları siyasi və mədəni sahədəki əhəmiyyətli hadisələrdən xəbərdar etməyə çalışan, aylıq nəşr olunan "Novosti" jurnalıdır. Jurnal 1993-cü ildə nəşr həyatına başlamışdır və uzun müddətdir Harun Yəhyanın məqalələrini nizamlı olaraq nəşr edir. Harun Yəhyanın bu jurnalda yer alan məqalələri ümumiyyətlə, təkamül nəzəriyyəsinin yanılmalarını, Darvinizmin ən təməl iddialarının çökmüş olduğunu, kainatdakı yaradılış dəlillərini və İslamın inanc əsaslarını ələ alır.

## Qazaxıstan – "Dil"

Qazax dilində nəşr olunan "Dil" qəzeti həftəlik nəşr olur. Qəzetin 3 may 2002-ci il tarixli sayında Harun Yəhyanın "Nuh tufanı" mövzulu yazısında Nuh peyğəmbərin hekayəsinin Quranda nə şəkildə izah edildiyi ələ alınmışdır.

## Rusiya – "Türk dünyası"

Rus dilində nəşr olunan "Türk dünyası" aylıq jurnaldır. Jurnalın məqsədi Rusiyada yaşayan türkləri Türk dünyasındakı hadisələrdən və Rusiyada reallaşdırılan İslami fəaliyyətlərdən xəbərdar etməkdir. Harun Yəhya jurnalın davamlı yazıçılarından biridir və jurnalda Rus dilində məqalələri yer alır. Jurnalda nəşr olunan bir çox yazısından bəzilərinin başlıqları belədir: "İslam terroru lənətləyir", "Qövmlərin həlakı", "Təkamül nəzəriyyəsinin tənəzzülü"...

## Qazaxıstan – “Juldız”

Harun Yəhyanın məqalələrinin Qazax dilində nəşr olunduğu digər jurnal da Qazaxıstanın ən böyük jurnallarından biri olan “Juldiz”dir. 2002-ci il fevral ayı tarixində jurnalda nəşr olunan məqalənin mövzusu hz. İbrahimin həyatıdır. Məqalədə bu məlumatlara yer verilir:

“Hz. İbrahim, Quranda çox adı çəkilən və Allahın bütün insanlığa nümunə göstərdiyi mübarək insandır. Bütlərə tapınan xalqını Allaha ibadət etməyə çağırmış və Allahdan qorxub çəkinmələri üçün onları xəbərdar edib qorxutmuşdur. Buna baxmayaraq, xalqı onun xəbərdarlıqlarını dinləməmiş və hz. İbrahimə baş qaldırmışdır. Xalqının təzyiqi artdığı zaman hz. İbrahim, həyat yoldaşı, hz. Lut və ona inanan az sayda insan ilə birlikdə başqa torpaqlara hicrət etmişdir.”

## Bosniya-Herseqovina- “Preporod”

Bosniya-Herseqovina Diyanət Nazirliyinin nəşri olan “Preporod”da Harun Yəhyanın “Təkamül nəzəriyyəsinin tənəzzülü” adlı kitabı Bosniya dilində silsilə şəklində nəşr olunmuşdur.

## Malaziya - “Seruan magazine”

Malayziyada nəşr olunan “Seruan Magazine” jurnalının 2004-cü il aprel ayı sayında Harun Yəhyanın “Quranın elmi möcüzələri: İnsanın doğumu” başlıqlı məqaləsini qapaq mövzusu etmişdir. Harun Yəhyanın yazıları jurnalda nizamlı olaraq nəşr olunur.

Müəllif jurnalın 2004-cü il fevral ayı sayında bu sözlərlə oxuculara tanıdılmışdır:

“200-dən çox kitabı 37 fərqli dildə nəşr olunan Harun Yəhya siyasi, dini və elmi mövzularda əhəmiyyətli çalışmaları olan tanınmış yazıçıdır. Harun Yəhyanın kitabları Müsəlman, qeyri-müsəlman, hər yaşdan, irqdən və millətdən insana xitab edir və tək bir məqsəd uğrunda birləşdirir: Allahın sonsuz varlığının dəlillərini tanıdaraq oxucuların zehinlərini açmaq.”

Müəllifin bu jurnalda nəşr olunan digər məqalələrindən bəzilərinin başlıqları belədir:

“Allahın yaradılış dəlilləri üzərində düşünmək”

“Əsl İslam əxlaqı”

“Allahın açıq-aşkar varlığı”

“Quranın elmi möcüzələri”

“Kainatın genişlənməsi”

## Bosniya-Herseqovina - “Kun”

Bosniya-Herseqovina qabaqcıl qəzetlərindən biri olan “Kun” qəzetində Harun Yəhyanın “Təkamül nəzəriyyəsinin tənəzzülü” adlı əsərinin təqdimat yazısı nəşr olunmuşdur.

## Sibir - “İxlas” qəzeti

Sibir yaxınlarındakı İseyk şəhərində nəşr olunan “İxlas” qəzetində Harun Yəhyanın elmi və imani məzmunlu məqalələri nizamlı olaraq nəşr olunur.

## İndoneziya - "Suara Hidayatullah"

İndoneziya dilində aylıq nəşr olunan "Suara Hidayatullah" jurnalı bu günə qədər Harun Yəhyanın bir çox məqaləsinə səhifələrində yer vermişdir. Jurnalın 2003-cü il aprel ayı sayında "Allahın məhv etdiyi qövmlər" başlığı ilə yer alan 6 səhifəlik məqaləsində müəllif Nuh qövmündən İtaliyadakı Pompey xalqına qədər Allahın həlak etdiyi qövmlərin məruz qaldıqları sondan bəhs etmişdir. Quran ayələri işığında tarixi və elmi həqiqətlərin qiymətləndirilməsi ilə qələmə alınan bu məqalədə Lut qövmünün başına gələn fəlakətlər də izah edilir.

"Hüceyrədəki möcüzə" başlıqlı məqalə isə 2003-cü il iyul ayında nəşr olunmuşdur. Harun Yəhyanın 6 səhifəlik bu məqaləsi "Bədəninizin içindəki möcüzə: Hüceyrə", "Hüceyrəvi əlaqə və bədənimizdəki hüceyrələr" kimi alt başlıqlardan ibarətdir.

## Azərbaycan- "Elçi"

Azərbaycanda nəşr olunan həftəlik qəzetdə Harun Yəhyanın aşağıdakı məqalələri nəşr olunmuşdur:

"Dağların funksiyası və rolu", "Baldakı şəfa", "Əshab-i Kəhf", "Pompeyin sonu", "Quran möcüzələri", "Barmaq izlərindəki şəxsi məlumat", "Kosmosun kəşfi"...

## Azərbaycan - "Ekspress"

Azərbaycanda nəşr olunan "Ekspress" qəzetində Harun Yəhyanın "Quran möcüzələri" adlı əhəmiyyətli əsəri silsilə şəklində nəşr olunmuşdur. Üstəlik, qəzetdə 1

noyabr 2002-ci il tarixində müəllif ilə edilən bir müsahibəyə yer verilmişdir. Bu müsahibədə Harun Yəhya darvinizmə qarşı 20 ildən bəri davam edən fikri mübarizəsini izah edir.

## Qazaxıstan- "Ruhani emir"

Tarix, elm və dini mövzuları nəşr edən "Ruhani emir" jurnalı iki həftədə bir Qazax dilində nəşr olunur. Bu jurnalda Harun Yəhyanın elmi, imani və ictimai məzmunlu məqalələri müxtəlif zamanlarda nəşr olunmuşdur.

## Albaniya - "Drita e dijes"

Albaniyada Drita Mədəniyyət Klubunun nəşri olan bu jurnalın 2002-ci il oktyabr ayı sayında Harun Yəhyanın "Materializmin tənəzzülü" başlıqlı məqaləsi nəşr olunmuşdur.

## Malayziya- "Al-Nandah"

Malayziyada nəşr olunan Cənub-Şərqi Asiya və Passivik bölgəsi İslami Dava Şurası (RISEAP) adlı İslami fondun nəşri olan "Al-Nahdah" jurnalında Harun Yəhyanın "İman edən elm adamları" və "Quranda yağış" adlı məqalələri yer almışdır.

## Fas - "El-Attajdid"

Fasda nəşr olunan "El-Attajdid" qəzetində Harun Yəhyanın "Toxum və nüvənin yaradılışı" başlıqlı məqaləsi nəşr olunmuşdur.

## ABŞ - "Pakistan link"

Amerikanın Los Angeles şəhərində pakistanlılar üçün nəşr olunan həftəlik qəzetdə Harun Yəhyanın yazıları yer alır. Bunlardan biri də "İslamda qadının yeri" başlıqlı məqalədir. Harun Yəhya bu məqaləsində İslam dinində qadın haqlarının necə qorunduğunu izah edir. Harun Yəhya məqalədə bu sətirlərə yer vermişdir:

"Allah Quran ilə insanlara "şan və şərəflərinin gətirildiyini" bildirir. İslam əxlaqına iman gətirən Allahın Quranda bildirdiyi yolu izləyən insanlar hər mövzuda rifah əldə edərlər. Cahiliyyə cəmiyyətlərində bəzi qadınların məruz qaldıqları çətinliklərin tək həlli və qadınların cəmiyyət içində layiq olduqları hörməti görmələrinin yolu da yenə Rəbbimizin insanları qaranlıqdan nura çıxarmaq üçün Peyğəmbərimiz (s.ə.v)-ə vəhy etdiyi Qurandadır. Allah Quranın bir çox ayəsi ilə qadını və qadın haqlarını qoruma altına almış, cahiliyyə cəmiyyətlərində qadınlara olan səhv dünyagörüşünü ortadan qaldırmış, qadına cəmiyyət içərisində hörmətli yer qazandırmışdır. Quran ayələri ilə insanlara Allah Qatında üstünlüyün cinsiyyət ilə deyil, Allah qorxusu, iman və təqva olduğu bildirilmişdir."

## İndoneziya - “Sabili Islamic magazine”

İndoneziya dilində nəşr olunan “Sabili Islamic Magazine” adlı jurnalın 2003-cü il aprel ayı sayında Harun Yəhyanın “İraq müharibəsinin pərdə arxası” adlı məqaləsinə altı səhifə yer verilmişdir. İndoneziya dilində nəşr olunan bu məqaləsində Harun Yəhya İraq müharibəsi planlarının 11 sentyabr hücumlarından əvvəl edildiyinə və müsəlmanlara qarşı icra edilən anti-təbliğatın yalnız təsirli İslam Birliyinin təsis edilməsi ilə ortadan qaldırıla biləcəyinə toxunur.

## Azərbaycan - “Camaat” qəzeti

Həftəlik ictimai-dini qəzet olan “Camaat” Azərbaycanda nəşr olunur və hər sayında Harun Yəhyanın imani və elmi məqalələrinə yer verilir. Məqalələr ilə yanaşı qəzet 20 sentyabr 2002-ci il tarixli nüsxəsində “İslamla birləşən insan” başlığı altında Harun Yəhya ilə edilən xüsusi reportajı nəşr etmişdir. Bu müsahibədən bəzi hissələr belədir:

“Bu dünya həyatı imtahan yeridir. Bu qısa zaman ərzində iman edən hər kəsin başına gələn hər şey xeyirlidir. Çünki zaman və məkandan münəzzəh olan Rəbbimizin hazırladığı qədər qüsursuzdur.”

“Hal-hazırda dünyanın dörd tərəfində müxtəlif dillərdə kitablarım nəşr olunur. Bu kitablardan hazırlanan sənədli filmlər də müxtəlif kanallarda yayımlanır. ingilis, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, bosniya, uyğur, malay, benqal, serb, bolqar və çin dilinə kimi müxtəlif dillərə tərcümə edilən əsərlər bir çox ölkədə geniş oxucu kütləsi tərəfindən izlənilir.”

## Kaşmir - “The Weekly Muslim”

Hindistan, Kəşmirdə nəşr olunan həftəlik “The Weekly Muslim” jurnalı Harun Yəhyanın “Təkamül yanılması” adlı məqaləsinə səhifələrində yer vermişdir.

## Küveyt - “Al Muctama”

Küveytdə nəşr olunan aylıq İslami jurnalda Harun Yəhyanın “Heroqlif yazılar, Qurani Kərim və Peyğəmbərimiz (s.ə.v) haqqındakı məlumatları dəstəkləyir” başlıqlı məqaləsi nəşr olunmuşdur.

## Umman - “Al Watan”

Ummanda nəşr olunan gündəlik siyasi qəzet “Al Watan”da Harun Yəhyanın müxtəlif məqalələri yer almışdır. Bu məqalələrdən bəzi başlıqlar belədir: “Bosniya müharibəsinin pərdə arxası”, “Balkanlardakı döyüşlər”...

## Rusiya - “NBAH”

Rusiyada nəşr olunan “NBAH” (İman) qəzetində Harun Yəhyanın “Təkamül yalanı” başlıqlı məqaləsi nəşr olunmuşdur.

## İngiltərə - “The Muslim Weekly”

İngiltərədə yaşayan müsəlmanlar üçün nəşr olunan həftəlik siyasi-elmi qəzet “The Muslim Weekly”də Harun Yəhyanın bir çox məqaləsi yer almışdır. 100 min tirajlı İngiltərənin qabaqcıl qəzeti vasitəsilə, Harun Yəhya Quran əxlaqının əhəmiyyəti ilə əlaqədar yazıları ilə yanaşı, İslam dünyasında yaşanan zülmlərə həll yollarını təqdim edən məqalələrini də oxucuları ilə paylaşır.

## ABŞ - “CIMIC”

Mərkəzi İllinois məscidi və İslam mərkəzi tərəfindən nəşr olunan aylıq CIMIC qəzetinin 2002-ci il avqust ayı sayında Harun Yəhyanın “Allahın hər insana ilhamı: Vicdan” başlıqlı məqaləsi nəşr olunmuşdur.

## Qazaxıstan - “The world of Islam”

“The world of Islam” iki ayda bir Qazax dilində nəşr olunan jurnaldır. Jurnal İslam dünyasından xəbərlər ilə yanaşı Qazax müsəlmanlarının təşkil etdiyi fəaliyyətlərə və imani mövzulara da yer verir.

Bu jurnalda Harun Yəhyanı və əsərlərini izah edən tanıdıcı yazı da nəşr olunmuşdur. Eyni səhifədə nəşr olunan bir başqa məqaləsində Harun Yəhya keçmişdə dünyanı böyük xaosa sürüyən faşist ideologiyanın təməlini meydana gətirən darvinizmin mədəni və elmi sahədə çökdürülməsini izah edir.

## Qazaxıstan - “Ahıska”

Axıska türklərinin nəşr etdiyi həftəlik “Ahıska” qəzetində Harun Yəhyanın “İslam terroru lənətləyir” başlıqlı məqaləsi nəşr olunmuşdur.

## Qazaxıstan – “İslam Erkaniyet”

Qazaxıstan Diyanət Nazirliyinin nəşr orqanı olan aylıq “İslam Erkaniyet” qəzetində Harun Yəhyanın bu günə qədər bir çox məqaləsi nəşr olunmuşdur. “Kitab əhlinə dəvət” və “Kainatın yaradılışı” bu məqalələrdən bəziləridir.

## Qazaxıstan - “Panaroma Çimkənt”

Qazaxıstan Çimkənt bələdiyyəsinin həftəlik nəşr orqanı olan və Rus dilində nəşr olunan “Panaroma Çimkənt” qəzetində Harun Yəhyanın “Antisemitizm irqçilikdir” başlıqlı məqaləsi nəşr olunmuşdur.

## ABŞ – “Muslim kid's journal”

Amerikalı Müsəlman uşaqlar üçün hazırlanan aylıq jurnalda Harun Yəhyanın uşaqlar üçün hazırladığı iman həqiqətləri məqalələri nəşr olunmağa davam edir.

## Qazaxıstan - “Çimkənt” qəzeti

Qazaxıstan Çimkənt bələdiyyəsinin həftəlik nəşr orqanlarından biri olan və Qazax dilində nəşr olunan “Çimkənt kelbeti” (Çimkəndin üzü) adlı qəzetdə Harun Yəhyanın Fələstin problemi ilə əlaqədar məqaləsi nəşr olunmuşdur.

## Bosniya-Herseqovina –”İslam dünyası”

Bosniya-Herseqovinada nəşr olunan “Glas İslama” (İslam dünyası) adlı aylıq siyasi jurnalda 2002-ci ildə Harun Yəhyanın “Kommunizm pusqudadır” başlıqlı silsilə yazı 4 ay boyunca nəşr olundu. Bu silsilə yazılardan bir hissə belədir:

“Kommunizm ötən 20-ci əsrə damğasını vurmuş bir ideologiyadır. Bu damğa yalnız təzyiq, zülm, qan və gözyaşı ilə doludur. Tarixçilərin hesablamalarına görə, bu ideologiyaya əsasən təkcə 20-ci əsr boyunca 120 milyon insan öldürülmüşdür. Bunlar müharibə əsnasında cəbhədə ölən əsgərlər deyil, kommunist dövlətlərin öz xalqlarının içindən öldürdükləri vətəndaşlardır. 100 milyon kişi, qadın, ahıl, uşaq, körpə yalnız “kommunizm” deyilən bu soyuq, qatı, sərt və vəhşi ideologiyaya görə həyatını itirmişdir. Üstəlik, kommunist rejimlər tərəfindən konstitusional haqq və azadlığından məhrum buraxılan, köç etməyə məcbur edilən, sistemli olaraq qıtlıqla üz-üzə gətirilən, həbs edilən, toplama düşərgələrində kölə olaraq istifadə edilən on milyonlarla insan vardır. Milyonlarla insan da kommunist partizan qruplarının, terror təşkilatlarının güllələrinə hədəf olmuş və ya hədəf olma qorxusu altında yaşamışdır.

Yaxşı, bu ideologiyanın mənşəyi nədir? Necə olmuşdur ki, bu qədər qanlı və mərhəmətsiz bir dünya görüşü, dünyanın dörd tərəfində tərəfdar tapmış, inqilablarla iqtidara gəlmiş, milyonları ardından sürümüşdür? Kommunizm harada doğulmuş, necə böyümüş və necə sona çatmışdır? Həqiqətən sona çatmışdırmı, yoxsa hələ dünyanı və ölkəmizi təhdid edirmi?

Bu yazıda bu sualların cavablarını ortaya qoyacağıq. Ən əhəmiyyətlisi, böyük təhlükəyə diqqət çəkəcəyik. Kommunist ideologiya ötən əsrdə əziyyətlərə, fəlakətlərə səbəb olmuş, bütün dünya, kommunist liderlərin qırğınlarına, mərhəmətsizliklərinə şahid olmuşdur. Yaxşı, indi bu təhlükə yer üzündən silinmişdir? Çox təəssüf ki, silinməmişdir: KOMMUNİZM PUSQUDADIR!"

## Yəmən - "Yemen Times"

Yəməndə 1991-ci ildən bu günə kimi nəşr olunan və ölkənin ən çox oxunan və ölkənin yeganə İngilis dilində qəzeti olan "Yemen Times"da Harun Yəhyanın aktual mövzularla əlaqədar müxtəlif məqalələri nəşr olunur. Qəzetdə Harun Yəhyanın kitablarının təqdimatı da edilir.

## Yunanıstan - "Azad haqqa dəvət"

"Azad haqqa dəvət" Yunanıstanın Qərbi Trakya bölgəsində Türk dilində nəşr olunan fikir jurnalıdır. Jurnalda Harun Yəhyanın müxtəlif mövzulardakı məqalələrinə yer verilir.

## ABŞ - "El Arab"

ABŞ-da həftəlik nəşr olunan "El-Arab" qəzeti Ərəb və İngilis dilində də nəşr olunur. "El-Arab" 2001-ci ildən bu günə kimi nizamlı olaraq Harun Yəhyanın müxtəlif elmi və imani məqalələrinə tam səhifə olaraq yer verir.

## Hollandiya - "Avro hüzur"

"Avro hüzur" Hollandiyada Türk dilində hazırlanan aylıq ictimai, xəbər və mədəniyyət jurnalıdır. Hollandiyanın yanında digər Avropa ölkələrində də paylanılır. Jurnal müəllifin məqalələrini nizamlı olaraq nəşr etməyi davam etdirir.

## ABŞ - "Illumination magazine"

Amerikalı Müsəlman gənclər tərəfindən nəşr olunan "Illumination Magazine"də Harun Yəhyanın Quran əxlaqını izah edən yazıları nəşr olunur. "Dərin düşünmək" və "Yoxsullara göstərilən mərhəmət" mövzusunda məqalələri jurnalda nəşr olunan yazılardan bəziləridir.

## BAE - “The Gulf Today”

Birləşmiş Ərəb Əmirliryində nəşr olunan və ölkənin ən böyük qəzetlərindən biri olan “The Gulf Today” 2004-cü il Ramazan ayı boyunca Harun Yəhyanın məqalələrinə və kitab təqdimatlarına yer verdi. Harun Yəhyanın Quran əxlaqını, Quranda yer alan elmi möcüzələr və kainatdakı yaradılış dəlillərini izah etdiyi bu məqalələr oxuculardan çox müsbət reaksiyalar aldı.

## Braziliya -”Revista Criasionista”

“Revista Criacionista” braziliyalı Xristian Yaradılışçı qruplar tərəfindən nəşr olunur. Portuqal dilində nəşr olunan jurnalda Harun Yəhyanın təkamül mövzusunda məqalələrinə tez-tez yer verilir.

## İngiltərə - “Forum”

İslam dinini yaymaq və İslam təhsilini gücləndirmək məqsədi ilə İngiltərədə qurulan İctimai Elmlər Forumu (The Forum for Social Studies-FSS), eyni zamanda Müsəlman alimlər, yazıçılar və din adamları üçün məlumat forumu halına gəlmişdir. FSS 1988-ci ildən bu yana Forum adlı aylıq bülleten çıxarır və bu bülleteni dünyanın dörd tərəfinə ödənişsiz paylanılır. Bu bülletendə Harun Yəhyanın yazıları tez-tez nəşr olunur.

## İndoneziya - “La Republika”

İndoneziyanın ən böyük qəzetlərindən biri olan “La Republika” qəzetində Harun Yəhyanın yazıları nəşr olunur. Bu yazıların bəzilərinin başlıqları bu şəkildədir: “Lövh–i Məhfuz”, “Quran və elm”, “Kainatın genişlənməsi və Quran”, “İnsan heyvan deyil”, “Bitkilərdəki möcüzə”, “İşıq saçan canlılar”, “Həll Quran əxlaqıdır”...

## Şri Lanka - “Al Hasenat”

Şri Lankada nəşr olunan “Al Hasenat” jurnalında Harun Yəhyanın məqalələri nizamlı olaraq nəşr olunur. Tamil dilindəki məqalələrdən biri də “Oksigendəki dizayn” məqaləsidir.

## Rusiya -”İslam” qəzeti

Moskvada nəşr olunan aylıq “İslam” qəzetində Harun Yəhyanın “Kəşmirdəki müsəlmanlara edilən zülm”, “İngiltərədə İslam” və “Əhli Kitab” kimi bir çox məqaləsi nəşr olunmuşdur.

## Türküstan -”Türküstan” qəzeti

Qazax dilində həftəlik nəşr olunan “Türküstan” qəzeti Qazaxıstanda nəşr olunur. Bu qəzetdə Harun Yəhyanın “Quranda bildirilən meyvələr” başlıqlı iki hissəlik məqaləsi ilə yanaşı “İnsanın yaradılışı” adlı başqa məqaləsi də nəşr olunmuşdur.

## ABŞ - “Culture Wars”

Amerikada Xristian alimlər tərəfindən nəşr olunan aylıq “Culture Wars” jurnalının 2003-cü il may ayı tarixli sayında Harun Yəhyanın bir məqaləsinə yer verilmişdir. “İraq müharibəsinin pərdə arxası” başlıqlı məqalə hələ də davam edən müharibənin arxa planında yaşananları izah edir.

## Hollandiya - “Platforma”

Hollandiyada Türk dilində nəşr olunan “Platforma” jurnalı Harun Yəhyanın məqalələrinə hər ay geniş yer verir. Bu jurnala abunə olanlara Harun Yəhyanın əsərlərindən hazırlanan “Elmi mərcək” jurnalı da verilir.

## İndoneziya - “Tarbawi”

“Tarbawi” İndoneziya da nəşr olunan aylıq jurnaldır. Bu jurnalın bir sayının arxa qapağında Harun Yəhyanın “Təkamül yalanı”, “Atom möcüzəsi”, “Kainatın yaradılışı”, “Təbiətdəki dizayn”, “Uşaqlar, Darvin yalan danışdı”, “Həyatın əsl mənşəyi”, “Darvinizmin sonu” adlı kitablarını oxucularına tanıtmışdır. Jurnalda eyni zamanda müəllif ilə edilən müsahibəyə yer verilmişdir.

## Azərbaycan -”İlğım”

Azərbaycanda nəşr olunan gündəlik “İlğım” qəzetində Harun Yəhyanın məqalələrinə nizamlı olaraq yer verilir. Qəzet Harun Yəhyanın iman həqiqətləri, Quran möcüzələri, Axırzaman əlamətləri kimi fərqli mövzulardakı məqalələrini tam səhifə olaraq nəşr edir.

## Polşa - “Na Poczatku”

Polşada fəaliyyət göstərən “Polskie Towarzystwo Kreacjonistyczne” (Polşa Yaradılışçılıq İnstitutu) tərəfindən nəşr olunan aylıq “Na Poczatku” jurnalında Harun Yəhyanın “Son dino-quş nağılı və həqiqətlər” başlıqlı Leh dilində məqaləsinə yer verilmişdir. 2003-cü ilin may ayında nəşr olunan bu məqalədə darvinistlərin insanları aldatmaq məqsədi ilə ortaya atdıqları əsassız iddianın etibarsızlığı dəlilləri ilə ortaya qoyulur.

# "Elmi mərcək" jurnalı

Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan "Elmi mərcək" jurnalının xaricdə müxtəlif dillərdə nəşrləri edilir. Bunlardan bəziləri belədir.

# HARUN YƏHYA SƏNƏDLİ FİLMLƏRİ VƏ SƏS YAZILARI

Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan 150-yə yaxın sənədli film eynilə kitablar kimi, müxtəlif dillərə tərcümə edilmişdir. Pakistan, İndoneziya, Azərbaycan, ABŞ, Nigeriya, Birləşmiş Ərəb Əmrlikləri, Hollandiya, Kanada, Yeni Zelandiya kimi bir çox ölkədə milli və yerli kanallarda da yayımlanan bu sənədli filmlər dünya səviyyəsində böyük maraq topladı. Bu sənədli filmləri yayımlayan kanallara və internet saytına gələn mesajlardan da aydın olduğu kimi yayımlar tamaşaçılardan çox böyük dəstək görür, davamlı təkrar nəşr olunmaları istənilir və proqramlar daha çox insanın izləyə biləcəyi saatlara təyin edilir. Bəzi kanallarda sənədli filmlər xəbər saatında və gündə bir neçə dəfə yayımlanır.

Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan bu sənədli filmlər indiyə qədər dünya səviyyəsində 100-ə yaxın kanalda yayımlanmışdır və yayımlanmağa davam edir. Sənədli filmlərin əsas mövzuları isə bu şəkildədir:

- Allahın təbiətdə dəlil olaraq yaratdığı canlıların həyatı və bu canlılardan nümunə götürülərək reallaşdırılan texnoloji nailiyyətlər,
- İnsanlığa böyük itkilər yaşatmış azğın ideologiyalar və bunlardan çəkinmənin yolları,
- 19-cu əsrdən günümüzə qədər elmi nəzəriyyə kimi göstərilməyə çalışılan Darvinin təkamül nəzəriyyəsinin əslində yalan və insanlığı fəlakətlərə sürümüş nəzəriyyə olduğu,
- Gənclərin və uşaqların böyük maraq göstərdiyi yaradılış həqiqətləri,
- Fəlsəfə məzmunlu ümumi mədəniyyət səviyyəsini artıran sənədli filmlər,
- İnsanın yaradılış möcüzəsi ilə əlaqədar sənədli filmlər,

- Dünyamızdakı terror və bədbəxtliyin ancaq Quran əxlaqının yaşanması ilə təhlil edilə biləcəyini izah edən sənədli filmlər,
- Axırzaman və gözəl əxlaq ilə əlaqədar sənədli filmlər...

Bir çox tamaşaçı bu sənədli filmləri Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan internet saytlarından ödənişsiz əldə edə bilirlər. Bəzən də könüllü şəxslər tərəfindən universitetlərdə, müxtəlif konfrans və yığıncaq salonlarında, kinoteatrlarda toplu nümayişlər təşkil edilir, minlərlə insanın sənədli filmləri izləməsi üçün imkan yaradılır. Sənədli filmlərin meydana gətirdiyi təsiri göstərən minlərlə tamaşaçı mesajlarından bir neçəsi belədir:

"Yerli televiziya kanalımızda yayımlanan sənədli filminizi izləyəndə çox təsirləndim. Çox mükəmməl araşdırılmışdır, qane edicidir və baxılmağa dəyər. Məncə, dinimizə mükəmməl xidmətdir. Mən cəmiyyətimizdə bu cür həqiqi alimlər olduğu üçün xoşbəxtəm."

**Shazia Jamshed – Pakistan**

"Sizin qəlblərinizə sonsuzadək hüzur diləyirəm. Video setlər üçün çox təşəkkür edirəm. Bütün Yaradılış möhtəşəm, gözəl, mükəmməldir. Həqiqətən, sahibimiz olan Allahdan daha böyük heç bir güc yoxdur. Çox təşəkkürlər."

**Juan – Kanar adaları – İspanya**

"Cənab Oktar, sizə Özbəkistandan yazıram. ABŞ-da çalışıram. Videolarınızı seyr etməkdən və kitablarınızı oxumaqdan böyük zövq alıram. Məncə, siz, həqiqətən, çox yaxşı iş görürsünüz. Xüsusilə, təkamül nəzəriyyəsi əleyhinə göstərdiyiniz səyləriniz göz ardı edilə bilməz. Ümumiyyətlə, Müsəlman olmayanlarla müzakirələr edərkən kitablarınız və videolarınızdan istinad olaraq istifadə edirəm."

**Əziz Inoyatov – Özbəkistan**

“Mənfəət güdməyən “İnstitute for İntergovernmental Research” institutu üçün çalışıram. Birləşmiş Ştatlar miqyasında yerli və milli hüquq orqanlarına anti-terrorizm mövzusunda təhsil veririk. Sizin sənədli filminizi tədris planımıza daxil etmək istəyirik. Bu tələbimizi qəbul edərsinizmi?”

**Scott Tedcastle – Florida – ABŞ**

“Filminizi izlədim və onu izlədikdən sonra çox xoşbəxt oldum, çünki günümüzdə bəziləri İslam əxlaqını müasir texnologiyalardan istifadə edərək yaymaq üçün çalışır. Bu filmi izləməzdən əvvəl bir Müsəlman olaraq İslam haqqında çox şey bilmirdim, lakin izlədikdən sonra mənim iman və inanc ilə əlaqədar məlumatmı artırdı. Bundan sonra dünyanın əsl imanına və inancına aid olduğum üçün özümlə qürur duya bilərəm.

Harun Yəhya, İslam üçün edilən bu gözəl çalışma üçün təbriklər...

Allah sizi qorusun. Ümid edirəm ki, gələcəkdə daha da çox məlumat ehtiva edən sənədli filmlər yayımlayarsınız...”

**Ghalib Khan – Pakistan**

“Hal-hazırda Çində oxuyuram. Bir çox filminizi izlədim və etdiyiniz çalışma mənə ilham verdi. Bu həftə “Maddənin ardındakı sirr” videonuzu Çinli yoldaşlarıma göstərdim. Hamısı çox bəyəndilər. Bu filmlərin Çin dilində olanları haqqında daha çox məlumat almaq istəyirlər. Buna görə sizə Çin dilində tərcümələr mövzusunda kömək etmək istəyimi dilə gətirmək istəyirəm. Buradakı Müsəlman toplum çox böyükdür və hamısı yalnız Çin dilində bilir.”

**Kashif Mehmood – Çin**

“Sinqapurda axırıncı sinifdə oxuyuram. “Quran möcüzələri” CD-nizi aldım və o qədər möhtəşəm hazırlanıb ki, çox təəccübləndim. Bu CD-ni Müsəlman olmayan bir yoldaşıma verdim. O da çox bəyəndi. İndi bu CD-ni kopyalamağı və kitabxanalara

verməyi düşünürük. Bunun üçün sizin icazənizi istəyirəm. Sizə işlərinizdə böyük müvəffəqiyyətlər diləyirəm. Allah sizə kömək olsun. Xahiş edirəm, mənimlə əlaqə saxlayın. Cənab Harun Yəhya mənə cavab versə, çox sevinərəm. Xahiş edirəm, mesajımı Harun Yəhyaya çatdırın."

**Abbas Shabeen – Şri Lanka**

"Yaxın zamanda veb saytınızla tanış oldum. Biz Sidney Avstraliyada mənfəət güdməyən bir təşkilatıq. İmam Hussain İslami Mərkəzi. Bütün DVD-lərinizi siniflərimizdəki şagirdlərimizin təhsilində istifadə etmək üzrə almaq istəyirik."

**Sh. Mansour Leghaei – Avstraliya**

## Türk dilində sənədli filmlər

### "Peyğəmbərlərin həyatı" seti

1) "Hz. Məhəmməd (s.ə.v)"
2) "Hz. İbrahim (ə.s) və hz. Lut (ə.s)"
3) "Hz. İsa (ə.s) gələcək"
4) "Hz. Musa (ə.s)"
5) "Hz. Süleyman (ə.s)"
6) "Hz. Yusif (ə.s)"
7) "Hz. Nuh (ə.s)"
8) "Quran möcüzələri -1"
9) "Quran möcüzələri -2"

10) ”Quran möcüzələri-3”

11) “Mehdi və Axırzaman”

12) “Qiyamət əlamətləri”

13) “Dünya həyatının həqiqəti”

14) “İslamla yeni tanış olanlar”

15) “Qövmlərin həlakı”

## “Düşünən insanlar üçün” seti

Bu set 60 VCD filmdən ibarətdir. Bu filmlərdən bəziləri bunlardır:

1) “Müdafiə sistemi möcüzəsi”

2) “İslam: Dünyanı aydınladan nur”

3) “Məbəd cəngavərləri”

4) “Dövrümüzün bütləri”

5) “Terror sevgi ilə yox edilər”

6) “Qızıl əsr və hz. İsa (ə.s)-ın dönüşü”

7) “Materializmin tənəzzülü”

8) “İslam terroru lənətləyir”

9) “Təbiətdəki memarlar”

10) “Allahın adları”

11) “Quranın riyazi sirləri”

12) Toxumdan bitkiyə”

13) Təbiətdəki texnologiya və digərləri”

## “İslamın yüksəlişi və qarşısındakı güclər” seti

1) “İslamın yüksəlişi”
2) “Orta Şərq və İslam Birliyi”
3) “İslam terroru lənətləyir”
4) “Dünya Osmanlıya möhtacdır”
5) “Fələstin”
6) “Məbəd cəngavərləri”
7) “Masonluğun fəlsəfəsi”
8) “Türkiyədə masonluq”
9) “Kommunizmin qara tarixi–1”
10) “Kommunizmin qara tarixi–2”
11) “Kommunizmin qara tarixi–3”
12) “Faşizmin qara tarixi–1”
13) “Faşizmin qara tarixi–2”
14) “Müharibələrin pərdə arxası”
15) “Darvinizmin qaranlıq üzü”

## “İslamın inanc əsasları” seti

1) “Allahın adları”
2) “Quranda dua”
3) “Quranda gözəl əxlaq”
4) “Möminlərdə səbir və təvəkkül”
5) “Şəfqət və mərhəmət”
6) “Hikmət gözü ilə baxmaq”
7) “Əsla unutmayın”
8) “Dinsizliyin kabusu”
9) “Hz. Musa və Əhd sandığı”
10) “Yəcüc və Məcüc”
11) “Hinduizmin əsl üzü”
12) “Buddizmin əsl üzü”
13) “Şeytanın silahı: Satanizm”
14) “Reinkarnasiya yanılması”
15) “Hz. Məryəm”

## “Uşaqlar, sizin üçün” seti

1) “Rəbbimizi tanıyaq”
2) “Peyğəmbərimiz (s.ə.v)-i tanıyaq”

3) “Yaradılış həqiqəti”

4) “Ətrafımızdakı nemətlər”

5) “Dənizlərdəki sevimli canlılar”

6) “Bitkilərin dünyası”

7) “Kainatda səyahət”

8) “Səyahət edən canlılar”

9) “Heyvanlar aləminə səyahət”

10) “Sevimli dostlarımız”

11) “Gizlənən heyvanlar”

12) “Balalar və anaları”

## 10-lu DVD seti

Bu set, Türkcə olmaqla 5 dildə səsləndirilmiş və 5 dildə alt yazılı olaraq hazırlanmışdır.

1) “Düşünən insanlar üçün–1”

2) “Düşünən insanlar üçün–2”

3) “Düşünən insanlar üçün–3”

4) “Dünya həyatının həqiqəti”

5) “Qiyamət əlamətləri”

6) “Allahın rəng sənəti”

7) “Allah ağılla bilinər”

8) “Canlılardakı ana sevgisi və şəfqəti”

9) “Dərin düşünmək”

10) “Təbiətdəki nizamı”

25 dildə Harun Yəhya sənədli filmləri.

## İngilis dilində sənədli filmlər

### 40-ədədlik DVD seti

Harun Yəhyanın əsərlərindən faydalanılaraq hazırlanan və 40 sənədli filminin olduğu bu setdə, “Kainatın yaradılışı”, “Quran möcüzələri”, “İslam terroru lənətləyir”, “Maddənin ardındakı sirr”, “Qövmlərin həlakı” kimi əhəmiyyətli mövzularda sənədli filmlər yer alır.

1) “Qiyamət əlamətləri”

2) “Allahın rəng sənəti”

3) “Canlılarda sevgi və həmrəylik”

4) “Kommunizmin qanlı tarixi–1”

5) “Kommunizmin qanlı tarixi–2”

6) “Kommunizmin qanlı tarixi–3”

## 20-li DVD set

Bu setdə 20 sənədli filmin DVD-si ilə Harun Yəhyanın 20 kitabı var. Böyük maraq görən bu setə daxil olan kitablar arasında; "Məsih müjdəsi", "Dinimizi öyrənək", "Quranın bəzi sirləri", "Hz. İsa gələcək", "Təkamül yalanı", "Dərin düşünmək" əsərləri var.

1) "Maddənin ardındakı sirr"
2) "Kainatın yaradılışı"
3) "Təbiətdəki texnologiya"
4) "Möcüzə planet-1"
5) "Tənəffüs möcüzəsi"
6) "Göylərdəki nizam"

## Bir çox dildə olan 10-lu DVD seti

İngilis, Fransız, Alman, Ərəb, İspan və Türk dillərində olan bu sənədli filmlər arasında "Canlılarda fədakarlıq", "Dərin düşünmək", "Düşünən insanlar üçün 1-2-3" və "Dünya həyatının həqiqətləri" filmləri var.

1) "Canlılarda fədakarlıq"
2) "Dərin düşünmək"
3) "Dünya həyatının həqiqəti"
4) "Düşünən insanlar üçün-1"

5) “Düşünən insanlar üçün–2”

6) “Düşünən insanlar üçün–3”

# İNGİLİS DİLİNDƏ SƏNƏDLİ FİLMLƏRİN YAYIMLANDIĞI KANALLAR

## ABŞ

Amerikada bir çox yerli kanalda Harun Yəhya sənədli filmləri nizamlı şəkildə yayımlanır. Üstəlik, yalnız Müsəlman ictimaiyyətinə xitab edən kanallarda deyil, Xristian televiziya kanallarında da bu sənədli filmlərə yer verilir. Bu kanallar arasında ACTV Cable Channel 21, Bridges TV, Universal Truth, Islam: A Guide to Human Excellence, Amica TV, Community Public Access Channel, Islamic Information Service TV (Los Angeles), TCTV (Torrance Cable TV- Kaliforniya), Arab American TV Chicago, Cox TV (Kaliforniya), Zindabad TV, Channel 77 kanalları var.

## Avstraliya

Harun Yəhya sənədli filmlərinin böyük maraq gördüyü ölkələrdən biri də Avstraliyadır. Avstraliya İslam kollecinin sponsorluğu ilə yayımlanan “Channel 31” nizamlı olaraq bu sənədli filmləri yayımlayan kanallardan biridir. Üstəlik, ABC (Australian Broadcasting Corporation) adlı televiziya kanalının “Nightlife” adlı proqramı içində də Harun Yəhyanın sənədli filmləri yayımlanır.

## Kanada

Kanadada "Vision of Islam TV" (Pakistan TV Network), "Canada National Learning Center", "Jafry Communications" adlı kanallarda Harun Yəhyanın sənədli filmləri yayımlanmağa davam edir.

## Nigeriya

Nigeriyada fərqli televiziya kanalları tərəfindən yayımlanan Harun Yəhya sənədli filmlərinə böyük maraq olduğu, internet saytına gələn mesajların çoxluğundan görülür. "TV Authority"ə bağlı televiziya kanalları olan "Edo Broadcasting Service", "National TV", "Radio Télévision Ténéré'" də yayımlanan sənədli filmlər bir çox insanın imanının güclənməsinə vəsilə olur.

## Cənubi Afrika

Harun Yəhya sənədli filmləri Cənubi Afrikada, Cənubi Afrikanın İngilis dilində ilk yayım edən İslami kanalı olan "ITV"də yayımlanır. Bu kanal, 24 saat yayım edir və təxminən 4 milyon insan tərəfindən izlənilir. Afrika qitəsində təxminən 20 ölkədə izlənilən "ITV"də Harun Yəhyanın İngilis dilində hazırlanmış bütün sənədli filmləri nizamlı olaraq göstərilir. Üstəlik, Cənubi Afrikada "Channel Africa" adlı kanalda da sənədli filmlər yayımlanır.

## Tanzaniya

Harun Yəhya sənədli filmlərinin yayımlandığı bir başqa ölkə də Tanzaniyadır. Sənədli filmlər "Zanzibar Cable TV" adlı yerli kanalda nizamlı göstərilir.

## Yeni Zelandiya

Yeni Zelandiyada "Shine Television" adlı yerli kanalda Harun Yəhya sənədli filmləri nizamlı yayımlanır

## Şri Lanka

Şri Lankada Harun Yəhya sənədli filmlərinin televiziyada göstərildiyi ölkələrdən biridir. Şri Lanka Milli televiziya kanalı olan "National TV"də də Harun Yəhya sənədli filmləri yayımlanır.

## Guyana

Cənubi Amerikada olan Guyanada "TTS Channel 5" adlı yerli televiziya kanalında Harun Yəhya sənədli filmləri yayımlanır. Kanal rəhbəri həm Müsəlman, həm də qeyri müsəlman tamaşaçılarından çox müsbət reaksiyalar aldıqlarını ifadə ediblər.

# Sənədli filmlərə gələn mesajlar

"Quran Möcüzələri ilə əlaqədar bir CD-inizi seyr etdim, 10 ədəd almaq istəyirəm. Gördüyüm qədəri ilə möhtəşəm iş görmüsünüz. Allah sizi qorusun. İngiltərədə yaşayıram, necə ala bilərəm."

**Sadiq Mukibi – İngiltərə**

"Yerli televiziyada sənədli filmlərinizdən birini seyr etdim. İşığın necə meydana gəldiyi, dəmir və təbiət qaynaqları kimi mövzuların Quranda necə xəbər verildiyi ilə əlaqədar idi. Çox təsirləndim."

**Abdulwahab Jelel – Nigeriya**

"Əssəlamuəleykum, Allaha çox şükür Müsəlmanam. Bəzi sənədli filmlərinizi seyr etdim və filmləriniz mənə çox ilham verdi, məlumatmı çox artırdı. Məlumatmı daha da artırmaq istəyirəm. Buna görə də filmlərinizi seyr edirəm."

**Faraz**

"Adım Süleyman Tijanidir. Yamaykada yerli universitetdə oxuyuram. Yamaykada İslama və müsəlmanlara qarşı çox yanlış dünyagörüşü var. İslam və xüsusilə, Quran əxlaqı üzərinə olan proqramlarınız indiyə qədər gördüyüm ən yaxşı proqramlardır. Qardaşım Yəhya, əsərləriniz əsl Müsəlman olmağımda və bu ölkəni aydınlandırmada ilham qaynağı oldu. "Həqiqətə dəvət". Buna görə sənədli filmlərinizi Yamaykadakı Müsəlmanlara paylamaq üçün icazə istəyirəm. Yamayka Müsəlman Şurası adına bunu sizdən istəyirəm. Xüsusilə, "Fələstin", "Sionizm" və "Quran möcüzələri" sənədli filmlərinizi çox bəyəndim. Xahiş edirəm, belə parlaq əsərlər hazırlamağa davam edin. Allaha bizi doğru yola istiqamətləndirməsi üçün dua edirəm. Siz mənim ilham qaynağımsınız və sizin addımlarınızı izləyəcəyəm. Təşəkkürlər, yamaykalı Müsəlmanlardan. Allah sizi mükafatlandırsın. Cavabınızı gözləyirəm."

**Sulaiman Tijani – Yamayka**

“Sevimli Harun Yəhya, bir müddətdir kitablarınızı oxuyur və videolarınızı seyr edirəm. Xüsusilə, “Quran möcüzələri” və “Darvinizmin tənəzzülü” ilə əlaqədar mövzular mənə çox təsir etdi.”

**Llateef rəhman – Nigeriya**

“Harun Yəhyanın təkamül ilə əlaqədar çox əsərini oxudum və izlədim. Bu tip çalışmalar olduğu üçün çox xoşbəxtəm. Daha əvvəl məhdud məlumatımla Müsəlman olmayan yoldaşlarıma təkamülün niyə qəbul edilməz olduğunu izah etməyə çalışmışdım. İndi sizin çalışmalarınız sayəsində məlumatmı artırdığım üçün daha məntiqli və köklü şəkildə onlara izah edə bilərəm. İslami Tibb Birliyi vasitəsi ilə yığıncaqlar təşkil etmək və burada şagirdlərə Harun Yəhyanın videolarını göstərmək istəyirəm. Beləliklə, İslami dünyagörüşünü görə bilərlər. Müsəlman olmayanlar da tamaşaçı və natiq olaraq, inşaAllah, qatıla biləcəklər.”

**Saima Sharif – İngiltərə**

“Sevimli Harun Yəhya, “Quran möcüzələri” CD-nizin üzərində saytınızın ünvanını tapdım. Quran ilə əlaqədar şərhləriniz həqiqətən çox faydalı və məqsədəuyğundur. Ümid edirəm CD-lər kimi səhifəniz də Müsəlman olmayanların dini anlamalarına kömək edər.”

**Sawmeer Khan – Sri Lanka**

“Sevimli qardaşlarım, sizə ortaya qoyduqlarınızın nə qədər qiymətli olduğunu göstərmək üçün bu yazını yazıram. Allahın yolunda hazırladığınız videoların əksəriyyətini gördüm və geri qalanını da görməyi ümid edirəm, inşaAllah. Allah rizası üçün ürəyimə və ruhuma xitab etdiniz. Allahı daha yaxşı tanımaq üçün araşdırmaya başlamazdan əvvəl tam Müsəlman deyildim. Siz mənə başqaları ilə maraqlanmağı, dua etməyi, sevməyi və yetimlərlə maraqlanmağı ilham etdiniz, inşaAllah. Sizin mənə kömək

etdiyiniz kimi Allah da sizə kömək etsin... İnşaAllah, bir gün Cənnətdə bir yerə gələ bilərik."

**Farah Osman**

"Mən şagirdəm və bu internet saytı həyatımı və düşüncələrimi dəyişdirdi. Belə imkanı İslam dünyasına təmin etmiş olduğu üçün əvvəlcə Allaha və sonra sizə təşəkkürlərimi bildirirəm. Ünsiyyət texnologiyası ilə yaxından əlaqədar olduğum üçün sizin DVD filmlərinizi Avstraliyada çoxaldıb ödənişsiz paylama imkanım ola bilərmi, bu mövzuda icazə verərsinizmi? Bu mövzuda istiqamətləndirməyinizi gözləyirəm. Çox təşəkkürlər..."

**Sizin Məhəmmədiniz – Avstraliya**

"Mən Cənubi Afrikada yaşayıram. Burada sizin əməyiniz keçən və möhtəşəm əsərlərdən ibarət CD-lərinizi göstərirəm. Bu CD-lərin İngilis dilində olanlarını istəyirəm. Özüm gələn həftə Türkiyəyə gələcəyəm, inşaAllah. Bu CD-ləri birbaşa sizdən almaq istəyirəm. Türkiyədə, "Darvinizmin tənəzzülü" adlı nümayişlər təşkil edilmişdi, təəssüf ki, mən özüm gedə bilmədim, amma yoldaşlarımız çox təsirlənmişdilər. Hal-hazırda əlimdə Türk dilində olan bütün CD-lər var. Kitablarınızdan da bəziləri vardır.

Bura, yəni Cənubi Afrika bildiyiniz kimi köməyə möhtac olan ölkədir, xüsusilə, İslam mövzusunda. İnsanlar cəhalət içindədirlər. Bu ölkədə yalnız təqdimat və nümayişlər azad və qadağansız şəkildə edilir. Hər kəs dinini yaymaqda azaddır. Bunu mənim kimi gənc yoldaşlar istifadə etməli və üzərimizə düşən vəzifəni etməli olduğumuzu düşünürəm. Bu mövzuda bizə kömək edin, zəhmət olmasa. Bu CD-ləri toplantıda izlətdirək, ardından kitab satışı da edə bilərik, sizinlə bu mövzuda nə edə bilərik? Cavabınızı gözləyirəm."

**Umran Sesli – Cənubi Afrika**

“Bayramınızı təbrik edirəm. Mən Kanada Sənədli film təşkilatının üzvüyəm. Kanada və ABŞ-da yayımlanacaq silsilə İslami sənədli filmlərin hazırlanması mövzusunu təşkilatımızla danışacağam. Sizinlə çalışmağı ümid edirəm.”

**Qardaşınız Haroon – Kanada**

“Əvvəlcə, Allah çalışmalarınızın və müvəffəqiyyətinizin davam etməsi üçün sizə kömək olsun. Mən və yoldaşlarım ABŞ-da Massachusetts universitetində oxuyurduq. VCD, DVD və kitablarınızdan istifadə etdiyimiz üçün çox xoşbəxtik. Bütün yoldaşlarımıza, müəllimlərimizə və insanlara bunları tövsiyə edirik.”

**Həsən Gök – Massachusetts, ABŞ**

“Bir və tək olan Allahın varlığının dəlillərini göstərmə mövzusunda istifadə etdiyiniz üsullarla siz ən yaxşısınız. Təşəkkürlər.”

**Nadia Toumi, Cəzair**

“Axırzaman və Mehdi” sənədli filmi və kitabı

“Allah ağılla bilinər” sənədli filmi

“Quran möcüzələri”, “Beyin möcüzəsi: Qoxu və dad”, “Dənizlərdəki möcüzə” Harun Yəhyanın çox maraq görən sənədli filmlərindən bir neçəsidir.

## Alman dilində sənədli filmlər

10 CD-dən ibarət, hər bir CD-də iki film olan bu setdə, cəmi 20 sənədli film yer alır. "İslam terroru lənətləyir", "Təbiətdəki texnologiya", "İnsanın yaradılışı", "Ateizmin tənəzzülü", "Materializmin tənəzzülü", "Dünya həyatının həqiqəti", "Həll Quran əxlaqıdır", "Darvinizmin qaranlıq üzü" bu set içində yer alan sənədli filmlərdən bəziləridir.

Almaniyadakı televiziya kanallarında isə həm Almanca, həm də Türkcə sənədli filmlər yayımlanır. Almaniyada sənədli filmlərin nizamlı şəkildə yayımlandığı televiziya kanalları arasında "TD1" və "Nur TV" var.

